RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 268 (10013) 20 dekabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Müstəqillik tariximizin ən böyük amnistiyası

## İlham Əliyev 20 minə yaxın ailəyə sevinc bəxş etdi

İlham Əliyev hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsindən çıxış edərək bayram və əlamətdar günlərdə əfv sərəncamları imzalayıb. Azərbaycan Prezidentinin son 22 ildə imzaladığı əfv sərəncamları, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş amnistiya aktları minlərlə insanı əhatə edib.

Dünən isə Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında qərar qəbul edib.

Bu, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiyanın 30 illiyi, Vətən müharibəsində qazandığımız tarixi Zəfərin 5-ci ildönümü, ölkəmizin suverenliyinin tam bərpa olunması və "Konstitusiya və Suverenlik İli" münasibətilə Prezident İlham Əliyev tərəfindən elan edilən növbəti humanizm təşəbbüsüdür.

Bu amnistiya 2023-cü ildə Qarabağda separatizmə birdəfəlik son qoyulmasından, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam təmin edilməsindən sonra irəli sürülmüş ilk təşəbbüsdür. Bu fakt onun siyasi, hüquqi və mənəvi baxımdan xüsusi əhəmiyyətini daha da artırır.

Digər tərəfdən, amnistiyanın tətbiq ediləcəyi şəxslərin dairəsi və sayı əvvəlkilərlə müqayisədə xeyli genişdir. Belə ki, amnistiya qərarı 16 kateqoriya üzrə şəxslərə, habelə 13 müxtəlif cəza növü üzrə cinayət törətmiş və ya qanun pozuntusuna yol vermiş vətəndaşlara şamil ediləcək. Ümumilikdə isə təxminən 20 min vətəndaşımız dövlətimizin bu humanist siyasətindən birbaşa faydalana biləcək. Bu qərarın təsir dairəsini daha geniş miqyasda qiymətləndirdikdə həmin şəxslərin ailə üzvləri və yaxınları da nəzərə alınmaqla, bu təşəbbüsün ən azı 200 min insana sevinc bəxş edəcək, azadlığa çıxanların ailələri ilə yenidən qovuşmasına və cəmiyyətə sağlam inteqrasiyasına imkan yaradacaq.

Amnistiya qərarından ilk növbədə Birinci və İkinci Qarabağ müharibələrinin, habelə 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirlərinin iştirakçılarının, şəhid ailələrinin və xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının faydalanacağı təqdirəlayiq haldır. Bu fakt bir daha təsdiq edir ki, Azərbaycan dövləti torpaqlarımızın azadlığı və suverenliyimizin təmin olunması uğrunda vuruşmuş, canlarını fəda etmiş qəhrəman övladlarını və onların ailələrini heç vaxt unutmur.

8

## "Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm"

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Məqsədyönlü rəhbərliyimizlə Çin-Azərbaycan hərtərəfli strateji tərəfdaşlıq münasibətləri sürətlə inkişaf edir, ölkələrimiz arasında qarşılıqlı siyasi etimad daim möhkəmlənir, ikitərəfli faydalı əməkdaşlıq durmadan inkişaf edir və beynəlxalq səviyyədə fəaliyyət səmərəli şəkildə reallaşdırılır.

Bu il ərzində Sizinlə iki dəfə görüşmüşük, əldə etdiyimiz mühüm razılaşmalar səmərəli və hərtərəfli şəkildə həyata keçirilir.

Çin ilə Azərbaycan arasında münasibətlərin inkişafına böyük əhəmiyyət verirəm. Hər iki ölkənin xalqlarının rifahı naminə hərtərəfli əməkdaşlıqda yeni nəticələr əldə etmək üçün Sizinlə birlikdə çalışmağa hazıram.

Sizə möhkəm cansağlığı və firavanlıq arzulayıram.

***Si CİNPİN,***
***Çin Xalq Respublikasının Sədri***

## Milli Məclis Avropa Parlamentinin qərəzli qətnaməsi ilə əlaqədar bəyanat yayıb



**Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsi ilə əlaqədar bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir.

"Azərbaycan Respublikasının Milli Məclisi Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsini şiddətlə qınayır və bu qərəzli siyasi akta qəti etirazını bildirir. Yalan məlumatlar və saxta iddialar üzərində qurulan, konkret cinayət əməllərinə siyasi don geyindirən bu sənəd qanunun aliliyinə kölgə salmaq və məhkəmə proseslərinə kobud müdaxilə etmək üçün göstərilən növbəti uğursuz cəhddir.

Görünən odur ki, anti-Azərbaycan ritorikasından əl çəkə bilməyən Avropa Parlamenti bir daha siyasi riyakarlıq nümayiş etdirərək, insan hüquqları kimi önəmli mövzudan öz gizli gündəliyi və təxribatçı məqsədləri üçün istifadəyə davam edir. Torpaqlarımızın 30 illik işğalına, yüzlərcə şəhər və kəndlərimizin, tarixi, dini və mədəni abidələrimizin dağıdılmasına daim etinasız qalmış, 1 milyon qaçqın və məcburi köçkünün insan hüquqlarının pozulmasını görməzdən gəlmiş Avropa Parlamenti 44 günlük Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına, beynəlxalq hüququn norma və prinsiplərinin həyata keçirilməsinə Azərbaycan əleyhinə 10-dan artıq rüsvayçı qətnamənin qəbulu ilə cavab vermişdir.

Bunu da xatırlatmaq yerinə düşər ki, Avropa Parlamenti COP29 kimi mötəbər tədbirin keçirilməsi ərəfəsində və keçirildiyi dövrdə Azərbaycana qarşı hibrid hücumlarda əsas alətlərdən biri kimi istifadə olunmuşdur. Bu da dəfələrlə sübuta yetirilmişdir ki, Avropa Parlamentində qətnamələrin qəbulu prosesi konkret maraq qrupları tərəfindən məqsədli şəkildə idarə edilir.

7

## "Sizi beynəlxalq miqyasda yüksək hörmət və nüfuza malik böyük siyasətçi kimi yaxşı tanıyırıq"

Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə



Hörmətli İlham Heydər oğlu!

Əziz qardaşım!

Zati-aliləri, Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, ən xoş arzularımı çatdırmaqdan böyük məmnunluq hissi duyuram.

Sizi əzəli qardaşımız olan Azərbaycan xalqının əsl vətənpərvər və fədakar övladı, müdrik və sədaqətli rəhbəri, dövrümüzün görkəmli dövlət xadimi, beynəlxalq miqyasda yüksək hörmət və nüfuza malik böyük siyasətçi kimi yaxşı tanıyır və yüksək qiymətləndiririk.

İdarəçilik sahəsindəki zəngin bilik və təcrübəniz, uzaqgörən, müdrik və səmərəli siyasətiniz nəticəsində doğma Vətəninizin təkcə ərazi bütövlüyü bərpa olunmayıb, həm də onun beynəlxalq arenadakı mövqeyi və nüfuzu ildən-ilə daha da möhkəmlənib ki, bütün bunlar bizi sonsuz dərəcədə sevindirir.

Bu məqamda Sizin irəli sürdüyünüz mühüm regional və qlobal təşəbbüslərin dünya ictimaiyyəti tərəfindən geniş dəstək görməsini də xüsusi vurğulamaq istərdim.

Dost və qardaş dövlətlərimiz arasında strateji tərəfdaşlıq, müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsi yolundakı böyük xidmətləriniz və qətiyyətli səyləriniz sayəsində qardaşlıq əlaqələrimizin tamamilə yeni keyfiyyət mərhələsinə yüksəldiyini məmnuniyyətlə qeyd edirik.

Hörmətli İlham Heydər oğlu, qarşıya qoyduğumuz ali məqsədlərə çatmaq üçün birgə səylərimiz, ali səviyyədə aparılan fəal və konstruktiv dialoqumuz nəticəsində çoxşaxəli və uzunmüddətli əməkdaşlığımızın qardaş xalqlarımızın ümumi tərəqqisi naminə bundan sonra da səmərəli inkişaf edəcəyinə qəti şəkildə inanıram.

Əziz dostum, həyatınızın bu sevincli və unudulmaz günü münasibətilə Sizi bir daha səmimi-qəlbdən təbrik edir, Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, ailə səadəti, ölkənizin əmin-amanlığı və rifahı naminə həyata keçirdiyiniz məsuliyyətli dövlətçilik fəaliyyətinizdə yeni-yeni nailiyyətlər, dost Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və davamlı inkişaf arzulayıram.

*Səmimi ehtiramla,*

***Şavkat MİRZİYOYEV,***
***Özbəkistan Respublikasının Prezidenti***

## Azərbaycan sülh və humanizm siyasətini növbəti dəfə nümayiş etdirdi




Azərbaycandan Ermənistana neft yükü tədarükünün həyata keçirilməsi bu il 8 avqust tarixində Vaşinqtonda əldə edilən sülhə dair razılaşmanın praktik şəkildə də təsdiqini tapdığının göstəricisidir. Bu onu göstərir ki, qətiyyət və səyləri ilə Cənubi Qafqazda de-fakto sülhü bərqərar edən Azərbaycan bu müstəvidə atdığı əyani addımlarla prosesə mühüm töhfələr verir və nümunə ortaya qoyur.

Bu məsələ kommersiya maraqlı olsa da, özündə qarşılıqlı etimadı qüvvətləndirən mahiyyət daşıyır və sabitliyə hesablanıb. O da reallıqdır ki, iqtisadi maraqlar ölkələri çox hallarda real münaqişələrdən yayındırır və bu mənada Ermənistanın Azərbaycanın onun üçün açdığı bu iqtisadi-ticari qapını bağlaması ağılsızlıq olar.

10

## "Avropa Parlamenti Azərbaycan və Ermənistan liderlərinin cəsarətli səylərini dəstəkləməlidir"

Avropa Parlamentində deputatlar Ermənistan və Azərbaycanla bağlı məsələni yenidən gündəmə gətiriblər.

AZƏRTAC xəbər verir ki, bu müzakirələr fonunda deputat Tyerri Mariani iki ölkənin sülh sazişi imzalamağa hazırlaşdığı bir vaxtda Avropa Parlamentinin mövqeyini tənqid edib.

"Azərbaycan və Ermənistan 1994-cü ildən münaqişə vəziyyətində olsalar da, son beş ildə fəal sülh danışıqları aparılır və bu proses artıq yekun mərhələyə yaxınlaşıb. Avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan birgə bəyannamə imzalayıblar. Donald Trampın vasitəçiliyi ilə mümkün olan bu diplomatik addım real nəticələr verib.

Ermənistan yaxın günlərdə 30 ildən çox fasilədən sonra ilk dəfə Azərbaycandan neft



tədarükü alacaq. Gürcüstan isə bu normallaşmanı dəstəklədiyini bildirərək, neftin öz ərazisindən ödənişsiz tranzitinə razılıq verib", - deyə T.Mariani bildirib.

O qeyd edib ki, Bakı və İrəvan Avrasiya məkanında nəqliyyat və ticarət əlaqələrini köklü şəkildə dəyişdirəcək yeni iqtisadi dəhlizin yaradılması barədə razılığa gəliblər. 2026-cı ilin iyununda Ermənistanda keçiriləcək seçkilər ərəfəsində bu vəziyyətin sabitləşməsi və iqtisadi dirçəliş perspektivləri ölkə və region əhalisi üçün müsbət qiymətləndirilir.

Tyerri Marianinin fikrincə, məhz belə bir sülh şəraitində Avropa Parlamentinin Azərbaycana qarşı 14-cü tənqidi qətnaməni qəbul etməsi tarixi prosesə ziddir və qurumun etibarlılığına zərər vura bilər. O hesab edir ki, Avropa Parlamenti revanş yox, barış və inkişaf yolunu seçən Prezident İlham Əliyevin və Baş nazir Nikol Paşinyanın cəsarətli səylərini dəstəkləməlidir. Deputatın sözlərinə görə, parlamentin əsas məqsədi Cənubi Qafqazda uzun illər davam etmiş münaqişənin bağlanmasına və regionun sabit inkişafına töhfə vermək olmalıdır.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Əminəm ki, bu il Siz bayramınızı xüsusi əhvali-ruhiyyə ilə qarşılayırsınız. Sizin siyasi müdrikliyiniz və möhkəm iradəniz sayəsində Azərbaycan Respublikası qarşıya qoyulmuş məqsədlərə nail olaraq beynəlxalq nüfuzunu inamla artırır.

Belarusda ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətlərinə, həmçinin müxtəlif sahələrdə dövlətlərarası əməkdaşlığın ardıcıl inkişafına xüsusi əhəmiyyət verilir.

Çoxtərəfli platformalarda etimada əsaslanan təmasları və qarşılıqlı dəstəyi, eləcə də Belarus-Azərbaycan dialoqunun bütün səviyyələrdə dərinləşdirilməsinə göstərdiyiniz diqqəti yüksək qiymətləndirirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan xalqının rifahı naminə yeni nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

***Aleksandr LUKAŞENKO,***
***Belarus Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi və xoş arzularımı qəbul etməyinizi xahiş edirəm. Bu xoş fürsətdən istifadə edərək, birgə səylərimiz nəticəsində Bolqarıstan Respublikası ilə Azərbaycan Respublikası arasında strateji tərəfdaşlığın və çox yaxşı münasibətlərin gələcəkdə də fəal şəkildə inkişaf edəcəyinə və dərinləşəcəyinə əminliyimi bildirirəm.

Son bir neçə ildə hər dəfə konstruktiv və dostluq mühitində keçən, ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli formatlarda strateji münasibətlərin, səmərəli əlaqələrin, fəal siyasi dialoqun genişlənməsinin təsdiqləndiyi görüşlərimizi məmnuniyyətlə xatırlayıram.

Ümid edirəm ki, Veliko Tırnovo şəhərində Sizinlə birlikdə böyük səylər göstərdiyimiz Şuşa parkının açılışı ilə əlaqədar Bolqarıstana uzun müddət gözlənilən səfəriniz ölkəmizdəki mövcud siyasi böhrandan asılı olmayaraq 2026-cı ildə baş tutacaqdır.

Sizin şəxsi diqqətiniz və iştirakınız sayəsində ötən il uğurla keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasından (COP29) sonra 2026-cı ildə Azərbaycanda ilk dəfə olaraq Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) çərçivəsində təşkil ediləcək zirvə toplantısında da ölkələrimiz arasında ən yüksək səviyyədə dialoqu davam etdirməyə hazıram.

Sizə möhkəm cansağlığı, rifah və ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

Hörmətli cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Rumen RADEV,***
***Bolqarıstan Respublikasının Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı qəbul edin.

Sizin müdrik rəhbərliyinizlə qardaş Azərbaycan dövlətçiliyin möhkəmləndirilməsində, beynəlxalq nüfuzunun yüksəldilməsində və xalqın rifahının yaxşılaşdırılmasında əhəmiyyətli uğurlar qazanıb.

Böyük məmnunluqla qeyd etmək istərdim ki, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma kimi möhkəm prinsiplərə əsaslanan Türkmənistan-Azərbaycan münasibətləri son zamanlar yeni vüsət alıb.

Bu münasibətlər yüksək səviyyədə qarşılıqlı etimad və anlaşma ilə fərqlənir ki, bu da dövlətlərimizin gələcək uğurlu inkişafı üçün möhkəm təməl rolunu oynayır.

Bu xoş fürsətdən istifadə edərək Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti və ali dövləti fəaliyyətinizdə yeni uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, davamlı tərəqqi və firavanlıq arzulayıram.

*Dərin hörmətlə,*

***Sərdar BERDİMƏHƏMMƏDOV,***
***Türkmənistanın Prezidenti***

❖ ❖ ❖

Çox hörmətli cənab Prezident!

Zati-alinizin doğum günü münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin liderliyiniz sayəsində Azərbaycan müasir və uğurlu bir dövlətə çevrilmiş, beynəlxalq aləmdə öz rolunu və nüfuzunu inamla gücləndirərək, dövlət üçün mühüm nəticələrə, o cümlədən ərazi bütövlüyünün bərpasına və möhkəmləndirilməsinə nail olmuşdur.

Xalqlarımızın dostluğunun və Ukrayna ilə Azərbaycan arasında qarşılıqlı dəstəyə, beynəlxalq hüquqa, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət prinsiplərinə əsaslanan strateji tərəfdaşlığın möhkəmləndirilməsində Azərbaycan Respublikasının Prezidenti kimi Sizin şəxsi töhfənizi yüksək qiymətləndirirəm.

Bu tərəfdaşlıq Qara dəniz-Xəzər regionunda ədalətli sülhə nail olmaq niyyətinə, eləcə də enerji, iqtisadi-ticari, humanitar və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına xidmət edir.

Ukrayna Rusiya Federasiyasının silahlı təcavüzü şəraitində göstərilən həmrəylik və praktiki dəstəyə görə Sizə və Azərbaycan xalqına dərin minnətdarlığını bildirir. Xüsusilə ölkənin enerji sistemi obyektlərinin fəaliyyətinin təmin edilməsi məqsədilə göstərilən humanitar yardım, Kiyev vilayətində işğaldan azad edilmiş İrpen şəhərinin yenidən qurulmasında iştirak, cəbhəyanı regionlardan olan ukraynalı uşaqların sağlamlığının bərpası və reabilitasiyası yüksək dəyərləndirilir.

Zati-aliləri cənab Prezident, icazə verin, Sizi bir daha ürəkdən təbrik edim, Sizə möhkəm cansağlığı və dövlətçilik fəaliyyətinizdə yeni uğurlar, dost Azərbaycan xalqına isə sülh, rifah və tərəqqi arzulayım.

*Dərin ehtiramla,*

***Volodimir ZELENSKİ,***
***Ukraynanın Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Rusiya Federasiyasının Hökuməti adından və şəxsən öz adımdan Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyinizlə dost Azərbaycan milli iqtisadiyyatın və sosial sahənin inkişafına, vətəndaşlarının rifahının yaxşılaşdırılmasına və beynəlxalq aləmdə nüfuzunun gücləndirilməsinə yönəlmiş genişmiqyaslı islahatlar yolu ilə inamla irəliləyir.

Rusiya-Azərbaycan münasibətlərinin mehriban qonşuluq və qarşılıqlı hörmət ruhunda möhkəmləndirilməsinə göstərdiyiniz daimi diqqəti xüsusilə qeyd etmək istərdim. Ən yüksək səviyyədə qəbul edilmiş qərarlara uyğun olaraq, iqtisadi-ticari və investisiya əməkdaşlığı durmadan inkişaf edir, perspektivli birgə layihələr həyata keçirilir, regionlararası əlaqələr və işgüzar təmaslar genişləndirilir.

Əminəm ki, əməkdaşlığın daha da gücləndirilməsi, müxtəlif sahələrdə yeni qarşılıqlı faydalı təşəbbüslərin təşviqi Rusiya Federasiyasının və Azərbaycan Respublikasının maraqlarına tam cavab verir.

Həmişə səmimi və etimad mühitində keçən söhbətlərimizi xoş duyğularla xatırlayıram. Konstruktiv ünsiyyətimizi davam etdirmək imkanına şad olaram.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, firavanlıq və ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Səmimi hörmətlə,*

***Mixail MİŞUSTİN,***
***Rusiya Federasiyası Hökumətinin Sədri***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul edin.

Siz ölkənizin mənafeyi naminə xalqınızın və dahi atanızın gözləntilərini layiqincə doğruldursunuz.

Uzaqgörən siyasətiniz sayəsində Azərbaycanın beynəlxalq nüfuzu artmış, regionda sülh və qarşılıqlı etimadın yeni bir mərhələsi formalaşmışdır.

Ölkənizə davamlı rifah və yeni nailiyyətlər arzulayıram.

Aramızda yaranan hörməti xüsusilə yüksək qiymətləndirirəm. Dostluq və hörmət ruhunda keçən bütün görüşlərimizi, söhbətlərimizi həmişə xoş duyğularla yada salıram.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, nəcib təşəbbüslərinizdə müvəffəqiyyət, qardaş Azərbaycan xalqına isə firavanlıq və yeni uğurlar diləyirəm.

*Ən xoş arzularla,*

***Nursultan NAZARBAYEV,***
***Qazaxıstan Respublikasının birinci Prezidenti***

❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Doğum gününüz münasibətilə səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Sizin siyasi karyeranız cəsarətlə irəliləyən, dürüstlük, qətiyyət və ölkəsinin taleyinə görə məsuliyyət nümayiş etdirən, enerjisi ilə həmfikir insanları və tərəfdarları ruhlandıran bir liderin yoludur.

Sizin çoxillik fədakar əməyiniz sayəsində Azərbaycan sosial-iqtisadi inkişafda, dövlətçiliyinin möhkəmləndirilməsində və beynəlxalq nüfuzunun yüksəldilməsində mühüm nəticələrə nail olmuşdur.

Rusiya-Azərbaycan parlament dialoqunun genişləndirilməsi məsələlərinə göstərdiyiniz davamlı diqqəti minnətdarlıqla qeyd edirəm. 2025-ci ilin mart ayında Bakıya səfərimi xüsusi səmimiyyətlə xatırlayıram. Mənə göstərdiyiniz mehriban münasibəti yüksək dəyərləndirirəm.

Sizə möhkəm cansağlığı, dost Azərbaycan xalqının rifahı naminə məsuliyyətli fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Valentina MATVİYENKO,***
***Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan böyük şərəf duyuram.

Qarabağ Zəfəri ilə müasir Azərbaycan dövlətçiliyinin qüdrətini bütün dünyaya nümayiş etdirmiş Lider, türk dünyasının qürur mənbəyi olaraq Sizin qətiyyətli və uzaqgörən siyasi rəhbərliyinizlə Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlətçilik yolunu tarixi Zəfərlə başa çatdıraraq 30 illik işğala son qoymuşdur. Bu möhtəşəm nailiyyət milli tariximizdə mühüm dönüş nöqtəsi olmaqla yanaşı, türk dünyasının ortaq yaddaşında da silinməz iz buraxmışdır və xalqın birliyinin, siyasi iradəsinin və dövlətçilik əzminin parlaq təcəssümüdür.

Bu əlamətdar gündə Türk Dövlətləri Parlament Assambleyası adından Sizi təbrik etməklə yanaşı, qeyd etmək istərdim ki, Sizin rəhbərliyinizlə yazılmış Zəfər salnaməsi türk dünyasında mənəvi həmrəyliyin möhkəmlənməsinə, ortaq dəyərlər ətrafında daha sıx birləşməyə və gələcəyə birlikdə inamla addımlamağa mühüm töhfə vermişdir. Bu gün türk dünyası Sizin liderliyinizə və xidmətlərinizə dərin ehtiramla və minnətdarlıqla yanaşır.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı, uzun və gümrah ömür, Azərbaycan Respublikasının davamlı inkişafı və xalqımızın rifahı naminə həyata keçirdiyiniz ali dövləti fəaliyyətinizdə yeni uğurlar arzulayıram.

*Yüksək hörmət və ehtiramla,*

***Ramil HƏSƏN,***
***Türk Dövlətləri Parlament Assambleyasının Baş katibi***



❖ ❖ ❖

Hörmətli İlham Heydər oğlu!

Sizi doğum gününüz münasibətilə təbrik edirəm.

Ən səmimi və xoş arzularımızı qəbul etməyinizi xahiş edirəm.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, uğurlar və bütün arzularınızın asanlıqla reallaşmasını diləyirəm.

"Komsomolskaya pravda"nın bu xüsusi yubiley ilində Sizə dostluğunuza görə səmimi-qəlbdən təşəkkür edirəm.

*Hörmətlə,*

***Olesya NOSOVA,***
***Rusiyanın "Komsomolskaya pravda" media qrupunun baş redaktoru və baş direktoru***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

ABŞ-nin Yuta ştatında yaşayan azərbaycanlılar adından Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Biz, dünyanın müxtəlif guşələrində yaşayan azərbaycanlılar Sizin xarici siyasətinizin uğurlarını, milli dəyərlərə söykənən inkişaf strategiyanızı, rəhbərliyinizlə həyata keçirilən islahatları, dövlətimizin keçdiyi inkişaf yolunu böyük qürurla izləyirik. Azərbaycan bu gün dünyada güclü və etibarlı dövlət kimi tanınır. Vətənimizin nailiyyətləri bizi çox sevindirir.

Sizin rəhbərliyinizlə 44 günlük Vətən müharibəsində qazanılan və bu il beş illiyini qeyd etdiyimiz şanlı Zəfər qətiyyətinizin, uzaqgörənliyinizin və milli maraqlara möhkəm bağlılığınızın nəticəsidir. Azərbaycan xalqının uzun illər həsrətində olduğu torpaqlar azad edilmiş, tarixi ədalət bərpa olunmuşdur. Zəfər Günü yalnız hərbi qələbəmiz deyil, həm də milli birliyimizin, xalq-dövlət həmrəyliyinin parlaq təcəssümüdür.

Bu möhtəşəm günün yaratdığı tarixi qüruru yaşayırıq və bu qürurun memarı kimi Sizin liderliyinizi alqışlayırıq.

Son illər Azərbaycan ilə Yuta ştatı arasında formalaşmağa başlayan əlaqələr bizi xüsusilə sevindirir. İqtisadiyyat, təhsil, mədəniyyət sahələrində yaranan bu yeni əməkdaşlıq xalqlarımız arasında qarşılıqlı anlaşma və dostluğun möhkəmlənməsinə xidmət edir. Bu əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə inanırıq.

Cənab Prezident, Sizin prinsipial mövqeyiniz, Qarabağın yenidən qurulması istiqamətində gördüyünüz işlər və Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzu bizim üçün böyük motivasiya mənbəyidir. Biz, Yutada yaşayan azərbaycanlılar daim Vətənimizin yanındayıq.

Doğma Azərbaycanımızın gələcək inkişafı yolunda Sizə yeni-yeni nailiyyətlər arzulayırıq. Qoy ölkəmiz daim güclü və qüdrətli, xalqımızın birliyi və bütövlüyü əbədi olsun!

***Əsmər GƏRAY,***
***ABŞ-də fəaliyyət göstərən Yuta Azərbaycan Dostluq Təşkilatının rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ABŞ-nin Texas ştatının Hyuston şəhərində yaşayan azərbaycanlılar adından səmimi-qəlbdən təbrik edirəm. Sizin sayənizdə Azərbaycan bu gün dünyada öz sözünü qətiyyətlə deyən, haqqını qoruyan, xalqını birləşdirən bir dövlət kimi tanınır və ucalır.

Biz harada yaşamağımızdan asılı olmayaraq bu ucalığın bir parçası olmaqdan qürur duyuruq.

Sizin rəhbərliyinizlə Azərbaycan son beş ildə tarixinin ən parlaq səhifələrindən birini yazdı. Beş il əvvəl qazandığımız Zəfər təkcə hərbi qələbə deyil, həm də uzun illər boyu ürəklərdə yaşayan haqq-ədalətə qovuşma arzusunun reallığa çevrilməsidir. 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" kimi qeyd edilməsi isə həmin Zəfərin mənəvi davamı, dövlətimizin əzmkarlığının və iradəsinin daha bir göstəricisidir. Sanki Zəfərdən doğan işıq bu dəfə dövlətçilik sütunlarımızı daha da möhkəmləndirir, suverenliyimizin səsi hər bir azərbaycanlının qəlbində yenidən ucalır. Biz bu ili yalnız təqvimdə yox, ruhumuzda, yaddaşımızda, dövlətçilik sevgimizdə qeyd edirik. Dünyanın müxtəlif guşələrində yaşayan biz azərbaycanlılar Vətənlə aramızdakı məsafələrə baxmayaraq, Sizin qətiyyətli siyasətinizlə güc tapırıq. Hər çıxışınız, hər addımınız bizim üçün ruh yüksəkliyi, ilham mənbəyi olur. Biz Sizi dəstəkləməklə təkcə bir liderə yox, həm də Vətənimizin əzəmətinə, gücünə, gələcəyinə inamımızı ifadə edirik.

Sizi qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edir, 2026-cı ildə Sizə və ölkəmizə daha böyük zəfərlər, xalqımıza firavanlıq arzu edirik.

*Dərin hörmət və ehtiramla,*

***İradə AXUNDOVA,***
***ABŞ-də fəaliyyət göstərən Hyuston-Bakı Qardaşlaşmış Şəhərlər Assosiasiyasının və Azərbaycan Mərkəzinin rəhbəri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Hatay Azərbaycan Evi adından səmimi-qəlbdən təbrik edirik.

Sizin rəhbərliyinizlə Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biri yazılmış, Vətən müharibəsində əldə olunan şanlı Qələbə xalqın gücünü, iradəsini və birliyini bütün dünyaya nümayiş etdirmişdir.

Bu gün regionda formalaşan yeni siyasi və təhlükəsizlik mühiti, eyni zamanda Azərbaycanın suverenliyinin tam təmin olunması Sizin düşünülmüş, ardıcıl və prinsipial siyasətinizin bariz göstəricisidir.

Sizə möhkəm cansağlığı, tükənməz enerji, Azərbaycanın daha da inkişafına yönəlmiş fəaliyyətinizdə davamlı uğurlar diləyirik. Əminik ki, Sizin liderliyinizlə Azərbaycan qarşıdakı illərdə daha böyük nailiyyətlər əldə edəcək və ölkənin mövqeyi beynəlxalq arenada daha da möhkəmlənəcəkdir.

Fürsətdən istifadə edərək Sizi bütün soydaşlarımızın birliyinin təcəssümü olan 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də təbrik edirik. Sizin həyata keçirdiyiniz siyasət sayəsində bu həmrəylik daha möhkəm, Azərbaycan diasporu isə daha fəal və məqsədyönlü şəkildə fəaliyyət göstərməkdədir.

Sizə dərin hörmət və ehtiramımızı bildirir, Azərbaycan xalqına və dövlətinə göstərdiyiniz xidmətlərdə davamlı nailiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Başar KÖMÜR,***
***Türkiyədə fəaliyyət göstərən Hatay Azərbaycan Evinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi dərin hörmət və ehtiramla salamlayır, doğum gününüz münasibətilə ən səmimi təbriklərimizi çatdırırıq. Sizə möhkəm cansağlığı, xoşbəxtlik və Azərbaycan Respublikasının daha da inkişafı üçün fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayırıq.

Bu il 44 günlük Vətən müharibəsində əldə edilən tarixi Qələbənin 5-ci ildönümünü böyük iftixar hissi ilə qeyd etdik. Sizin uzaqgörən siyasətiniz, əzminiz, qətiyyətiniz və xalqın milli birliyi bu möhtəşəm Zəfərin reallaşmasında mühüm rol oynamışdır. Azərbaycan xalqının qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılan bu Qələbə müdrik rəhbərliyinizin parlaq təcəssümüdür.

Sizi həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni 2026-cı il münasibətilə də səmimi-qəlbdən təbrik edir, xalqın həmrəyliyinin, milli birliyinin daha da möhkəmlənməsini, ölkənin davamlı şəkildə böyük nailiyyətlər, zəfərlər qazanmasını arzu edirik.

*Dərin hörmətlə,*

***Cavid AYDIN,***
***Türkiyədə fəaliyyət göstərən Əskişəhər Azərbaycanlılar Dərnəyinin sədri***

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Ərəb Ölkələrində Yaşayan Azərbaycanlıların Koordinasiya Şurası adından Sizi doğum gününüz münasibətilə təbrik edirik.

Azərbaycan dövlətinin güclənməsi, xalqımızın rifahının yüksəlməsi, ölkəmizin regional və qlobal proseslərdə aparıcı mövqeyə sahib olması istiqamətində göstərdiyiniz əvəzsiz xidmətlərə görə Sizə ən yüksək ehtiramımızı bildiririk. Sizin müdrik siyasətiniz, uğurlu fəaliyyətiniz bu gün milyonlarla azərbaycanlı üçün qürur mənbəyidir.

Bu il biz Qarabağ Zəfərinin 5 illiyini böyük fərəh hissi ilə qeyd etik. Beş il öncə Azərbaycanın müasir tarixində yeni bir dövr başlanmış, Sizin qətiyyətli rəhbərliyiniz, Müzəffər Ali Baş Komandan kimi müstəsna siyasi iradəniz və Azərbaycan Ordusunun rəşadəti nəticəsində ölkəmizin ərazi bütövlüyü bərpa olunmuşdur. Qarabağ Zəfəri həm xalqımızın milli iradəsinin, həm də dövlətimizin gücünün parlaq təcəssümüdür. Bu zəfər dünya azərbaycanlıları üçün iftixar mənbəyinə çevrilmiş, Azərbaycanın beynəlxalq mövqelərini daha da möhkəmləndirmişdir.

Sizin rəhbərliyinizlə həyata keçirilən ardıcıl siyasi, diplomatik və hərbi strategiya sayəsində təkcə işğala son qoyulmadı, eyni zamanda bölgədə dayanıqlı inkişaf, sülh və təhlükəsizliyə yeni baxış formalaşdırıldı. Bu gün Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri məhz Sizin müdrik rəhbərliyinizin nəticəsidir.

Cənab Prezident, Sizi eyni zamanda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik etməkdən şərəf duyuruq. Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız bu bayramı Sizin həyata keçirdiyiniz uğurlu diaspor siyasətinin nəticəsi kimi daha böyük birlik, həmrəylik və milli özünüdərk ruhu ilə qeyd edirlər. Biz - Ərəb ölkələrində yaşayan azərbaycanlılar olaraq hər zaman Vətənə bağlılıqla fəaliyyət göstərir, Azərbaycan həqiqətlərinin təbliği, dövlətimizin maraqlarının müdafiəsi və milli birliyin gücləndirilməsi istiqamətində səylərimizi davam etdiririk.

2026-cı ilin Sizin rəhbərliyinizlə Azərbaycan üçün daha böyük nailiyyətlər, zəngin inkişaf perspektivləri və dayanıqlı tərəqqi ili olacağına əminliyimizi ifadə edirik. Sizə möhkəm cansağlığı, uzun ömür, ali dövləti fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Ərəb Ölkələrində Yaşayan Azərbaycanlıların Koordinasiya Şurası (Birləşmiş Ərəb Əmirlikləri, Bəhreyn, Küveyt, Qətər, Misir, Oman, Səudiyyə Ərəbistanı)***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirik.

Sizin rəhbərliyinizlə "Konstitusiya və Suverenlik İli" olan 2025-ci il də uğurlarla və qürur mənbəyi olan hadisələrlə zəngin keçdi. Azərbaycan Respublikasının beynəlxalq müstəvidə öz sözünü inamla deməsi, milli maraqların ardıcıl şəkildə müdafiəsi və ölkənin dünya tərəfindən sülhsevər və güclü bir dövlət kimi qəbul olunması məhz Sizin siyasi iradəniz nəticəsində reallaşmışdır.

Vətən müharibəsində qazanılan Zəfərin 5 illiyinin qeyd olunduğu bu il Azərbaycan xalqının yaddaşına bir sıra mühüm uğurlarla həkk olundu. Zəngəzur dəhlizinin açılması istiqamətində görülən işlər, müxtəlif ölkələrin dövlət başçıları ilə keçirilən mühüm görüşlər, işğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi inkişafı üçün atılan addımlar və s. bu uğurlara nümunədir.

Diaspor fəaliyyətinin genişləndirilməsi istiqamətində görülən işləri də xüsusi qeyd etmək istərdik. Belə ki, xarici ölkələrdə yaradılan yeni həftəsonu məktəbləri gənclərimizin milli ruhda yetişdirilməsində mühüm rol oynamışdır. Diaspor nümayəndələri və digər qurumlarla birlikdə təşkil olunan mədəni proqramlar və digər tədbirlər müxtəlif xalqların Azərbaycan mədəniyyəti və reallıqları barədə daha dolğun məlumat əldə etməsinə şərait yaratmış, ölkəyə marağı artmışdır. Bütün bunlar məhz Sizin xaricdə yaşayan həmvətənlərlə bağlı siyasətinizin bəhrələridir.

Cənab Prezident, Sizi həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, 2026-cı ilin də zəfər, sülh, nailiyyət, firavanlıq ili kimi yadda qalmasını diləyirik.

*Hörmətlə,*

***Ben Sion ŞMOELOV,***
***İsraildə fəaliyyət göstərən Qafqaz Yəhudilərinin Mədəniyyət Mərkəzinin rəhbəri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

"Konstitusiya və Suverenlik İli" olan 2025-ci il mühüm təşəbbüslər və nailiyyətlərlə yadda qalır. Sizin uzaqgörən siyasətiniz, strateji addımlarınız sayəsində Azərbaycan bu gün dünyada öz mövqeyini daha da möhkəmləndirir, milli maraqlarını ardıcıl şəkildə müdafiə edir, güclü və sülhsevər bir dövlət kimi beynəlxalq ictimaiyyətin hörmətini qazanır.

Bu il həm də Zəfər Gününün beşinci ildönümünün qeyd edilməsi ilə əlamətdar oldu və bu, Azərbaycan tarixində yeni bir fəsil açdı.

Bu mühüm tarixə həsr olunmuş tədbirlər, regional sabitliyin və təhlükəsizliyin gücləndirilməsi istiqamətində səyləriniz, Zəngəzur dəhlizinin açılması ilə bağlı görülən işlər, keçirilən beynəlxalq görüşlər və azad edilmiş ərazilərin bərpası üçün həyata keçirilən genişmiqyaslı tədbirlər - bütün bunlar tarixi Qələbənin məntiqi davamıdır.

Xaricdəki Azərbaycan diasporuna göstərilən diqqəti xüsusi qeyd etmək istəyirəm. Yeni həftəsonu məktəblərinin yaradılması gənc nəslin Azərbaycan dilini öyrənməsinə, mədəniyyəti ilə tanış olmasına, eyni zamanda birgə mədəni layihələrin həyata keçirilməsi digər xalqların Azərbaycanın mədəni irsinin zənginliyinin şahidi olmasına imkan yaradır.

Cənab Prezident, Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də təbrik edirəm. Göstərdiyiniz diqqət və qayğıya, həyata keçirdiyiniz uğurlu siyasətə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. 2026-cı ilin bütün Azərbaycan üçün daha da uğurlu olmasını arzulayıram.

*Dərin hörmətlə və ən xoş arzularla,*

***Şaul Siman-TOV,***
***İsraildə fəaliyyət göstərən "Şolumi" Mərkəzinin rəhbəri, "Azİz" Assosiasiyasının icraçı direktoru, STMEGI TV-nin İsrail filialının rəhbəri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

❖ ❖ ❖

Möhtərəm cənab Prezident!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirik.

Hansı ölkədə yaşamalarından asılı olmayaraq bütün azərbaycanlılar Sizinlə fəxr edirlər. Sizin qürur mənbəyi olan uzaqgörən siyasətiniz sayəsində ölkəmiz sürətlə inkişaf edir, onun beynəlxalq aləmdə nüfuzu getdikcə daha da artır. Azərbaycan dövlətinin güclənməsini böyük fəxarət və sevinc hissi ilə izləyirik.

Sizin qətiyyətli rəhbərliyinizlə beş il əvvəl Azərbaycan tarixində yeni bir mərhələ başlandı və torpaqlarımızın işğaldan azad edilməsi xalqımızın yaddaşına əbədi olaraq şanlı Zəfər kimi həkk olundu. Ötən illər ərzində həmin Qələbənin möhkəmləndirilməsi, azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirilməsi və insanların öz doğma yurdlarına qaytarılması Sizin yorulmaz fəaliyyətiniz sayəsində reallığa çevrilmişdir.

Ölkəmizin suverenliyinin bərpası, inkişaf edərək möhkəmlənməsi istiqamətində həyata keçirdiyiniz uğurlu siyasətə görə Azərbaycan-Yaponiya Dostluq Mərkəzi adından Sizə dərin minnətdarlığımızı bildiririk.

Cənab Prezident, biz, Yaponiyada yaşayan azərbaycanlılar hər zaman doğma Vətənimizin inkişafına və Azərbaycanın maraqlarının beynəlxalq aləmdə təşviqinə öz töhfəmizi verməyə hazırıq. Əminik ki, Sizin rəhbərliyinizlə ölkəmiz gələcəkdə daha böyük nailiyyətlərə imza atacaqdır.

Fürsətdən istifadə edərək Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Sizə təbriklərimizi çatdırır, xalqımızın müdrik lideri kimi dərin ehtiramımızı bildiririk.

Ulu Tanrıdan Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti, şərəfli fəaliyyətinizdə yeni uğurlar, zəfərlər arzulayırıq.

Yaşasın Azərbaycan!

*Hörmətlə,*

***Xəlil KƏLƏNTƏR,***
***Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri,***
***Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə Avstraliyada yaşayan azərbaycanlılar adından səmimi-qəlbdən təbrik edir, Zati-alinizə ən xoş arzularımızı çatdırırıq.

Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası müstəqil, güclü və nüfuzlu dövlət kimi beynəlxalq aləmdə öz layiqli yerini möhkəmləndirmiş, milli maraqlarını qətiyyətlə qoruyan, gələcəyə inamla addımlayan bir ölkəyə çevrilmişdir. Dövlətçiliyin möhkəmləndirilməsi, xalqın rifahının yüksəldilməsi və Azərbaycan diasporunun dünya miqyasında birliyinin gücləndirilməsi istiqamətində göstərdiyiniz ardıcıl fəaliyyət yüksək qiymətləndirilir.

Eyni zamanda Sizi 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə də ürəkdən təbrik edirik. Bu əlamətdar gün dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların milli kimlik, mədəniyyət və dövlətçilik ideallları ətrafında birliyini ifadə edir. Diaspor təşkilatlarının güclənməsi və ana Vətənlə əlaqələrinin möhkəmlənməsi istiqamətində aparılan dövlət siyasəti bizim üçün xüsusi qürur mənbəyidir.

Avstraliyada yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının inkişafı, beynəlxalq nüfuzunun artması və xalqın həmrəyliyi üçün atılan hər bir addımı dəstəkləyirlər.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, uzun ömür, Azərbaycan xalqı və dövləti naminə fəaliyyətinizdə davamlı uğurlar arzulayırıq.

*Dərin hörmətlə,*

***Mikayil OYTA,***
***Avstraliya Azərbaycan Assosiasiyasının prezidenti***

❖ ❖ ❖

Hörmətli cənab Prezident, Müzəffər Ali Baş Komandan!

Kanadanın Toronto şəhərində fəaliyyət göstərən və Azərbaycan milli musiqisini, mədəni irsini, klassik və müasir incəsənətini yaşadan və dünyaya tanıdan "Baku Production" layihəsinin təsisçiləri olaraq Sizə dərin ehtiram, qürur və minnətdarlıq hissi ilə müraciət edirik.

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı, tükənməz enerji və Azərbaycanı daha parlaq sabahlara aparan yolda böyük uğurlar arzulayırıq.

Son illər Azərbaycan xalqı Sizin rəhbərliyinizlə tarixin ən şərəfli dönəmini yaşayır. Beş il öncə qazanılmış şanlı Zəfər xalqımızın milli yaddaşına əbədi həkk olunmuş, bütün dünyada yaşayan azərbaycanlılara böyük ruh yüksəkliyi, iftixar hissi bəxş etmişdir. Tarixi Zəfərimiz Azərbaycan xalqının əzmini, iradəsini və birliyini bütün dünyaya nümayiş etdirdi. Zəfərin yaratdığı milli ruh və qürur gələcək nəsillərə yol göstərən əbədi bir işıq olacaqdır. Arzu edirik bu Zəfərin işığı daim sönməz olsun, güc və ilham mənbəyi kimi xalqımızı daha böyük zirvələrə aparsın.

2025-ci ilin "Konstitusiya və Suverenlik İli" kimi qeyd olunması dövlətimizin müstəqilliyinin dönməzliyini, milli iradəmizin gücünü və Zəfərdən doğan yeni geosiyasi reallığın möhkəmlənməsini təsdiqləyən böyük bir hadisədir. Biz bu ili yalnız təqvim kimi deyil, həm də ürəklərimizdə, milli kimliyimizi yaşatdığımız bütün mədəni layihələrimizdə qeyd etdik.

Sizin qətiyyətli və uzaqgörən siyasətiniz Azərbaycanı bu gün beynəlxalq arenada öz sözünü inamla deyən, haqqını qoruyan və mədəni irsini fəxrlə təbliğ edən güclü bir dövlətə çevirmişdir. Məhz bu siyasətin nəticəsidir ki, biz - Kanadada yaşayan mədəniyyət təbliğatçıları Azərbaycan incəsənətini, musiqisini, muğamını, xalq mahnılarını müxtəlif icmalara böyük qürurla təqdim edirik.

Əsas məqsədimiz milli musiqimizi, sənət irsimizi qorumaq, gələcək nəsillərə çatdırmaq və Azərbaycanın adını Kanadada ən yüksək səviyyədə təmsil etməkdir. Bu missiyanı yerinə yetirərkən Sizin uğurlu siyasətiniz bizə həm güc, həm motivasiya, həm də istiqamət verir.

Hörmətli cənab Prezident, Sizi həmçinin 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə də ürəkdən təbrik edirik. Yeni ilin Vətənimizə əvvəlki illərdə olduğu kimi, firavanlıq, rifah və davamlı qələbələr gətirməsini diləyirik.

Ən dərin hörmət və ehtiramla,

***Sənan ƏLİZADƏ və Sultanhüseyn QASIMZADƏ,***
***Kanadada fəaliyyət göstərən "Baku Production" layihəsinin təsisçiləri***

❖ ❖ ❖

Hörmətli cənab Prezident!

Doğum gününüz münasibətilə Sizə səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq. Sizin rəhbərliyinizlə Azərbaycanın regionda yaratdığı yeni reallıq, qazandığı tarixi nailiyyətlər xaricdə yaşayan azərbaycanlılar üçün böyük iftixar mənbəyidir. Milli həmrəyliyimizin güclənməsi, dövlətimizin daha da inkişafı, beynəlxalq miqyasda nüfuzunun artması ilə bağlı əldə olunan bütün nailiyyətlər birbaşa Sizin möhkəm iradənizin, qətiyyətinizin və uzaqgörən liderliyinizin nəticəsidir. Sizin sayənizdə beş il əvvəl qazanılan tarixi Zəfər bu gün də hər bir azərbaycanlının qəlbində qürur və birlik hissini yaşadır.

Biz, Vətəndən uzaqda yaşayan azərbaycanlılar ölkəmizin uğurları ilə fəxr edirik, Sizin siyasətinizi dəstəkləyirik və hər zaman yanınızdayıq.

Cənab Prezident, Sizi həmçinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edirik. 2026-cı ildə Sizə və ölkəmizə yeni-yeni nailiyyətlər arzulayırıq.

*Dərin hörmətlə,*

***Tamella SEVERCAN,***
***Kanadanın Vankuver şəhərində fəaliyyət göstərən***
***Azərbaycan Mədəniyyət Mərkəzinin rəhbəri***

# Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illiyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin iştirakçılarına

Hörmətli konqres iştirakçıları!

Sizi Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin öz işinə başlaması münasibətilə salamlayır, hər birinizə məsuliyyətli və şərəfli fəaliyyətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

Dünyanın mötəbər tibb qurumlarını təmsil edən tanınmış alim və mütəxəssislərin iştirak etdiyi bu konqresdə tibb elminin və səhiyyənin müxtəlif aspektlərinə dair ətraflı fikir mübadiləsi aparılacaqdır. Beynəlxalq praktikadan qarşılıqlı surətdə faydalanmaqla aktual məsələlərin müzakirəsinə və həllinə yönəlmiş birgə səylərinizin səmərəli olacağına inanıram.

Ölkəmizdə səhiyyə sistemi öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Dövlətin səhiyyə siyasətinin hədəflərinə uyğun olaraq tibb ocaqları ən müasir standartlar səviyyəsində yenidən qurulur, araşdırmaların son tibbi texnoloji nailiyyətlərin tətbiqi ilə elm və təcrübənin vəhdətində aparılması təşviq edilir. Bu istiqamətdə üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gələn Həkimləri Təkmilləşdirmə İnstitutunun özünəməxsus xidmətləri vardır.

İnstitut yarandığı vaxtdan etibarən zəngin bir yol keçmişdir. Tarixinin parlaq səhifələri görkəmli dövlət və elm xadimi Əziz Əliyevin adı ilə bağlı olan bu qocaman elm-tədris müəssisəsində məşhur alimlər nəslinin vaxtilə formalaşdırdığı peşəkar mühit indi də lazımınca qorunur. İnstitut öz bazasında topladığı yüksək hazırlıqlı professor-müəllim heyəti ilə həkimlərin təkmilləşdirilməsi və ixtisaslarının artırılması sahəsində uğurlar əldə edən, mütərəqqi təcrübənin öyrənilərək elmi-praktiki müstəvidə tətbiqinə böyük diqqət yetirən və beynəlxalq əlaqələrini davamlı genişləndirən mərkəz kimi nüfuz qazanmışdır.

Bu baxımdan beynəlxalq miqyaslı belə mühüm bir tədbirin məhz institutun 90 illik yubileyinə həsr olunması rəmzi məna daşıyır. Əminəm ki, konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əməkdaşlığını daha da möhkəmləndirəcək, insanlara göstərilən tibbi yardımın keyfiyyətinin yüksəldilməsi və ümumilikdə tibb elminin inkişafı işinə töhfəsini verəcəkdir.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2025-ci*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq **qərara alır:**

"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 1(Cild I); 2024, № 5 (I kitab), maddə 489, № 7, maddə 748, № 8, maddə 934; 2025,№ 2, maddə 96, № 6, maddə 539, № 7, maddə 606) 28.12-ci maddəsinin ikinci hissəsindən "(müvafiq icra hakimiyyəti orqanı, habelə Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələri istisna olmaqla)" sözləri çıxarılsın və həmin hissəyə birinci halda "vəzifələrə" sözündən sonra "(yerli icra hakimiyyəti orqanlarının rəhbərlərinin müavinləri və Azərbaycan Respublikasının xarici ölkələrdə ticarət nümayəndələri istisna olmaqla)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2025-ci il*

# "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 305-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 305-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 28 (Cild I); 2024, № 5 (I kitab), maddə 526, № 7, maddə 805; 2025, № 2, maddə 124, № 7, maddə 632) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.22-3-cü bənd ləğv edilsin;

1.2. 3.22-4-cü bənddən "(ikinci halda)" sözləri çıxarılsın və həmin bəndə "həyata" sözündən əvvəl ", Bakı Şəhər İcra Hakimiyyəti" sözləri əlavə edilsin;

1.3. 3.23-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"3.23-1. həmin Qanunun 29-1-ci maddəsində nəzərdə tutulmuş qurum:

3.23-1.1. mərkəzi icra hakimiyyəti orqanlarında, onların yanında yaradılan dövlət agentliklərində və dövlət xidmətlərində, habelə mərkəzi icra hakimiyyəti orqanlarının yanında, tabeliyində olan orqanlarda dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlərə münasibətdə - həmin mərkəzi icra hakimiyyəti orqanlarında yaradılmış apellyasiya şuralarıdır;

3.23-1.2. yerli icra hakimiyyəti orqanlarında, yerli icra hakimiyyəti başçılarının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, yerli icra hakimiyyəti başçısının yanında olan orqanlarda dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlərə münasibətdə - həmin yerli icra hakimiyyəti orqanlarında yaradılmış apellyasiya şuralarıdır;".

2. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542 (Cild I); 2024, № 4, maddə 379, № 5 (I kitab), maddə 529; 2025, № 5, maddə 459, № 8, maddə 763; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 28 noyabr tarixli 539 nömrəli və 10 dekabr tarixli 546 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 2.10-1-ci bəndinə "şikayətlərə" sözündən sonra ", habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə" sözləri əlavə edilsin.

3. "Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında"Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 226 (Cild I); 2025, № 7, maddə 632, № 8, maddə 761) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Fərmanla təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 5.2-ci bəndi üzrə:

3.1.1. "yarımbəndləri ilə müəyyən edilmiş tələblər" sözləri "yarımbəndlərində nəzərdə tutulan məlumatların"sözləri ilə əvəz edilsin;

3.1.2. "şikayətlərə şamil edilmir" sözləri "şikayətlərdə göstərilməsi tələb olunmur" sözləri ilə əvəz edilsin;

3.2. həmin Fərmanla təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"üzrə:

3.2.1.1-ci hissə üzrə:

3.2.1.1. 1.1-ci bəndə "şikayətlərə" sözündən sonra ", habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə" sözləri əlavə edilsin;

3.2.1.2. 1.3-cü bəndə "hərəkətsizliyindən" sözündən sonra ", habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin" sözləri əlavə edilsin;

3.2.1.3. aşağıdakı məzmunda 1.5-1-ci bənd əlavə edilsin:

"1.5-1. Yerli icra hakimiyyəti orqanında, yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndəliklərində, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklərində və yerli icra hakimiyyəti başçısının yanında olan orqanlarda dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlərə həmin yerli icra hakimiyyəti orqanlarında yaradılmış Apellyasiya Şurasında baxılır.";

3.2.2. aşağıdakı məzmunda 5.1-1-ci və 7.5-1-ci bəndlər əlavə edilsin:

"5.1-1. Bu Əsasnamənin 5.1.3-cü və 5.1.5-ci yarımbəndlərində nəzərdə tutulan məlumatların dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilən şikayətlərdə göstərilməsi tələb olunmur.";

"7.5-1. Müvafiq xüsusiyyətlər nəzərə alınmaqla, bu Əsasnamənin 7.3-7.5-ci bəndləri Apellyasiya Şurasında dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən verilmiş şikayətlərə baxılmasına da şamil edilir.".

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2025-ci il*

# Abşeron rayonu ərazisində avtomobil yollarının əsaslı təmiri ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Abşeron rayonunun Hökməli və Qobu qəsəbələri ərazisində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,4 milyon (bir milyon dörd yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yollarının əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2025-ci il*

# Həkimləri Təkmilləşdirmə İnstitutunun 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqres işə başlayıb

**Dekabrın 19-da Heydər Əliyev Mərkəzində Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun (ADHTİ) yaranmasının 90 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi-praktiki konqresin açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin dəstəyi ilə təşkil olunub və ölkəmizin diplomdan sonrakı tibb təhsilinin inkişafında mühüm rol oynayan Ə.Əliyev adına ADHTİ-nin zəngin tarixinə, elmi tədris fəaliyyətinə və müasir nailiyyətlərinə həsr edilib.

Konqresin əsas məqsədi tibb elmində yeni elmi-praktik nailiyyətlərin müzakirəsi, həkimlərin bilik və bacarıqlarının artırılması, xüsusilə gənc həkimlərin elmi inkişafına töhfə vermək olub.

İlk olaraq Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban verən şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Konqresin açılış mərasimində səhiyyə naziri Teymur Musayev tərəfindən Prezident İlham Əliyevin konqres iştirakçılarına müraciəti oxunub.

Tədbirdə çıxış edən Milli Məclisin Səhiyyə Komitəsinin sədri Əhliman Əmiraslanov vurğulayıb ki, ADHTİ-nin 90 illik fəaliyyəti Azərbaycanın səhiyyə tarixinin çox mühüm bir hissəsidir. Onun sözlərinə görə, institutda çalışan alimlər, həkimlər, müəllimlər Azərbaycan tibb elminin inkişafına mühüm töhfələr veriblər.

Konqresin sədri, ADHTİ-nin rektoru Nazim Pənahov "Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun əməkdaşlarının "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamının institutun fəaliyyətinə verilən yüksək qiymət olduğunu qeyd edib. Rektor bu yüksək qiymətə görə institutun kollektivi adından Prezident İlham Əliyevə minnətdarlığını bildirib. Öz çıxışında Nazim Pənahov institutun yaradılması tarixindən və keçdiyi şərəfli yoldan danışıb. Diqqətə çatdırılıb ki, Azərbaycanın əksər, eyni zamanda bir çox xarici ölkələrin həkimləri institutda ixtisaslaşma və ya ixtisasartırma kursları keçərək öz peşə karyeralarını qurublar. İnstitutun tarixinin bir çox şanlı səhifələri Əziz Əliyevin adı ilə bağlıdır. Məhz buna görə 1962-ci ildə instituta Əziz Əliyevin adı verilib. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın oftalmologiya elminə verdiyi böyük və sanballı töhfələr onun məhz ADHTİ-də çalışdığı illərə təsadüf edir. İnstituta 30 ildən çox bir müddətdə isə akademik Mirməmməd Cavadzadə rəhbərlik edib. Onun rəhbərliyi altında institut inkişaf edərək, o dövrün tanınmış ali təhsil ocağına çevrilib.

Tədbirdə həmçinin institutun tarixindən və fəaliyyətindən bəhs edən sənədli film nümayiş olunub.

Sonra İstanbul Universitetinin rektoru Osman Bülent Zülfikar, Səmərqənd Dövlət Tibb İnstitutunun rektoru Jasur Rizayev, Rusiya Fasiləsiz Peşəkar Tibbi Təhsil Akademiyasının prorektoru Aleksey Çerepov və digərləri çıxış edərək, ADHTİ ilə bağlı xatirələrini bölüşüblər, institutun kollektivini yubiley münasibətilə təbrik ediblər. Eyni zamanda ölkəmizdə tibb elminin və səhiyyənin inkişafı, əhalinin sağlamlığının mühafizəsi istiqamətində gələcək fəaliyyətlərində onlara müvəffəqiyyətlər arzulayıblar.

İki gün davam edəcək konqres çərçivəsində tibbin müxtəlif sahələrinin aktual problemlərinə həsr olunmuş 2 plenar iclas və 5 elmi panel təşkil olunub. Tədbirdə Azərbaycanla yanaşı, Türkiyə, Böyük Britaniya, Özbəkistan, Rusiya, Gürcüstan, İran, Danimarka, Almaniya və digər ölkələrdən olan mütəxəssislər elmi məruzələrlə çıxış edərək, tibb elminin son nailiyyətləri və müasir yanaşmalar ətrafında geniş müzakirələr aparıblar.

Konqres işini dekabrın 20-də yekunlaşdıracaq.

Qeyd edək ki, tədbir Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən 10 Davamlı Tibbi Təhsil krediti ilə akkreditasiya edilib.

# Baş nazir Əli Əsədov BMMT-nin Baş katibi ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 19-da Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Baş katibi Ərgüc Kələntərli ilə görüşüb.**

BMMT-dən AZƏRTAC-a bildirilib ki, görüş zamanı BMMT ilə Azərbaycan Respublikası arasında uzunmüddətli və konstruktiv tərəfdaşlığı qeyd olunub. Baş katib Azərbaycanın təşkilata göstərdiyi davamlı dəstəyə və beynəlxalq əməkdaşlığa sadiqliyinə görə minnətdarlığını ifadə edib, ölkənin mülki müdafiə və fövqəladə halların idarə olunması sahələrində zəngin təcrübəsini diqqətə çatdırıb. O, həmçinin Baş nazir Əli Əsədovu BMMT-də həyata keçirilən institusional islahatlar, üzvlüyün genişləndirilməsi istiqamətində görülən işlər və planlaşdırılan humanitar təşəbbüslər barədə məlumatlandırıb.

Baş nazir Əli Əsədov Azərbaycanın BMMT ilə əməkdaşlığa sadiqliyini bir daha təsdiqləyərək, ölkəmizin beynəlxalq qurumla münasibətlərin daha da möhkəmləndirilməsinə verdiyi əhəmiyyəti vurğulayıb. Görüşdə əməkdaşlığın gələcək inkişafı ilə bağlı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası keçirilib



**Dekabrın 19-da Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının iclası keçirilib.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikasının Baş naziri, ARDNF-nin Müşahidə Şurasının sədri Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Dövlət Neft Fondunun 2026-cı il üzrə büdcə layihəsinin proqnoz göstəriciləri, o cümlədən fondun gəlirləri və vəsaitindən istifadənin əsas istiqamətləri, investisiya siyasəti, investisiya portfelinin valyuta tərkibi və gəlirliliyi və digər cari məsələlər ətraflı müzakirə olunub.

İclasda ARDNF-nin icraçı direktoru İsrafil Məmmədovun məruzəsi dinlənilib.

Yekunda Fondun Müşahidə Şurasının üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla Dövlət Neft Fondunun 2026-cı il üçün büdcə layihəsinin Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması barədə müvafiq qərar qəbul edilib.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı ilə təsdiq edilmiş "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 405** **Bakı şəhəri, 19 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 28 yanvar tarixli 26 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 55 (Cild I); 2024, № 12 (I kitab), maddə 1316) ilə təsdiq edilmiş "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı"nın "Azərbaycan Respublikasının Xüsusi Tibb Xidməti" bölməsinə aşağıdakı məzmunda 2-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 2. | "Gəncə Müalicə Diaqnostika Mərkəzi" MMC-nin qanköçürmə şöbəsi |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyalarına maliyyə yardımı barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 215 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 406** **Bakı şəhəri, 19 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin strukturunun təkmilləşdirilməsi və Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 oktyabr tarixli 1465 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 11 iyul tarixli 435 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyalarına maliyyə yardımı barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 30 dekabr tarixli 215 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 12, maddə 1350 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Adında ", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyalarına" sözləri "qəzeti redaksiyasına, "Xalq" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinə və "Bakinski raboçi" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinə" sözləri ilə əvəz edilsin.

2. Preambulada "Xalq qəzeti", "Respublika" sözləri "Xalq" sözü ilə əvəz edilsin.

3. 1-ci hissədə ", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyaları" sözləri "qəzeti redaksiyası, "Xalq" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti və "Bakinski raboçi" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

4. Həmin Qərara əlavə - "Dövlət sifarişlərinin yerinə yetirilməsi üçün "Azərbaycan", "Xalq qəzeti", "Respublika" və "Bakinski raboçi" qəzeti redaksiyalarına dövlət büdcəsinin vəsaiti hesabına alınacaq qəzet kağızının norması" aşağıdakı redaksiyada verilsin:

**Dövlət sifarişlərinin yerinə yetirilməsi üçün "Azərbaycan" qəzeti redaksiyasına, "Xalq" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinə və "Bakinski raboçi" qəzetinin redaksiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinə dövlət büdcəsinin vəsaiti hesabına alınacaq qəzet kağızının norması**

| Qəzet redaksiyaları | Qəzetlərin illik tirajı (nüsxə ilə) | Hər bir nüsxənin həcmi (səhifə ilə) | Qəzet kağızına illik tələbat (tonla) |
|---|---|---|---|
| "Azərbaycan" | 2100 min | 10 | 148 |
| "Xalq" qəzetinin redaksiyası" MMC | 1700 min | 10 | 123 |
| "Bakinski raboçi"qəzetinin redaksiyası" MMC | 166 min | 10 | 12 |

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 397** **Bakı şəhəri, 17 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin yaradılması haqqında" 2025-ci il 30 iyun tarixli 425 nömrəli və "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2025-ci il 29 avqust tarixli 491 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354, № 6 (II kitab), maddə 715, № 10, maddə 1167, № 11, maddə 1252; 2025, № 4 (I kitab), maddə 393, № 5, maddə 505, № 9, maddə 846) dəyişiklik təsdiq edilsin (əlavə olunur, məxfi).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xarici texniki kəşfiyyata qarşı fəaliyyətə dair məlumat sisteminin istismarının təşkili Qaydaları"nın və "Xarici texniki kəşfiyyata qarşı fəaliyyətə dair məlumat sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi"nin təsdiq edilməsi barədə" 2020-ci il 29 yanvar tarixli 22 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 398** **Bakı şəhəri, 17 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti haqqında Əsasnamənin, Xidmətin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" 2021-ci il 22 dekabr tarixli 1509 nömrəli, "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin yaradılması haqqında" 2025-ci il 30 iyun tarixli 425 nömrəli və "Azərbaycan Respublikası Dövlət Mühafizə Xidmətinin fəaliyyətinin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" 2025-ci il 29 avqust tarixli 491 nömrəli fərmanlarının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Xarici texniki kəşfiyyata qarşı fəaliyyətə dair məlumat sisteminin istismarının təşkili Qaydalarının və "Xarici texniki kəşfiyyata qarşı fəaliyyətə dair məlumat sistemi daxilində dövlət orqanlarının informasiya resurslarından istifadəyə buraxılış dərəcəsi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 yanvar tarixli 22 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 1, maddə 78 (Cild I) dəyişiklik təsdiq edilsin (əlavə olunur, məxfi).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Dövlət qulluqçularının reyestrinin aparılması ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli 395 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 403** **Bakı şəhəri, 18 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət qulluqçularının reyestrinin aparılması ilə əlaqədar bir sıra məsələlərin tənzimlənməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli 395 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı"nın və "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 1 may tarixli 118 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 5, maddə 547 (Cild I); 2024, № 1, maddə 87, № 4, maddə 470, № 11, maddə 1263; 2025, № 7, maddə 715) aşağıdakı dəyişikliklər edilsin:

1.1. aşağıdakı məzmunda 5-ci hissə əlavə edilsin:

"5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı" üzrə:

1.2.1. 22.1-ci bənddə "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestri" sözləri "Dövlət qulluqçularının reyestri" sözləri ilə əvəz edilsin;

1.2.2. "Qeyd" hissəsi ləğv edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"in "Qeyd" hissəsi ləğv edilsin.

2. "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 6 aprel tarixli 89 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 393 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

2.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydası"nın 4.27-ci bəndinin ikinci cümləsində, 4.28-ci bəndində və 6.5.6-cı yarımbəndində "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrinə" sözləri "Dövlət qulluqçularının reyestrinə" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 4, maddə 421 (Cild I); 2024, № 1, maddə 98, № 3, maddə 301, № 7, maddə 892, № 10, maddə 1160, № 11, maddə 1247; 2025, № 2, maddə 200, № 6, maddə 605; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 oktyabr tarixli 289 nömrəli, 13 oktyabr tarixli 298 nömrəli, 21 oktyabr tarixli 305 nömrəli və 28 noyabr tarixli 350 nömrəli qərarları) ilə təsdiq edilmiş "Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"nın 8.2.3-cü yarımbəndində "Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrində" sözləri "Dövlət qulluçularının reyestrində" sözləri ilə əvəz edilsin.

4. "Dövlət orqanlarının kadr siyasəti və insan resurslarının idarə edilməsi sahəsində illik iş planlarının və həmin planlara əsasən illik hesabatların tərtib edilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 21 dekabr tarixli 447 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1551 (Cild I); 2024, № 5 (II kitab), maddə 576) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3-cü hissə aşağıdakı redaksiyada verilsin:

"3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

4.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət orqanlarının kadr siyasəti və insan resurslarının idarə edilməsi sahəsində illik iş planlarının və həmin planlara əsasən illik hesabatların tərtib edilməsi Qaydası"nın 2.5.2-ci yarımbəndinin 5-ci abzası aşağıdakı redaksiyada verilsin:

"5. dövlət qulluqçuları barədə məlumatların Dövlət qulluqçularının reyestrinə daxil edilməsinin Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 may tarixli 395 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluqçularının reyestrinin aparılması Qaydası"na uyğun olaraq təmin olunması;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 404** **Bakı şəhəri, 19 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Polis haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 237-VIIQD nömrəli Qanununun tətbiqi və "Polis haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 11 noyabr tarixli 205 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 avqust tarixli 468 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərardan irəli gələn məsələləri həll etsin.

3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

Milli Məclisin iclasında

# Parlament amnistiya aktını qəbul etdi

**Dekabrın 19-da Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova birinci məsələnin Avropa Parlamentinin Azərbaycana qarşı qəbul etdiyi qətnamə ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatı olduğunu bildirib.**

Spiker deyib ki, Avropa Parlamentində Azərbaycanı hədəf alan növbəti siyasi aksiya təşkil olunub. Ölkəmizə qarşı böhtanlar və əsassız ittihamlar üzərində qurulan ədalətsiz daha bir qətnamə qəbul edilib. Təəssüf doğuran haldır ki, Avropa Parlamenti bu addımı ilə Azərbaycanda real vəziyyəti əks etdirməyən və beynəlxalq hüquq prinsiplərinə zidd olan qeyri-obyektiv və qərəzli praktikasını davam etdirib. Bu qətnamə Avropa Parlamentinin dövlət suverenliyinə hörmət və daxili işlərə qarışmamaq prinsiplərinə etinasız münasibətini əks etdirir.

Vurğulanıb ki, biz sənəddə yer alan "siyasi məhbusların mövcudluğu", "siyasi təqiblər", "akademik azadlıqların və mədəni hüquqların pozulması" kimi ifadələri və digər ittihamları qətiyyətlə rədd edirik.

Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan Respublikası qanunun aliliyi, dövlət institutlarının müstəqilliyi və öz vətəndaşları qarşısında cavabdehliyi prinsiplərinə dönmədən əməl edir. Demokratik institutların sərbəst fəaliyyət göstərməsi, vətəndaş cəmiyyətinin əsas elementlərinin qurulması və digər amillər dövlətimizin demokratiya yolu ilə irəliyə getmək əzmini və iradəsini nümayiş etdirir. Biz əminik ki, dayanıqlı inkişaf, insan hüquqlarının və azadlıqlarının müdafiəsi yalnız milli hüquq qaydası çərçivəsində və dövlətin suveren səlahiyyətlərinə ciddi riayət olunması şəraitində təmin edilə bilər.

Spiker diqqətə çatdırıb ki, mövcud reallıqların nəzərə alınmadığı birtərəfli rəyləri qəbul etdirmək cəhdləri heç də etimadın möhkəmlənməsinə və tərəfdaşlığın inkişafına xidmət etmir. Əksinə, bu cür yanaşma bərabərhüquqlu beynəlxalq əməkdaşlıq ideyasının özünə zərbə vurur və konstruktiv dialoq anlayışını dəyərdən salır.

Azərbaycan Respublikası insan hüquqları sahəsində beynəlxalq müqavilələrin məsuliyyətli iştirakçısıdır və üzərinə götürdüyü öhdəlikləri ardıcıl yerinə yetirir. Bununla birlikdə, biz ölkəmizlə münasibətlərin inkişafını əsassız tələblərin yerinə yetirilməsi ilə bağlamaq cəhdlərinə səssiz qala bilmərik. Bizim dövlətimiz beynəlxalq qurumlar ilə qarşılıqlı hörmət, obyektivlik və ikili standartlara yol verilməməsi əsasında əməkdaşlıq üçün açıqdır. Lakin heç bir qurumun Azərbaycanla təzyiq dili ilə danışmağa haqqı yoxdur.

Milli Məclisin Sədri Sahibə Qafarova vurğulayıb ki, saxta ittihamlar və əsassız iddialar yolu ilə Azərbaycanın nüfuzuna xələl gətirmək cəhdləri uğursuzluğa məhkumdur. Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri əsasında hərəkət edərək milli maraqlarına zidd olan bütün qərəzli addımları bundan sonra da qətiyyətlə və adekvat şəkildə cavablandıracaq.

Sonra Avropa Parlamentinin qətnaməsi ətrafında müzakirələr başlayıb və spiker Sahibə Qafarovanın təklifi ilə Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsi ilə əlaqədar Milli Məclisin Bəyanatını hazırlamaq üçün parlamentin komitə sədri Şahin İsmayılovun rəhbərliyi ilə 5 deputatdan ibarət komissiya yaradılıb.

Müzakirələrdə çıxış edən Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov, parlamentin komitə sədrləri Zahid Oruc, Səməd Seyidov, Siyavuş Novruzov, deputatlar Kamal Cəfərov, Rizvan Nəbiyev, Azay Quliyev, Kamran Bayramov, Bəxtiyar Əliyev, Elşən Musayev, Ceyhun Məmmədov, Vüqar Bayramov, Azər Kərimli, Sahib Alıyev, Hikmət Məmmədov, Məlahət İbrahimqızı, Mübariz Qurbanlı Avropa Parlamentinin Azərbaycana qarşı növbəti qərəzli münasibətini pisləyiblər. Onlar bildiriblər ki, Avropa Parlamentində keçirilən dinləmə və qəbul edilən qətnamə islamofob və qərəzli yanaşmanın növbəti təzahürü olmaqla, Azərbaycanın təşəbbüsü ilə formalaşan sülh və regional normallaşma prosesinə birbaşa müdaxilə cəhdidir, hüquqi və siyasi baxımdan əsassız, qərəzli və ikili standartlara söykənən sənəddir. Erməni lobbisinin də təsiri ilə formalaşmış bu yanaşma Azərbaycanın milli təhlükəsizliyi ilə bağlı qanuni addımlarını "siyasi repressiya" kimi təqdim etməklə hüququn aliliyinə zidd mövqe nümayiş etdirir.

Çıxışlarda qətnamə Azərbaycanın dövlət suverenliyinə və məhkəmə-hüquq sisteminin müstəqilliyinə açıq müdaxilə, davam edən istintaq və məhkəmə proseslərinə siyasi təsir göstərilməsi cəhdi kimi qiymətləndirilib. Deputatlar Avropa Parlamentinin bu mövqeyini uzun illərdir davam edən anti-Azərbaycan yanaşmasının növbəti təzahürü kimi xarakterizə edərək, təəssüflə bildiriblər ki, Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli mövqeyi onun fəaliyyət formasına çevrilməkdədir.

Vurğulanıb ki, Avropa İttifaqı və onun institutları Ermənistanın Azərbaycan torpaqlarını 30 il işğal altında saxladığı dövrdə Azərbaycan vətəndaşının fundamental hüquqlarının kobud şəkildə pozulmasına faktiki olaraq göz yumub. Etnik təmizləmə, soyqırımı, kütləvi deportasiya kimi ağır cinayətlər Aİ strukturları tərəfindən prinsipial şəkildə gündəmə gətirilməyib. Bu susqunluq fonunda bu gün Azərbaycana insan hüquqları ilə bağlı dərs keçmək cəhdləri açıq şəkildə ikili standartların və siyasi riyakarlığın göstəricisidir.

Bildirilib ki, Azərbaycan 30 illik işğala son qoymaqla regionda beynəlxalq hüquqa əsaslanan yeni siyasi reallıq yaradıb və bu reallıq Cənubi Qafqazda geniş əməkdaşlıq imkanları açır. Avropa Parlamenti bu reallığı qəbul etmək əvəzinə, keçmiş münaqişə dövrünün köhnəlmiş narrativlərini yenidən dövriyyəyə buraxır və Ermənistanı yanlış istiqamətdə təşviq edir. Bu yanaşma regionda əməkdaşlığa xidmət etmir, əksinə, regional təhlükəsizliyə və davamlı sülhə ciddi zərbə vurur.

Qeyd olunub ki, belə yanaşmalar beynəlxalq hüququn prinsiplərinə ziddir və heç bir suveren dövlət tərəfindən qəbul edilə bilməz. Azərbaycan da öz müstəqilliyini, dövlətçilik maraqlarını və regionda sülhə yönəlmiş siyasətini qətiyyətlə qoruyacaq, xarici müdaxilə və təzyiq cəhdlərinə imkan verməyəcək.

Bildirilib ki, Avropa İttifaqının qərəzli və əsassız bəyanatına ən tutarlı cavab Prezidentin amnistiya ilə bağlı təşəbbüsüdür. Təxminən 20 min insanın azadlığa buraxılmasını nəzərdə tutan bu təşəbbüs Azərbaycanın humanizmə, sosial ədalətə və insan hüquqlarına real yanaşmasını nümayiş etdirir.

Müzakirələrdən sonra komitə sədri Şahin İsmayılov Avropa Parlamentinin 2025-ci il 18 dekabr tarixli qətnaməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin bəyanatını oxuyub. Sənəd səsə qoyularaq qəbul edilib *(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc olunub).*

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin ikinci məsələsinin "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi olduğunu bildirib. Spiker qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında genişmiqyaslı amnistiya qərarının layihəsini təqdim etməsi dövlətimizin Konstitusiya ilə elan olunmuş insan hüquqlarına hörmət, humanizm və qanunun aliliyi prinsiplərinə sadiqliyini bir daha nümayiş etdirir.

Qeyd olunub ki, "Konstitusiya və Suverenlik İli" kimi əlamətdar dövrdə müzakirəyə çıxarılan bu akt dövlətimizin öz institutlarının möhkəmliyinə və hüquq sisteminin yetkinliyinə inamını əks etdirir. Spiker əminliklə bildirib ki, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunduğu yeni tarixi reallıq şəraitində belə bir qərarın qəbul edilməsi ictimai sabitliyin möhkəmlənməsinə, hüquq siyasətinin humanistləşdirilməsinə və Azərbaycan dövlətinin konstitusiya prinsipləri əsasında inkişafına dəyərli töhfə verəcək.

Daha sonra məsələ ilə bağlı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O, "Konstitusiya və Suverenlik İli" çərçivəsində həyata keçirilən tədbirlər sırasında müzakirəyə çıxarılan amnistiya qərarının müstəsna yerini qeyd edib, sənədi Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu humanizm siyasətinin davamı kimi dəyərləndirib. Komitə sədri vurğulayıb ki, 1993-cü ildə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə əfv və amnistiya institutları hüquqi əsaslar və humanist prinsiplər üzərində formalaşdırılmağa başlanıb. Qeyd olunub ki, bundan əvvəlki dövrdə hüquqi və sosioloji təhlillər aparılmadan qəbul edilən amnistiya aktları və əfv fərmanları ağır nəticələrə səbəb olub.

Komitə sədri Ulu Öndər Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı ilə Azərbaycanda qanunçuluğun təmin edilməsi və insan hüquqlarının qorunması sahəsində




həyata keçirilən sistemli islahatlardan bəhs edib. Bildirib ki, həmin dövrdən etibarən dövlət siyasətində humanizm prinsipləri əsas xətt kimi müəyyənləşdirilib və ölüm cəzasının icrasına moratorium tətbiq olunub. 1998-ci ildə isə Heydər Əliyev Milli Məclisə müraciət edərək ölüm cəzasının tamamilə ləğv edilməsi təşəbbüsü ilə çıxış edib və bununla da Azərbaycanda bu cəza növünə birdəfəlik son qoyulub.

Ulu Öndərin müəyyən etdiyi humanist hüquq siyasəti sonrakı dövrlərdə Prezident İlham Əliyev tərəfindən ardıcıl və uğurla davam etdirilib. Eyni zamanda Heydər Əliyev Fondu və onun prezidenti, Birinci vitse-prezident Mehriban Əliyeva da deputatlıq fəaliyyəti dövründə bu irsə sadiq qalaraq bir sıra amnistiya təşəbbüsləri ilə çıxış edib. Diqqətə çatdırılıb ki, son 30 il ərzində imzalanmış 71 əfv fərmanı ilə 10 mindən artıq məhkum azadlığa buraxılıb, 12 amnistiya qərarı isə 130 mindən çox şəxsə şamil olunub.

Qeyd olunub ki, Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" münasibətilə Milli Məclisə təqdim etdiyi amnistiya layihəsi əhatə dairəsinə görə Azərbaycanın müstəqillik dövründə ən genişmiqyaslı amnistiya sənədidir. Qərarın ümumilikdə 20 minə yaxın şəxsə şamil ediləcəyi gözlənilir ki, onlardan 5 mindən çoxunun azadlıqdan məhrumetmə cəzasından azad olunacağı bildirilir.

Layihənin birinci hissəsində amnistiyanın tətbiq ediləcəyi şəxslərin dairəsi müəyyənləşdirilib və burada cəmiyyətin sosial baxımdan həssas qrupları tam ehtiva olunub. İkinci hissədə isə amnistiyanın tətbiqinə dair məhdudiyyətlər əksini tapıb ki, bunlar, əsasən, ağır və xüsusilə ağır cinayətlərə görə məhkum olunmuş şəxsləri əhatə edir. Qərarın üçüncü və dördüncü hissələrində isə sənədin hüquqi qüvvəsi və tətbiq mexanizmləri müəyyənləşdirilib. Eyni zamanda vurğulanıb ki, qərarda amnistiya tətbiq edilən şəxslərin sosial reabilitasiyası və cəmiyyətə adaptasiyası məsələləri də yer alıb.

Bildirilib ki, amnistiya qərarının icrası üçün dörd aylıq müddət nəzərdə tutulur. Əli Hüseynli əvvəlki amnistiya aktlarının icrası təcrübəsinə əsaslanaraq, məhkəmə, hüquq-mühafizə və ədliyyə orqanları tərəfindən bu qərarın qısa müddətdə icra ediləcəyinə əminliyini bildirib.

Sənədin müzakirəsində Milli Məclis Sədrinin müavini Ziyafət Əsgərov və deputat Razi Nurullayev çıxış edərək amnistiya aktının hüquqi, sosial və humanist əhəmiyyətini vurğulayıblar. Bildirilib ki, təqdim olunan amnistiya aktı hüququn aliliyinin və dövlət humanizminin bariz təzahürüdür. Prezident İlham Əliyevin "Konstitusiya və Suverenlik İli" çərçivəsində amnistiya elan edilməsi təşəbbüsü müasir Azərbaycan dövlətçiliyinin ideoloji və hüquqi mahiyyətini dolğun şəkildə ifadə edən strateji addım kimi dəyərləndirilib. Bu təşəbbüs Azərbaycanın gücünü yalnız hərbi-siyasi qələbələrlə deyil, eyni zamanda hüququn aliliyinə, insan amilinə və sosial ədalət prinsiplərinə əsaslanan idarəetmə modeli ilə təsdiqlədiyini bir daha nümayiş etdirir.

Qeyd olunub ki, Konstitusiyanın ali hüquqi sənəd kimi hüquqi sabitliyi təmin etməsi və suverenliyin real siyasi məzmun kəsb etməsi məhz bu cür humanist qərarlarla tamamlanır. Bu təşəbbüs müasir Azərbaycan dövlətçiliyinin hüquqi, siyasi və mənəvi əsaslarını üzvi şəkildə birləşdirən mühüm dövlətçilik aktıdır. Bu qərar dövlətin gücünü cəza sərtliyində deyil, hüquqi məsuliyyət və humanist idarəetmə fəlsəfəsində gördüyünü təsdiqləməklə yanaşı, Konstitusiyanın ali hüquqi sənəd kimi praktik icrasının və suveren qərarvermə mexanizminin institusional yetkinliyini nümayiş etdirir.

Milli Məclisin qərar layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova növbəti iki məsələnin uyğunlaşdırma xarakteri daşıdığını və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun tələbinə uyğun olaraq, həmin qanun layihələrinin bir oxunuşda baxılaraq qəbul ediləcəyini söyləyib.

Gündəliyin 3-cü məsələsi olan "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Layihədə Şəhərsalma və Tikinti Məcəlləsinə və "Torpaqların münbitliyi haqqında" qanuna uyğunlaşdırma xarakterli dəyişikliklər təklif olunub. Şəhərsalma və Tikinti Məcəlləsinə edilən dəyişikliklər Torpaq Məcəlləsinin kənd təsərrüfatı təyinatlı torpaqlarda tikililərin aparılması qaydalarına uyğunlaşdırmadır. "Torpaqların münbitliyi haqqında" qanuna isə "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğun olaraq normaların Azərbaycan dilində və birmənalı olması tələbinə müvafiq dəyişikliklər təklif edilib.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev rəhbərlik etdiyi komitənin sənədlə bağlı müsbət rəyini səsləndirəndən sonra layihə qəbul olunub.

"Tullantılar haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verib. Bildirilib ki, 2025-ci il 14 fevral tarixli qanunla "Texniki təhlükəsizlik haqqında" qanunda dəyişiklik edilərək, təhlükə potensiallı obyektlərin qeydiyyata alındığı dövlət reyestri "vahid dövlət reyestri" adlandırılıb. Buna uyğun olaraq sənəddə "Tullantılar haqqında" qanunda da "dövlət reyestri" ifadəsinin "vahid dövlət reyestri" ifadəsinə dəyişdirilməsi təklif olunub.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı İnsan hüquqları komitəsinin sədri Zahid Oruc məlumat verib. Qeyd edilib ki, qanun layihəsinin əsas məqsədi ictimai mənəviyyatı qorumaq, xüsusilə yeniyetmə və gəncləri sosial şəbəkələrdə yayılan zərərli və qeyri-etik informasiyadan müdafiə etmək, həmçinin internet mühitində məsuliyyət mexanizmlərini dəqiqləşdirərək mövcud qanunvericiliyi təkmilləşdirməkdir.

Bu məqsədlə qanunun 13-cü maddəsinə 13-2.3.6-1. bəndi əlavə olunur. Düzəlişdə deyilir ki, kütləvi nümayiş etdirildiyi halda ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik göstərən hərəkətlərin edilməsinə, yəni əxlaqsız ifadələrin səsləndirilməsinə və ya belə məzmun təəssüratı yaradan jestlərin edilməsinə, yaxud insan bədəninin hissələrinin əxlaq normalarına və milli-mənəvi dəyərlərə zidd formada göstərilməsinə dair məlumatların yayılması qadağan olunur.

Müzakirədə Milli Məclis Sədrinin müavini Musa Qasımlının, deputat Razi Nurullayevin və Azay Quliyevin fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Növbəti məsələ olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. O bildirib ki, İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər çox genişdir və bir neçə sahəni əhatə edir.

Bir sıra maddələrdə icra məmuru sözünün dövlət icra məmuru sözləri ilə əvəz edilməsi təklif edilir. Digər istiqamət isə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin müvafiq normaların təsirindən kənarda qalmaması, əmək müqaviləsi ilə işləyən işçilərin hüquqlarının daha yaxşı qorunması, velosiped, moped və başqa oxşar nəqliyyat vasitələrini idarə edən şəxslərin təhlükəsizliyini daha səmərəli təmin etmək yönündədir. Bir hissə maliyyə, enerji resursları sahəsində şəxslərin məsuliyyətli davranışını, vəkil adından qanunsuz istifadənin yolverilməzliyini təmin etməklə bağlıdır. Eləcə də qanun layihəsində əkin yerinin yandırılması ilə müəyyən edilmiş inzibati xətanın çəkindirici xarakterinin gücləndirilməsi də təklif olunub.

Kamal Cəfərov dəyişikliklər içərisində sosial şəbəkələrdə ictimai mənəviyyatı təhqir edən, cəmiyyətə açıqca hörmətsizlik göstərən hərəkətlərin edilməsinə görə yeni inzibati xətanın müəyyənləşdirilməsini də diqqətə çatdıraraq bu dəyişikliyin əhəmiyyətini yüksək qiymətləndirib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Mədəniyyət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Millət vəkili bildirib ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim edilmiş qanun layihəsi konseptual baxımdan mədəni sərvətlərin qorunması sahəsində hüququ müəyyənlik prinsipinin ardıcıl formada həyata keçirilməsini və mövcud hüquqi mexanizmlərin təkmilləşdirilməsini nəzərdə tutur.

İclasda Mədəniyyət komitəsinin üzvü Şahin Seyidzadə sənəd barədə bu komitənin rəyini təqdim edib. Müzakirələrdə Milli Məclis Sədrinin müavini Rafael Hüseynov, deputat Gülşən Paşayeva fikir və qeydlərini bildirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul olunub.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov "Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna təklif edilən dəyişikliklər kommersiya hüquqi şəxsləri üzrə nizamnamə kapitalındakı payın özgəninkiləşdirilməsi ilə bağlı müqavilələr, nizamnamə kapitalındakı payın vərəsəlik qaydasında digər şəxsə keçməsi, yüklü edilməsi, təsisçisi və qanuni təmsilçisi eyni şəxs olan kommersiya hüquqi şəxsin təsisçisi öldükdə notariat orqanı tərəfindən mirasın qorunması üçün tədbirlər çərçivəsində əmlak idarəçisinin təyin olunması ilə əlaqədar məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində bir subyektdən digər subyektə ötürülməsinə dair hüquqi əsasları müəyyən edir.

Digər dəyişiklik kommersiya hüquqi şəxslərin, xarici kommersiya hüquqi şəxslərin nümayəndəlik və ya filiallarının öz təsis sənədlərində və qeydə alınmış faktlarda dəyişikliklər barədə hesabatının təqvim ili bitdikdən sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana təqdim etməsini nəzərdə tutur. Bu dəyişikliklər təsis sənədlərində yenilənən hər hansı məlumatın hesabat formasında müvafiq orqana təqdim edilməsinin zəruriliyinə əsaslanır.

"Notariat haqqında" qanuna təklif edilən dəyişikliklər yuxarıda qeyd olunan bir sıra məlumatların Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana ötürülməsinin zəruriliyinə dair hüquqi əsasları müəyyən edir.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Nəzərə çatdırılıb ki, layihə məişət zorakılığından zərər çəkmiş şəxs olan ərizəçi tərəfindən uzunmüddətli mühafizə orderinin verilməsi üzrə məhkəməyə ərizə verilməsi ilə əlaqədar dövlət rüsumunun ödənilməsindən azad edilmə məqsədilə hazırlanıb.

Qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Tütün və tütün məmulatları haqqında", "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumatı diqqətə çatdırıb. Bu məsələ ilə əlaqədar parlamentin komitə sədri Fazil Mustafa qanunvericilik təşəbbüsü ilə çıxış edib. Sonra məsələyə işçi qrupu tərəfindən baxılıb və layihə Milli Məclisin 3 komitəsinin birgə iclasında müzakirəyə çıxarılıb. Qanun layihəsi elektron siqaretlərin və onların komponentlərinin dövriyyəsinin, o cümlədən idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsinin qadağan edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bu qanun layihəsinin rəhbərlik etdiyi komitə tərəfindən dəstəkləndiyini söyləyib və sənəd barədə fikirlərini açıqlayaraq, elektron siqaretlərə münasibətdə sərt qadağa rejiminin tətbiqinin vətəndaşların, xüsusilə gənclərin və yeniyetmələrin sağlamlığının qorunmasına hədəfləndiyini qeyd edib. O, qanun layihəsinin 2026-cı il fevralın 1-dən qüvvəyə minməsinin nəzərdə tutulduğunu bildirərək, sahibkarların müraciətlərini, eyni zamanda elektron siqaretlərlə bağlı sərt qadağa rejimini tətbiq etmiş ölkələrin təcrübəsini də nəzərə almaqla, qanunun qüvvəyə minmə müddətinin uzadılaraq aprelin 1-dən müəyyən olunmasını təklif edib. Elektron siqaretlərin qadağan edilməsindən sonra bu sahədə qaçaqmalçılıq cəhdlərinə yol verilməməsi üçün gömrük-vergi, antiinhisar, hüquq-mühafizə orqanları tərəfindən önləyici tədbirlərin görülməsinin, habelə maarifləndirmə işlərinin aparılmasının əhəmiyyətindən danışıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev layihədə təklif olunan dəyişikliklərin vacibliyindən bəhs edib və rəhbərlik etdiyi komitənin məsələyə müsbət rəy verdiyini bildirib.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

İclasda bir sıra qanunlarda dəyişiklik edilməsi haqqında qanun layihələri ikinci oxunuşda qəbul edildi.

***"Azərbaycan"***

# "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında

**Azərbaycan Respublikasının Milli Məclisi,**

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi və xilaskarlıq missiyası sayəsində müstəqil Azərbaycan dövlətinin qurulub möhkəmləndiyini, Ulu Öndərin rəhbərliyi ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının müasir dövlətçiliyimizin hüquqi təməlini yaratdığını dərin ehtiramla xatırlayaraq,

Azərbaycan Respublikası Konstitusiyasının ümumbəşəri dəyərlərə əsaslanaraq müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, digər ölkələrlə dostluq, sülh və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ülvi niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası olduğunu xüsusi qeyd edərək,

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız Zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində Azərbaycan Respublikasının ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsinin, Konstitusiyamızın ali qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu böyük qürur hissi ilə vurğulayaraq,

suverenliyin bərpasının milli həmrəyliyimizi, dövlətçilik ideologiyamızı daha da möhkəmləndirdiyini, xalq-dövlət birliyinin sarsılmazlığını bütün dünyaya nümayiş etdirdiyini və gələcək nəsillər üçün əbədi örnək olduğunu fəxrlə bəyan edərək,

humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cinayətlərin xarakterini və ictimai təhlükəlilik dərəcəsini nəzərə alaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək,

suverenliyimizin və ərazi bütövlüyümüzün bərpasının memarı olan Azərbaycan Respublikasının Prezidenti tərəfindən irəli sürülmüş təşəbbüsü dəstəkləyərək və Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 19-cu bəndini rəhbər tutaraq, "Konstitusiya və Suverenlik İli" münasibətilə aşağıdakı amnistiyanın elan edilməsini **qərara alır:**

**I. Amnistiya tətbiq edilən şəxslərin dairəsi**

1. Təyin edilmiş cəzanın müddətindən asılı olmayaraq, aşağıdakı məhkumlar müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasından azad edilsinlər (bu Qərarın 6-cı və 7-ci hissələrində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla):

1.1. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslər, habelə bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.2. Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirakla əlaqədar, habelə digər xüsusi xidmətlərə görə Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunmuş şəxslər (qanunvericiliklə müəyyən edilmiş qaydada orden və medallardan məhrum edilmiş şəxslər istisna olmaqla);

1.3. bu Qərar qüvvəyə mindiyi günədək, o cümlədən Vətən müharibəsi dövründə mülki əhaliyə qarşı Ermənistan Respublikasının hərbi təxribatı nəticəsində əlil olmuş şəxslər və ya həlak olmuş şəxslərin yaxın qohumları;

1.4. Xocalı soyqırımında əlil olmuş şəxslər, həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.5. 1948-1953-cü və 1987-1991-ci illərdə etnik təmizləmə, terrorçuluq və soyqırımı siyasəti nəticəsində Ermənistandan deportasiya olunmuş şəxslər;

1.6. 1988-1993-cü illərdə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistan tərəfindən işğalı nəticəsində öz doğma torpaqlarından məcburi köçkün düşmüş şəxslər;

1.7. 1990-cı il 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və şəhid olmuş şəxslərin yaxın qohumları;

1.8. Azərbaycan Respublikasının, habelə keçmiş SSRİ-nin Silahlı Qüvvələri tərkibində beynəlmiləl borcunu yerinə yetirmiş və ya sülhməramlı əməliyyatlarda iştirak etmiş şəxslər, həmçinin həmin vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları;

1.9. İkinci Dünya müharibəsi dövründə faşizmə qarşı döyüşlərdə iştirak etmiş, eləcə də həmin dövrdə keçmiş SSRİ-nin Silahlı Qüvvələrində və arxa cəbhədə xidmət etmiş və qanunvericiliklə müəyyən edilmiş qaydada bunlara bərabər tutulan şəxslər, həmçinin bu döyüşlərdə həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumları, habelə keçmiş SSRİ-nin orden və medalları ilə təltif olunmuş şəxslər (qanunvericiliklə müəyyən edilmiş qaydada orden və medallardan məhrum edilmiş şəxslər istisna olmaqla);

1.10. keçmiş SSRİ dövründə siyasi repressiyaya məruz qalmış, sonradan səlahiyyətli orqanların qərarları ilə bəraət almış şəxslər və onların yaxın qohumları;

1.11. Çernobıl qəzasının aradan qaldırılmasında iştirak etmiş şəxslər və onlara himayəçilik edən şəxslər (himayəçilik qanunvericilikdə nəzərdə tutulmuş qaydada müəyyən olunmuşdursa);

1.12. qadınlar;

1.13. cinayət törədərkən 18 yaşına çatmamış şəxslər;

1.14. bu Qərar qüvvəyə mindiyi günədək 60 yaşına çatmış şəxslər;

1.15. bu Qərar qüvvəyə mindiyi günədək orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslər;

1.16. öhdəsində (himayəsində) yetkinlik yaşına çatmayan övladı, yaxud orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş övladı olan şəxslər, o cümlədən bu Qərar qüvvəyə mindiyi günədək atalığı, övladlığa götürməsi, qəyyumluğu və himayəçiliyi qanunvericilikdə nəzərdə tutulmuş qaydada müəyyən olunmuş şəxslər.

2. Bu Qərarın 1-ci hissəsində nəzərdə tutulan şəxslərdən başqa, aşağıdakı məhkumlar cəzadan azad edilsinlər (bu Qərarın 6-cı hissəsində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla):

2.1. yalnız böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər;

2.2. bu Qərarın 2.1-ci bəndində nəzərdə tutulan şəxslərdən başqa, ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə 5 ildən artıq olmayan müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş şəxslər;

2.3. bu Qərarın 2.2-ci bəndində nəzərdə tutulan şəxslərdən başqa, az ağır cinayət törətdiklərinə görə təyin edilmiş müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olmayan şəxslər;

2.4. bu Qərarın 2.2-ci bəndində nəzərdə tutulan şəxslərdən başqa, ilk dəfə ağır cinayət törətdiklərinə görə təyin edilmiş müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olmayan şəxslər;

2.5. intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum edilmiş şəxslər;

2.6. azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslər;

2.7. hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum edilmiş şəxslər;

2.8. islah işləri cəzasına məhkum edilmiş şəxslər;

2.9. ictimai işlər cəzasına məhkum edilmiş şəxslər;

2.10. əsas cəza kimi müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasına məhkum edilmiş şəxslər;

2.11. böyük ictimai təhlükə törətməyən cinayət törətdiklərinə görə əsas və ya əlavə cəza kimi cərimə cəzasına məhkum edilmiş şəxslər, habelə əsas və ya əlavə cəza kimi üç min manatdan artıq olmayan miqdarda cərimə cəzasına məhkum edilmiş və ya bu Qərarın tətbiq edildiyi gün cərimə cəzasının ödənilməmiş hissəsi üç min manatdan artıq olmayan şəxslər;

2.12. böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət törətdiklərinə görə azadlıqdan məhrum etmə cəzasına şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər;

2.13. azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzaya şərti məhkum edilmiş və ya bu növ cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş, yaxud bu növ cəzanın çəkilməsi təxirə salınmış şəxslər.

3. Bu Qərarın 1-ci və 2-ci hissələrində nəzərdə tutulan şəxslərdən başqa, aşağıdakı məhkumların cəzası 6 ay azaldılsın (bu Qərarın 6-cı hissəsində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla):

3.1. az ağır cinayət törətməyə görə təyin edilmiş müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 1 ildən artıq olan şəxslər;

3.2. ehtiyatsızlıqdan ağır cinayət törətdiklərinə görə təyin edilmiş 5 ildən artıq müddətə azadlıqdan məhrum etmə cəzasının bu Qərar qüvvəyə mindiyi günədək çəkilməmiş hissəsi 6 aydan artıq olan şəxslər.

4. Bu Qərarın 1.1-1.16-cı bəndlərində nəzərdə tutulan şəxslər, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər haqqında təhqiqat və ibtidai istintaq orqanları tərəfindən amnistiya tətbiq olunaraq cinayət təqibi başlanmır, başlanılmış cinayət təqibinə isə xitam verilir (bu Qərarın 6-cı və 7-ci hissələrində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla).

5. Məhkəmələr:

5.1. icraatında olan bu Qərar qüvvəyə mindiyi günədək baxılmamış cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə bu Qərarın 1.1-1.16-cı bəndlərində nəzərdə tutulan şəxslər, habelə böyük ictimai təhlükə törətməyən cinayət törətmiş şəxslər barəsində cinayət təqibinə xitam verir və ya həmin şəxsləri təyin edilmiş cəzadan azad etməklə ittiham hökmü çıxarırlar (bu Qərarın 6-cı və 7-ci hissələrində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla);

5.2. bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiyanın tətbiq edildiyi günədək apellyasiya qaydasında mübahisələndirilməyən qanuni qüvvəyə minməmiş hökmlər üzrə:

5.2.1. bu Qərarın 1.1-1.16-cı bəndlərində nəzərdə tutulan şəxsləri təyin edilmiş cəzadan azad edirlər (bu Qərarın 6-cı və 7-ci hissələrində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla);

5.2.2. bu Qərarın 2-ci hissəsində nəzərdə tutulan şəxsləri təyin edilmiş cəzadan azad edirlər (bu Qərarın 6-cı hissəsində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla);

5.2.3. bu Qərarın 3-cü hissəsində nəzərdə tutulan şəxslərin cəzalarını azaldırlar (bu Qərarın 6-cı hissəsində qeyd edilən məhdudiyyətlər nəzərə alınmaqla);

5.3. icraatlarında olan apellyasiya və ya kassasiya şikayətləri (protestləri) üzrə işlərə baxarkən bu Qərarın 5.1-ci və 5.2-ci bəndlərinin müddəalarına müvafiq olaraq amnistiya tətbiq edirlər.

**II. Amnistiyanın tətbiqinə məhdudiyyətlər**

6. "Amnistiya aktlarının tətbiqinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının 1994-cü il 24 fevral tarixli 793 nömrəli Qanununda nəzərdə tutulmuş şəxslər barəsində amnistiya tətbiq edilmir.

7. Bu Qərarın 1-ci və 4-cü hissələri, 5.1-ci bəndi və 5.2.1-ci yarımbəndi aşağıdakı şəxslər barəsində tətbiq edilmir:

7.1. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 15.4-cü və 15.5-ci maddələrində nəzərdə tutulan ağır və xüsusilə ağır cinayətlərə, həmçinin Cinayət Məcəlləsinin 101, 115.1, 122.2, 124, 125, 127.2, 133.2, 136.3, 137, 138.2-138.4, 139.2, 139-1, 140.2, 140.4, 141.4, 142.4, 142.5, 145.2, 146.2, 151, 152.1-152.3, 153.1-153.3, 159.4, 162.2, 162.3, 167-1.3-167-1.5, 167-2.2, 167-3, 168, 168-1.2, 168-1.3, 169.2, 170.1, 170.2, 171.1, 171-1.1, 171-2, 172, 176-1, 176-2, 177.1, 177.2, 180.1, 180.2, 182.1, 183.1, 185.2, 186.2, 188.3, 189-1.4, 192.2, 192.3, 192-2.1, 192-2.2, 192-2.4, 192-2.5, 193.2, 193.3, 193-1.1, 194.2, 195-1.3, 195-2.2, 199.2, 200.4, 200-1.3, 200-2.3, 200-3.1-200-3.4, 201.2, 204.1, 205, 205-1, 206.1-206.2, 206-1, 207, 208, 209.3, 213.2, 213.3, 213-1.2, 214-2, 220.2, 221.2, 221.3, 222.3, 222-1.3, 222-2.2, 223.2, 224, 224-1, 224-2, 225.2, 226.3, 227.1, 227.2, 227-1, 228.1, 228.2, 229.1, 229.2, 232.1, 233, 233-1.1, 233-4.2, 233-4.3, 234.2, 234.3, 235.1, 235.2, 236.1, 238.1, 240.1-240.2, 243, 244, 244-1.2, 244-1.3, 245, 247, 248.2, 250.3, 251.3, 252.3, 253.2, 254.3, 255.2, 256.3, 258.3, 259.2-259.4, 260.2, 260.3, 262.2, 263.2, 263-1.1, 263-1.2, 264, 265.2, 265-1.2, 266.2, 267.3, 268.2, 270-1.3, 271.3, 272.3, 273.4, 281.1, 281-1.1, 283, 283-1.4, 284.1, 284-1, 284-2.1, 285, 288.1-288.3, 289, 290, 291, 292.2, 292.2-1, 294.2, 294.3, 295.1, 296.2, 297.2, 299.3, 299.4, 301.2, 302.2, 302.3, 304.2, 306, 307.3, 308, 308-1, 308-2.4, 309.1, 312.1, 312-1, 313, 314.2, 314.3, 314-1.1, 314-2.2, 314-3.2, 314-3.3, 314-4, 315, 316.2, 316-1.3, 317.1, 317.2, 317-1.2, 318, 318-1.2, 319.2, 320, 321.2, 323, 324, 328.2, 328.3, 329.1, 329.2, 330.1-330.3, 332.1-2, 332.2, 335.3, 336, 338.2, 339.2, 340.2, 341.2, 342.1-1, 342.2, 344.1, 346.1, 348.2, 349, 350.2, 351.2, 352.1 və 353.1-ci maddələrində, habelə "Korrupsiyaya qarşı mübarizə ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2006-cı il 7 aprel tarixli 92-IIIQD nömrəli Qanunu ilə sanksiyaları ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.1-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 405-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 296.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 610-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-2.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 6 mart tarixli 1231-IVQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 284.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 5 aprel tarixli 184-VQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 199-cu maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 199.3-cü maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 20 oktyabr tarixli 816-VQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 309.2-ci maddəsində, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 1 may tarixli 68-VIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 315-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 315.1-ci və 315.2-ci maddələrində və həmin Qanunla Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 335-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 335.2-ci maddəsində, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Təhsil haqqında", "Sosial xidmət haqqında", "Azərbaycan Respublikasında dövlət daktiloskopik və genom qeydiyyatı haqqında" və "Ümumi təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 22 dekabr tarixli 776-VIQD nömrəli Qanunu ilə sanksiyası ağırlaşdırılanadək Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 150.1-ci maddəsində və "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 13 iyun tarixli 212-VIIQD nömrəli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 142-ci maddəsi yeni redaksiyada verilənədək həmin Məcəllənin 142.3-cü maddəsində nəzərdə tutulmuş cinayətlərə görə təqsirləndirilən və ya məhkum olunmuş şəxslər;

7.2. 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 7-1-ci maddəsində nəzərdə tutulmuş ağır cinayətlərə, habelə həmin Məcəllənin 69-cu maddəsinin ikinci hissəsində, 93-5-ci maddəsinin birinci hissəsində, 93-6-cı maddəsinin birinci hissəsində, 93-9-cu maddəsinin ikinci hissəsində, 100-cü maddəsinin birinci hissəsində, 113-cü maddəsinin ikinci hissəsində, 114-cü maddəsinin dördüncü hissəsində, 120-ci maddəsinin ikinci hissəsində, 126-cı maddəsində, 171-ci maddəsinin birinci hissəsində, 178-ci maddəsinin ikinci hissəsində, 185-ci maddəsində, 208-ci maddəsinin ikinci və üçüncü hissələrində, 220-ci maddəsinin birinci və üçüncü hissələrində, 229-cu maddəsinin birinci hissəsində, 241-ci maddəsinin "q" bəndində, 255-1-ci maddəsinin "v" və "q" bəndlərində nəzərdə tutulmuş cinayətlərə görə təqsirləndirilən və ya məhkum olunmuş şəxslər;

7.3. "Qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və digər məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında" Azərbaycan Respublikasının 1998-ci il 7 aprel tarixli 463-IQD nömrəli Qanunu ilə 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarılmış 83-cü maddənin üçüncü və dördüncü hissələri, 88-ci və 88-1-ci maddələr, 91-ci maddənin ikinci və üçüncü hissələri, 143-cü maddənin üçüncü və dördüncü hissələri, 145-ci maddə, 147-ci maddənin üçüncü hissəsi ilə, həmçinin "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə bəzi dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 1996-cı il 29 may tarixli 90-IQD nömrəli Qanunu ilə 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsindən çıxarılmış 60-cı, 65-ci və 191-1-ci maddələrlə məhkum olunmuş şəxslər;

7.4. bu Qərar tətbiq olunanadək maddi ziyanı tam ödəməmiş şəxslər;

7.5. təhlükəli və ya xüsusilə təhlükəli residiv yaradan cinayətlərə görə məhkum edilmiş və ya 2000-ci il sentyabrın 1-dək qüvvədə olmuş Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə əsasən xüsusi təhlükəli residivist hesab olunmuş şəxslər;

7.6. 1991-ci il oktyabrın 18-dən sonra amnistiya və ya əfvetmə aktları ilə qəsdən törədilmiş cinayətlərə görə cəzaçəkmə müəssisələrində azadlıqdan məhrum etmə cəzasını çəkməkdən azad olunmuş və yenidən qəsdən ağır və ya xüsusilə ağır cinayət törətmiş şəxslər;

7.7. cəzaçəkmə müəssisələrində və ya intizam xarakterli hərbi hissədə cəza çəkərkən, habelə həbs yerlərində saxlanılarkən qəsdən cinayət törətmiş şəxslər.

**III. Amnistiya aktının hüquqi qüvvəsi**

8. Bu Qərar qəbul olunduğu gündən qüvvəyə minir.

9. Bu Qərarın 1-3-cü hissələri amnistiya aktı qüvvəyə mindiyi günədək qüvvəyə minmiş hökmlər əsasında məhkum edilmiş, həmçinin həmin tarixədək qüvvəyə minmiş məhkəmə qərarları əsasında cəza təyin edilmiş və ya şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış, şərti olaraq vaxtından əvvəl azad edilmiş, habelə bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiya aktı qəbul edildikdən sonra qüvvəyə minmiş hökmlər əsasında məhkum edilmiş şəxslər barəsində tətbiq edilir.

10. Bu Qərarın 4-cü və 5-ci hissələri amnistiya aktı qüvvəyə mindiyi günədək cinayət törətmiş şəxslər barəsində tətbiq edilir.

11. Bu Qərarın 12-ci hissəsində nəzərdə tutulan şəxslər istisna olmaqla, uzanan və ya davam edən cinayətlər amnistiya aktı qüvvəyə mindiyi günədək bitmədikdə, onları törətmiş şəxslərə amnistiya şamil edilmir.

12. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 321.1, 333.1-333.4-1-ci və 334.1-ci maddələrində nəzərdə tutulmuş cinayətləri bu Qərar qüvvəyə mindiyi günədək törətmiş şəxslərə, bu Qərarın 39-cu hissəsində nəzərdə tutulmuş müddətdə onlar könüllü gəldiyi və tutulduğu hallarda, amnistiya şamil edilir.

13. Bu Qərar qüvvəyə mindikdən sonra hökmün və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında məhkumun cəzasının çəkilməmiş hissəsinin azalması və ya şəxsin digər şəkildə hüquqi vəziyyətinin dəyişməsi (bu Qərarın 2.11-ci və 7.4-cü bəndlərində nəzərdə tutulmuş hallar, habelə bu Qərar qanuni qüvvəyə mindiyi günədək qüvvəyə minmiş yeni cinayət qanununun tətbiqi ilə əlaqədar şəxsin vəziyyətinin yaxşılaşması halı istisna olmaqla) həmin şəxs barəsində bu Qərara əsasən amnistiyanın tətbiqi üçün əsas deyildir.

14. Bu Qərarın cəzanın çəkilməmiş hissəsinə dair müddəaları cinayətlərin və ya hökmlərin məcmusu üzrə qəti cəzanın çəkilməmiş hissəsini nəzərdə tutur. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 68.2-ci maddəsi üzrə biri digəri ilə toplanaraq müstəqil icra edilən əsas cəzalardan hər hansı biri bu Qərar qüvvəyə mindiyi gün onun təsiri altına düşmürsə, bu Qərara əsasən amnistiya tətbiq edilmir.

15. Cinayətlərin məcmusu üzrə bir neçə cinayətin törədilməsində ittiham olunan şəxsin, eləcə də cinayətlərin və ya hökmlərin məcmusu üzrə bir neçə cinayətin törədilməsinə görə məhkum edilmiş şəxsin müvafiq olaraq ittiham və ya məhkum edildiyi cinayətlərdən birinə görə amnistiyanın tətbiqi bu Qərarın müddəaları ilə məhdudlaşdırılmışdırsa, ona amnistiya tətbiq edilmir.

16. Bu Qərara əsasən amnistiya tətbiq edilməsi ittiham hökmlərinin və ya digər qərarların qanuniliyinin, əsaslılığının və ya ədalətliliyinin yuxarı instansiya məhkəmələrində mübahisələndirilməsinə mane olmur.

17. Bu Qərar Azərbaycan Respublikasında tanınan xarici dövlətlərin məhkəmələrinin hökmləri ilə məhkum edilmiş və cəzasını Azərbaycan Respublikasında çəkən şəxslərə də şamil edilir.

18. Barələrində amnistiya tətbiq olunmuş çağırışçıların və hərbi qulluqçuların müvafiq olaraq həqiqi hərbi xidmətə çağırış və hərbi xidmət məsələləri qanunvericiliklə müəyyən edilmiş qaydada həll edilir.

**IV. Amnistiyanın tətbiqi qaydaları**

19. Amnistiya Azərbaycan Respublikası Cinayət, Cinayət-Prosessual və Cəzaların İcrası məcəllələrinin tələblərinə uyğun olaraq aşağıdakı orqanlar tərəfindən tətbiq edilir:

19.1. cəzaçəkmə müəssisələri - bu Qərarın 1-ci hissəsində və 2.1-2.4-cü bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

19.2. intizam xarakterli hərbi hissənin və hərbi hissələrin komandanlığı - bu Qərarın 2.5-ci və 2.7-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

19.3. icra məmurları - bu Qərarın 2.6-cı və 2.8-2.11-ci bəndlərində nəzərdə tutulan şəxslər barəsində;

19.4. təhqiqat və ya ibtidai istintaq orqanları - bu Qərarın 4-cü hissəsində nəzərdə tutulan şəxslər barəsində;

19.5. məhkəmələr - bu Qərarın 2.12-ci və 2.13-cü bəndlərində, 3-cü və 5-ci hissələrində nəzərdə tutulan şəxslər barəsində.

20. Bu Qərarın 19.1-19.4-cü bəndlərində nəzərdə tutulan orqanlar amnistiyanın tətbiq edilməsi barədə qərarları müvafiq prokurorların razılığı ilə qəbul etməlidirlər.

21. Təhqiqat və ya ibtidai istintaq orqanları amnistiya tətbiq edərkən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş cinayət təqibinə xitam verilməsi qaydalarına riayət etməli, o cümlədən Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 41.2-ci maddəsinə müvafiq olaraq barəsində amnistiya tətbiq olunacaq şəxslərin razılığını almalıdırlar.

22. Bu Qərarın 2.12-ci və 2.13-cü bəndlərində nəzərdə tutulan şəxslər barəsində amnistiyanın tətbiq edilməsi məsələsinə həmin məhkumların üzərində nəzarəti həyata keçirən orqanların müraciəti əsasında məhkumun yaşayış yeri üzrə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

23. Bu Qərarın 3-cü hissəsində nəzərdə tutulan şəxslər barəsində amnistiyanın tətbiq edilməsi məsələsinə həmin məhkumların cəza çəkdikləri cəzaçəkmə müəssisələrinin müraciəti əsasında cəzanın çəkildiyi yer üzrə birinci instansiya məhkəmələri tərəfindən baxılır.

24. Birinci instansiya məhkəmələrinin icraatında olan, bu Qərar qüvvəyə mindiyi günədək baxılmamış cinayət işləri və məhkəməyədək sadələşdirilmiş icraat materialları üzrə amnistiyanın tətbiqi məsələlərinə baxılarkən cinayət təqibinə xitam verilməsinə müdafiə tərəfinin razılığı olduqda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 43.3-cü maddəsinə əsasən cinayət təqibinə xitam verilməsi haqqında qərar qəbul edilir, amnistiya tətbiq edilməklə cinayət təqibinə xitam verilməsinə müdafiə tərəfinin razılığı olmadıqda Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 44.2-ci maddəsinə əsasən şəxsə təyin edilmiş cəzadan onu azad etməklə ittiham hökmü çıxarılır.

25. Apellyasiya qaydasında mübahisələndirilməyən qanuni qüvvəyə minməmiş hökmlər üzrə şəxslərə amnistiyanın tətbiq edilməsi məsələsinə cinayət prosesi tərəflərinin müraciətinə əsasən hökmü çıxarmış birinci instansiya məhkəmələri tərəfindən baxılır. Bu Qərar qüvvəyə mindiyi günədək çıxarılaraq amnistiya aktı qəbul edildikdən sonra qüvvəyə minmiş hökmlər üzrə şəxslərə amnistiyanın tətbiq edilməsi məsələsinə bu Qərarın 19.1-19.3-cü bəndlərində, 22-ci və 23-cü hissələrində nəzərdə tutulan orqanlar tərəfindən baxılır.

26. Apellyasiya şikayəti və ya protesti verilmiş qanuni qüvvəyə minməmiş hökmlər üzrə şəxslərə amnistiya həmin şikayətlərə və ya protestlərə apellyasiya instansiyası məhkəmələrində baxılarkən tətbiq edilir.

27. Kassasiya şikayəti və ya protesti verilmiş məhkəmə qərarları üzrə məhkumlara bu Qərara uyğun olaraq amnistiya tətbiq edilməmişdirsə, onların şikayətlərinə və ya protestlərə kassasiya instansiyası məhkəməsində baxılarkən amnistiya tətbiq edilir.

28. Bu Qərarın 22-ci, 23-cü və 25-ci hissələrində nəzərdə tutulan qaydada amnistiyanın tətbiqi məsələlərinə baxarkən, məhkəmələr Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində hökm və ya məhkəmənin digər yekun qərarlarının icrası qaydasında icraat üçün nəzərdə tutulmuş tələblərə riayət etməlidirlər.

29. Məhkəmələr tərəfindən amnistiyanın tətbiqi məsələlərinə baxılarkən məhkəmə iclasında müvafiq prokurorun və müdafiə tərəfinin iştirakı ilə bağlı Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində müəyyən edilmiş qaydalara riayət edilməlidir.

30. Bu Qərar onun təsiri altına düşən hər bir şəxs barəsində ayrı-ayrılıqda tətbiq edilir.

31. Amnistiya tətbiq edilərkən məhkumun şəxsi işi öyrənilməli və amnistiyanın tətbiqi məsələlərinin həlli üçün zəruri sənədlər amnistiyanın tətbiqi barədə qərara əlavə edilməlidir. Amnistiyanı tətbiq edən orqanlar amnistiyanın tətbiqi barədə qərar qəbul edilməsi üçün zəruri sənədləri müvafiq orqanlardan tələb etməyə haqlıdırlar. Bu sorğular dərhal icra edilməlidir.

32. Barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən vərəm xəstəliyinə tutulmuş şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada 10 gün müddətində yaşayış yeri üzrə vərəm əleyhinə tibb müəssisələrində qeydiyyata alınır və müalicələrini davam etdirirlər.

33. Anlaqlılığı istisna etməyən psixi pozuntuya görə tibbi xarakterli məcburi tədbir təyin olunmuş şəxslər barəsində amnistiya tətbiq edilməsinə dair materiallara bu Qərarın 39-cu hissəsində nəzərdə tutulan müddətdə baxılmalı, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 95.0.2-95.0.4-cü maddələrinə əsasən psixiatriya stasionarlarında məcburi müalicə təyin olunmuş şəxslərin cəzadan azad edilməsi məsələsi isə məhkəmə qərarı ilə psixiatriya stasionarlarında məcburi müalicə ləğv edildikdən və ya dəyişdirilərək məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi təyin edildikdən sonra həll edilməli, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 95.0.1-ci maddəsinə əsasən məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsi təyin olunmuş şəxslər amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edildikdə qanunvericiliklə müəyyən edilmiş qaydada 10 gün müddətində yaşayış yeri üzrə müvafiq tibb müəssisələrində qeydiyyata alınmalı və müalicələri davam etdirilməlidir.

34. Əvvəllər amnistiya və ya əfvetmə aktları ilə cəzasının müddəti azaldılmış şəxslərə bu Qərar tətbiq edilərkən onların cəzasının çəkilməmiş müddətləri həmin aktlar nəzərə alınmaqla hesablanır.

35. Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 175-177-ci maddələrinin tələblərinə uyğun olaraq, bu Qərara əsasən barələrində amnistiya tətbiq olunaraq cəza çəkməkdən azad edilən şəxslərin sosial adaptasiyasının, onlara yardım göstərilməsinin təmin edilməsi üçün zəruri tədbirlər görülməlidir.

36. Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu bu Qərarın tətbiqi ilə bağlı zərurət yarandıqda amnistiyanı tətbiq edən orqanın müraciəti əsasında "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq izah verir.

37. Amnistiya aktının tətbiq edilməməsi və ya düzgün tətbiq edilməməsi ilə əlaqədar şəxsin Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada şikayət etmək hüququ vardır.

38. Bu Qərarın 19.2-ci bəndində göstərilən "hərbi hissələr" dedikdə, hərbi xidmət üzrə məhdudlaşdırma növündə cəzanın çəkildiyi yerlər, bu Qərarın 22-ci hissəsində göstərilən "məhkumların üzərində nəzarəti həyata keçirən orqanlar" dedikdə isə azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslərə nəzarəti həyata keçirən icra məmurları, habelə şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində nəzarəti həyata keçirən icra məmurları və müvafiq olaraq hərbi qulluqçular üzərində nəzarəti həyata keçirən hərbi hissələrin və ya müəssisələrin komandanlığı başa düşülür.

39. Bu Qərarın 19.1-19.4-cü bəndlərində nəzərdə tutulan orqanlar bu Qərar qüvvəyə mindiyi gündən dörd ay müddətində amnistiyanın tətbiqini təmin etməlidirlər.

*Sahibə QAFAROVA,*
*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*

*Bakı şəhəri, 19 dekabr 2025-ci il*

# Milli Məclis Avropa Parlamentinin qərəzli qətnaməsi ilə əlaqədar bəyanat yayıb

*Əvvəli 1-ci səh.*

Müşahidələr göstərir ki, Avropa Parlamenti üzvlərinin əksəriyyətinin səs verdikləri qətnamə layihələrinin nəinki mahiyyəti, hətta mətni barədə heç bir anlayışı olmur. Bu isə Avropa parlamentarizminin düşdüyü acınacaqlı vəziyyətdən xəbər verir.

Avropa Parlamentinin siyasi simasının bir sıra xarakterik cizgiləri Azərbaycanla yanaşı, bu qurumun əsassız və cəfəng ittihamları ilə üzləşmiş çoxsaylı ölkələrə də yaxşı məlumdur. Bu qətnamə Avropa Parlamentinin əsl mahiyyətini ortaya qoyur və onun real niyyətlərini ifşa edir.

Korrupsiya və rüşvətxorluğun Avropa Parlamentində dərin kök saldığını göstərən çoxsaylı faktların aşkar edilməsi bu mənfi tendensiyanın həmin qurumun gündəlik fəaliyyətinin mərkəzində dayandığını sübut edir. Müxtəlif maraq dairələrinə ödənişli xidmətlər göstərən Avropa Parlamentinin qətnamələri də, bir qayda olaraq, əldə edilən maddi mənfəətin əvəzi rolunu oynayır.

Təəssüf doğuran digər məqam budur ki, müəyyən proseslərə ardıcıl surətdə səlibçilik mövqeyindən yanaşan Avropa Parlamenti islamofob və türkofob meyillərin aşkar ifadə olunduğu platformaya çevrilmişdir. İslam və türk dünyasının ayrılmaz parçası olan Azərbaycana qarşı bu cür qərəzli hücumlar Avropada eyni tendensiyaları idarə edən müəyyən qrupların əlavə siyasi dividend qazanmaq niyyətini açıq büruzə verir. Avropa Parlamentinin bu qətnaməsinin genişmiqyaslı bir planın tərkib hissəsi olduğu da şübhəsizdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müharibədə qalib gəldiyi kimi, sülhü də qazandığı danılmaz bir reallıqdır. Məhz dövlət başçısının qətiyyətli siyasəti Cənubi Qafqaz regionunda uzunmüddətli sülhün təmin edilməsi baxımından həlledici olmuşdur.

İndi isə bəlli olur ki, 2025-ci il 8 avqust tarixli Vaşinqton sammiti, ABŞ Prezidenti Donald Trampın səmimi vasitəçiliyi nəticəsində Azərbaycan-Ermənistan sülh prosesində əldə olunmuş irəliləyiş bir sıra dairələrin maraqlarına cavab vermir. Müvafiq proseslərdə iştirak və müdaxilə imkanlarını itirən həmin dairələr regionumuzda sülh, sabitlik və əməkdaşlığın təşəbbüsçüsü olan Azərbaycana qarşı belə bəsit addımlarla həmin prosesləri dolayı yolla əngəlləməyə cəhd edirlər.

Nəticə etibarilə bütün qeyd edilənləri nəzərə alaraq qətiyyətlə söyləmək olar ki, Avropa Parlamenti növbəti dəfə öz məkrli niyyətlərini heç bir əsası olmayan, birtərəfli və yalan iddialar üzərində qurulmuş arqumentlərlə pərdələməyə çalışır.

Azərbaycan Respublikasının Milli Məclisi bir daha Avropa Parlamentinin məlum qətnaməsini qətiyyətlə rədd edir və onu qəbulolunmaz hesab edir. Belə qətnamələr Azərbaycana heç bir şəkildə təsir edə və ölkəmizi öz yolundan döndərə bilməz".

*(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 19 dekabr tarixli iclasında qəbul edilib).*

# Naxçıvanda su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair komissiyanın iclası keçirilib



**Dekabrın 19-da "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 15 aprel 2020-ci il tarixli Sərəncamı ilə yaradılmış komissiyanın üzvləri Naxçıvan Muxtar Respublikasına səfər ediblər.**

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, komissiyanın sədri, Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və komissiyanın üzvləri Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzi meydanında ucalan abidəsini ziyarət edib, Ulu Öndərin əziz xatirəsini dərin ehtiramla anıblar.

Səfər çərçivəsində Naxçıvanda komissiyanın üzvlərinin iştirakı ilə iclas keçirilib.

Komissiyanın sədri, Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev Prezident İlham Əliyevin Naxçıvanın inkişafına xüsusi diqqət göstərdiyini vurğulayaraq qeyd edib ki, muxtar respublikaya böyük investisiyalar yönəldilir, o cümlədən su təchizatı sahəsində məqsədyönlü tədbirlər görülür. Ölkə başçısının tapşırığına uyğun olaraq muxtar respublika əhalisinin su təminatının yaxşılaşdırılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın prioritet istiqamətləri sırasında əhalinin içməli və suvarma suyu ilə təminatının təkmilləşdirilməsi tədbirlərinin də öz əksini tapdığını vurğulayıb. Qeyd edib ki, komissiya üzvlərinin iştirakı ilə aparılacaq müzakirələr bu istiqamətdə problemlərin daha əhatəli həllini tapmasına şərait yaradacaq.

Görüşdə muxtar respublikada su təminatı və suvarma sistemlərinin fəaliyyəti qiymətləndirilib, su ehtiyatlarından səmərəli və dayanıqlı istifadənin təmin olunması ilə bağlı aktual məsələlər müzakirə edilib.

# "İxtisaslı kadr hazırlığı aqrar sektorun inkişafının əsasıdır" mövzusunda ictimai dinləmə keçirilib

Dekabrın 19-da parlamentdə Milli Məclisin Aqrar siyasət komitəsinin təşkilatçılığı ilə "İxtisaslı kadr hazırlığı aqrar sektorun inkişafının əsasıdır" mövzusunda ictimai dinləmə keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, tədbirdə Milli Məclisin deputatları, Kənd Təsərrüfatı, Elm və Təhsil nazirliklərinin, Milli Məclis Aparatının, Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) nümayəndələri, kənd təsərrüfatı sahəsində elmi-tədqiqat institutlarının rəhbərləri, Qida Təhlükəsizliyi Agentliyinin, Gəncə Dövlət Aqrar Kollecinin və digər əlaqədar qurumların əməkdaşları iştirak ediblər.

Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev bu tədbirin keçirilməsinə verdiyi dəstəyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib. Komitə sədri Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə aqrar sahədə həyata keçirilən layihələrin, görülən işlərin əhəmiyyəti, əldə olunan nailiyyətlər, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində kənd təsərrüfatının inkişafı barədə danışıb. O, bu sahədə kadrların hazırlanmasında ADAU-nun rolu barədə fikirlərini bölüşüb. Komitə sədri diqqətə çatdırıb ki, bu gün universitetdə 7000-dən çox tələbə təhsil alır. Universitet 20-dən çox ölkənin ali təhsil ocaqları ilə əməkdaşlıq edir və aqrar sahədə kadr hazırlığı ilə bağlı təcrübə mübadiləsi aparır.

Sonra tədbirdə ADAU-nun fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

ADAU-nun rektoru Zəfər Qurbanov slaydların müşayiətilə bu universitetin ölkəmizdə kənd təsərrüfatı mütəxəssislərinin hazırlanmasında rolu, maddi-texniki bazası, bu təhsil ocağının inkişaf strategiyası, təhsildə keyfiyyətin yüksəldilməsi, tələbələrin praktiki bacarıqlarının inkişaf etdirilməsi sahələrində görülən işlər, mütərəqqi modellərin tətbiqi, ADAU və Türkiyənin EGE Universiteti arasında həyata keçirilən ikili diplom proqramının uğurla həyata keçirilməsi barədə geniş məlumat verib. Rektor universitetin beynəlxalq rəqabətliliyinin artırılması, bu ali təhsil müəssisəsində beynəlxalq təcrübəli alimlərin elmi seminarlarının keçirilməsi, aqrar sahədə aparılan elmi tədqiqatların əhəmiyyəti, universitetin nəzdindəki Gəncə Dövlət Aqrar Kollecinin kadr hazırlığı sahəsindəki fəaliyyəti barədə danışıb.

Milli Məclisin Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov ADAU-nun yaranma tarixi, onun keçdiyi inkişaf yolu, universitetin potensial imkanları və gələcək inkişaf perspektivləri barədə fikirlərini bölüşüb, bu təhsil ocağına ölkəmizdə aqrar sahədə kadr hazırlığı işində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova aqraryönümlü ali təhsil müəssisələrinin ölkəmiz üçün strateji əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Nazir müavini bu sahədə Kənd Təsərrüfatı Nazirliyinin ADAU ilə sıx əməkdaşlığı, ərzaq təhlükəsizliyinin təmin olunmasının önəmi, ölkəmizdə digər universitetlərdə kənd təsərrüfatı üzrə kadr hazırlığı ilə məşğul olan fakültələrin əhəmiyyəti barədə danışıb. O, kənd təsərrüfatı sahəsində kadr hazırlığı üzrə hədəflər, qarşıya qoyulan məqsədlər və aqrar sahənin beynəlxalq təcrübəyə, güclü elmi əsaslara söykənən perspektivləri barədə fikirlərini açıqlayıb.

Mövzu ətrafında aparılan müzakirələrdə çıxış edən Milli Məclisin deputatları Fariz İsmayılzadə, Fatma Yıldırım, Razi Nurullayev, Jalə Əliyeva, Mehriban Vəliyeva, Vüqar İsgəndərov, Müşfiq Məmmədli, Ceyhun Məmmədov, Aydın Hüseynov, Naqif Həmzəyev, Əkinçilik Elmi-tədqiqat İnstitutunun direktoru Faiq Xudayev, Baytarlıq Elmi-tədqiqat İnstitutunun direktoru Siyalə Rüstəmova rəy və təkliflərini səsləndiriblər.

Sonra kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova tədbirdə səsləndirilən fikirlərə münasibətini bildirib.

İctimai dinləməyə yekun vuran komitə sədri Tahir Rzayev bu tədbirin aqrar sektorda ixtisaslı kadrların hazırlanmasına müsbət təsir göstərəcəyinə əminliyini ifadə edib. O, bu cür müzakirələrin sahə üzrə mövcud problemlərin vaxtında müəyyənləşdirilməsinə və onların həlli üçün səmərəli təkliflərin irəli sürülməsinə imkan yaratdığını, aqrar sahənin davamlı inkişafına və insan resurslarının keyfiyyətinin yüksəldilməsinə xidmət etdiyini bildirib.

Tədbirdə Milli Məclis Aparatı rəhbərinin müavini Yaşar Əməşov və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

# Nizami Kino Mərkəzində "The Oligarch's Design" sənədli filminin nümayişi olub




**Dekabrın 19-da Nizami Kino Mərkəzində "AnewZ" Beynəlxalq Televiziyasının araşdırma seriyasından olan "The Oligarch's Design" sənədli filminin rəsmi nümayişi olub.**

AZƏRTAC xəbər verir ki, ekran əsərinin təqdimatında Milli Məclisin deputatları, Azərbaycanın televiziya kanallarının, informasiya agentliklərinin, media subyektlərinin rəhbərləri və ictimai-siyasi şəxslər iştirak ediblər.

Filmin təqdimatından əvvəl çıxış edən "AnewZ" Beynəlxalq Televiziyasının icraçı direktoru Rüfət Həmzəyev sənədli ekran əsəri haqqında məlumat verib. O bildirib ki, bu təkcə sənədli filmin premyerası deyil, həm də "AnewZ Investigations" platformasının rəsmi başlanğıcıdır. Bu sənədli film beynəlxalq araşdırma jurnalistikasının bütün istiqamətlərini özündə ehtiva edən ekran işidir.

Rüfət Həmzəyev diqqətə çatdırıb ki, "The Oligarch's Design" layihəsinin çəkilişləri bu ilin yanvar ayından etibarən 8 ölkədə həyata keçirilib və istehsal prosesi 10-11 ay davam edib. Filmin hazırlanması prosesinə 100-ə yaxın jurnalist, prodüser, operator, montajçı və tədqiqatçı cəlb olunub. Həmçinin filmin bir sıra epizodları mürəkkəb şəraitdə ərsəyə gətirilib.

Qeyd edilib ki, sənədli filmin əsas bölmələrindən biri Ruben Vardanyanın 2022-ci ildə Rusiya vətəndaşlığından imtina edib bölgəyə köçməsi və tanınmamış separatçı rejimin siyasi müstəvisində fəaliyyətə başlaması prosesinə həsr olunub. Bu proseslər Azərbaycan, Ermənistan və Ukraynada aparılmış araşdırmalar və müsahibələr, həmçinin deputatlar, prokurorlar, regional ekspertlər və jurnalistlərin təhlilləri əsasında təqdim olunur.

Həmçinin diqqətə çatdırılıb ki, "AnewZ Investigations" platforması vasitəsilə kanal uzunmüddətli araşdırma jurnalistikasını dərinləşdirməni, yoxlanılmış məlumatlara əsaslanan yanaşmanı, hesabatlılığı və güc mexanizmlərinin ictimai diqqətdən kənarda necə fəaliyyət göstərdiyinin daha dərindən anlaşılmasını prioritet kimi müəyyənləşdirir.

"AnewZ" Beynəlxalq Televiziyasının baş redaktoru Qay Şoun çıxışında filmin 4 əsas istiqamətdən ibarət olduğunu deyib: "Birinci fəsil maliyyə arxitekturasına həsr olunub. Araşdırmalar Böyük Britaniya, Litva və Amerika Birləşmiş Ştatlarında aparılıb və "Troyka" sistemi çərçivəsində ofşor strukturlar, vasitəçi banklar və "qabıq" şirkətlərin fəaliyyəti araşdırılır. İkinci fəsil xeyriyyəçilik və humanitar təşəbbüslər mövzusuna fokuslanır. Çəkilişlər əsasən Böyük Britaniyada, qismən isə Ermənistanda aparılıb. Bu fəsil xeyriyyə narrativlərinin elit siyasi və mədəni mühitlərlə necə kəsişdiyini beynəlxalq legitimlik və reputasiyanın hansı mexanizmlərlə formalaşdığını nümayiş etdirir. Üçüncü fəsil Ukraynada müharibə şəraitində hazırlanıb. Rusiyanın genişmiqyaslı işğalı fonunda logistika sanksiyaları və maliyyə şəbəkələrini təhlil edir. Bu hissə sahə reportajına təhlükəsizlik yanaşmasına və siyasətçilərlə analitiklərin birbaşa şahid ifadələrinə əsaslanır. Dördüncü və son fəsil yenidən Cənubi Qafqaz regionuna qayıdır. Azərbaycan və Ermənistanda aparılan çəkilişlər xarici maliyyə və siyasi mexanizmlərin regional səviyyədə siyasi və təhlükəsizlik mühitinə real təsirlərini ortaya qoyur".

Onun sözlərinə görə, bütün fəsillər, demək olar ki, eyni prinsiplərlə hazırlanıb. Film sübut və kontekst təqdim edir. Lakin nəticələri diktə etmir.

Sonra qonaqlar "The Oligarch's Design" sənədli filmini izləyiblər.

Film xeyriyyəçilik, maliyyə arxitekturası və dəqiqliklə qurulmuş narrativlər vasitəsilə siyasi təsirin necə formalaşdırıla biləcəyini araşdırır.

Bundan başqa, filmdə "Aurora Foundation" mövzusuna da toxunulub. Uzun illər ərzində dünyanın müxtəlif ölkələrindən tanınmış şəxslərin iştirak etdiyi platformanın nümayəndələri ilə müsahibələr aparılıb.

Araşdırma "OSINT" məlumatlarına (açıq mənbələr üzrə kəşfiyyat), eləcə də əvvəlki beynəlxalq araşdırmaların nəticələrinə əsaslanır. Həmin araşdırmalarda ofşor strukturlar vasitəsilə milyardlarla dolların dövriyyədən keçdiyi "Troika Laundromat" maliyyə şəbəkəsi təsvir olunub. Beynəlxalq araşdırma təşkilatlarının dərc etdiyi materiallar filmin faktoloji əsasının tərkib hissəsini təşkil edir.

# Ermənistan vətəndaşlarının məhkəməsi təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilib

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dekabrın 19-da davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Sədrlik edən Z.Ağayev bildirib ki, məhkəmə iclası təqsirləndirilən şəxslərin son söz çıxışları ilə davam etdirilir.

Xatırladılıb ki, ötən məhkəmə iclası zamanı fasilə elan olunduğundan təqsirləndirilən David Manukyan çıxışını indiki məhkəmə iclasında davam etdirəcək.

D.Manukyan ittiham tərəfinin çıxışında qeyd etdiklərinə əks dəlilləri səsləndirib. Belə ki, təqsirləndirilən şəxs dövlət ittihamını müdafiə edən prokurorların elan etdiyi məqamlarla razılaşmadığını deyib.

O, qondarma rejimin "təhlükəsizlik şurasının iclaslarında" nə iştirakçı, nə də müşahidəçi qismində iştirak etdiyini, buna onun vəzifə öhdəliklərinin icazə vermədiyini də söyləyib.

D.Manukyan həmçinin çıxışında öz vəkillərinə təşəkkürünü bildirib.

Təqsirləndirilən Arayik Harutyunyan son sözündə dövlət ittihamını müdafiə edən prokurorların təqdim etdiyi dəlillərlə razılaşmadığını söyləyib.

O, özünün və iki qardaşının Qarabağda məktəbdə təhsil aldığını, erməni dilində təhsil almaqla bağlı problem olmadığını deyib. A.Harutyunyan azərbaycanlılarla aralarında heç bir problem olmadığını da bildirib və əlavə edib: "Bir-birimizin tədbirində iştirak edirdik".

Təqsirləndirilən şəxs son sözündə məhkəmədə ittiham edildiyi müharibə cinayətlərindən də bəhs edib: "Burada müharibə cinayətləri təqdim olundu. Səmimi desəm, böyük hissəsi ilə burada tanış oldum. Mən çox məlumatlı adamam. Amma Kəlbəcərdəki Tunel hadisəsini burada bildim. Məsələn, Bəylik bağı hadisəsini burada bilmişəm. Əlbəttə, bunlar hərbi cinayətlərdir və öz günahkarları var. Əgər günahkarlar bu dünyada cəzalanmayıblarsa, o biri dünyada öz əməllərinə görə cəzalanacaqlar. Söhbət qocalara, qadınlara, uşaqlara, əsir və girovlara qarşı edilən cinayətlərdən gedir".

A.Harutyunyan ittihamları sadalayaraq (cinayətkar birliyə qoşulmaq, qanunsuz sahibkarlıq fəaliyyəti göstərmək, dağıntılar törətmək, muzdlular, minaların basdırılması, təyyarələrin hərəkətinə maneə törədilməsi, qətllər, zorakılıqlar, Gəncənin raket atəşinə tutulması və s.) həmin məsələlərlə bağlı öz arqumentlərini səsləndirib və ittihamları qəbul etmədiyini söyləyib.

Təqsirləndirilən şəxs David Babayan son sözünü rus dilində etmək istədiyini deyib. D.Babayana rus dilində çıxış etmək üçün şərait yaradılıb.

O, dövlət ittihamını müdafiə edən prokurorların və zərərçəkmiş şəxslərin bildirdikləri ilə bağlı özünün əks arqumentlərini ümumi fikirlərlə səsləndirib.

Məhkəmə prosesi dekabrın 22-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.



# Müstəqillik tariximizin ən böyük amnistiyası

## İlham Əliyev 20 minə yaxın ailəyə sevinc bəxş etdi

**Azərbaycanın dövlətçilik tarixi çoxsaylı xoşməramlı addımlarla, hər kəsin rəğbətini qazanan humanizm nümunələri ilə zəngindir. Ölkədə insan hüquq və azadlıqlarının qorunması dövlət siyasətinin prioritet məsələlərindən biridir. Yəni dövlətin siyasi kursunda humanizm başlıca prinsiplərdəndir. Dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlər bütövlükdə cəzaların icrası ilə bağlı fəaliyyətin müasir dövrün tələblərinə uyğun qurulmasını və səmərəli idarəetmənin təşkilini zəruri edir.**

Son 22 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə böyük tərəqqiyə nail olub. Ulu Öndər Heydər Əliyevin humanizm ənənələrinə və siyasətinə sadiqlik İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edib. Dövlət başçısı əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin etmək məqsədilə həyata keçirdiyi islahatlar da bu sahədə böyük irəliləyişə səbəb olub.

İlham Əliyev hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsindən çıxış edərək bayram və əlamətdar günlərdə əfv sərəncamları imzalayıb. Azərbaycan Prezidentinin son 22 ildə imzaladığı əfv sərəncamları, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş amnistiya aktları minlərlə insanı əhatə edib.

Dünən isə Milli Məclis Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülmüş "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında qərar qəbul edib.

Bu, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiyanın 30 illiyi, Vətən müharibəsində qazandığımız tarixi Zəfərin 5-ci ildönümü, ölkəmizin suverenliyinin tam bərpa olunması və "Konstitusiya və Suverenlik İli" münasibətilə Prezident İlham Əliyev tərəfindən elan edilən növbəti humanizm təşəbbüsüdür.

Bu amnistiya 2023-cü ildə Qarabağda separatizmə birdəfəlik son qoyulmasından, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin tam təmin edilməsindən sonra irəli sürülmüş ilk təşəbbüsdür. Bu fakt onun siyasi, hüquqi və mənəvi baxımdan xüsusi əhəmiyyətini daha da artırır.

Digər tərəfdən, amnistiyanın tətbiq ediləcəyi şəxslərin dairəsi və sayı əvvəlkilərlə müqayisədə xeyli genişdir. Belə ki, amnistiya qərarı 16 kateqoriya üzrə şəxslərə, habelə 13 müxtəlif cəza növü üzrə cinayət törətmiş və ya qanun pozuntusuna yol vermiş vətəndaşlara şamil ediləcək. Ümumilikdə isə təxminən 20 min vətəndaşımız dövlətimizin bu humanist siyasətindən birbaşa faydalana biləcək. Bu qərarın təsir dairəsini daha geniş miqyasda qiymətləndirdikdə həmin şəxslərin ailə üzvləri və yaxınları da nəzərə alınmaqla, bu təşəbbüsün ən azı 200 min insana sevinc bəxş edəcək, azadlığa çıxanların ailələri ilə yenidən qovuşmasına və cəmiyyətə sağlam inteqrasiyasına imkan yaradacaq.

Amnistiya qərarından ilk növbədə Birinci və İkinci Qarabağ müharibələrinin, habelə 2023-cü ilin sentyabrında keçirilmiş antiterror tədbirlərinin iştirakçılarının, şəhid ailələrinin və xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının faydalanacağı təqdirəlayiq haldır. Bu fakt bir daha təsdiq edir ki, Azərbaycan dövləti torpaqlarımızın azadlığı və suverenliyimizin təmin olunması uğrunda vuruşmuş, canlarını fəda etmiş qəhrəman övladlarını və onların ailələrini heç vaxt unutmur.

Bununla yanaşı, Ermənistandan deportasiya edilmiş soydaşlarımız, keçmiş məcburi köçkünlər, 20 Yanvar faciəsi və Xocalı soyqırımı nəticəsində əlil olmuş şəxslər, həlak olmuş və ya itkin düşmüş vətəndaşların yaxın qohumları da amnistiyanın tətbiqi dairəsinə daxil edilib. Eyni zamanda sosial həssas kateqoriyalara xüsusi diqqət yetirilib. Belə ki, qadınlar, 18 yaşına çatmamış yeniyetmələr, 60 yaşını tamam etmiş yaşlı şəxslər, əlilliyi olan vətəndaşlar, habelə öhdəsində azyaşlı uşaqları olan şəxslər də Prezident İlham Əliyevin humanist təşəbbüsündən faydalanmaq imkanı əldə ediblər.

Ümumiyyətlə, Azərbaycanda əfv və amnistiya təsisatları Ümummilli Lider Heydər Əliyevin dövründə yaradılıb. İndiyə kimi isə ölkəmizdə 13 amnistiya aktı qəbul edilib.

Ulu Öndərin dövründə Milli Məclis tərəfindən 22 may 1996-cı il, 17 oktyabr 1997-ci il, 12 may 1998-ci il, 29 dekabr 1998-ci il, 10 dekabr 1999-cu il, 1 fevral 2001-ci il və 6 may 2003-cü il tarixlərində qəbul edilən amnistiya aktları ümumilikdə 77 mindən çox insana şamil edilib, bunlardan 21 min 325 nəfər cəzasının çəkilməyən hissəsindən azad olunub. Ümummilli Liderin imzaladığı əfv fərmanları ilə 3 mindən artıq şəxs bağışlanaraq cəzalarından azad edilib.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın irəli sürdüyü təşəbbüs nəticəsində 2007-ci il mayın 8-də Milli Məclisdə amnistiya aktı qəbul edilib. Konstitusiya dəyərləri və hüquqi islahatlar kontekstində qəbul edilən amnistiya ümumilikdə 9000 nəfərə şamil olunub. Onlardan 1500 nəfər azadlığa buraxılıb, 7500 nəfərin isə cəza müddəti azaldılıb.

Milli Məclis 2009-cu il martın 17-də Mehriban xanım Əliyeva tərəfindən təqdim edilən "Novruz bayramı ilə əlaqədar amnistiyanın elan olunması haqqında" qanun layihəsini qəbul edib. Həmin akt 9 min məhbusa tətbiq olunub, 1700 məhbus azadlığa buraxılıb. Birinci xanımın daha bir təşəbbüsü ilə milli həmrəyliyin gücləndirilməsi məqsədilə 2013-cü il 7 may tarixində qəbul edilən qərarla 10040 məhkum barəsində amnistiya tətbiq edilib. 2016-cı ildə Mehriban Əliyevanın təşəbbüsü ilə 28 May - Respublika Günü münasibətilə də amnistiya elan edilib. Amnistiya qərarı ümumilikdə 10868 nəfərə şamil olunub. Amnistiya qərarı azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 3545 məhkuma tətbiq edilib. Onlardan 2842 məhkum cəza çəkməkdən azad olunub, 635 məhkumun cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb və 68 məhkumun narkomaniyadan məcburi müalicəsi müvafiq məhkəmənin qərarı ilə ləğv edildikdən sonra onların azad edilməsi qərara alınıb.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə elan edilən amnistiya ən əhatəli aktlardan biri olub. Bu aktdan 15 minə yaxın şəxs faydalanıb. Təşəbbüs Milli Məclisin deputatı Mehriban Əliyeva tərəfindən irəli sürülüb.

Prezident İlham Əliyev isə Zəfər Günü münasibətilə 2021-ci ildə amnistiya elan edilməsi haqqında qərar qəbul edib. Həmin amnistiya aktı 17 min 267 şəxsə şamil olunub. Bu qərar tətbiq olunan şəxslərin sayına görə həmin ilə qədər qəbul edilmiş ən geniş amnistiya olub. Amnistiyanın tətbiq olunduğu şəxslərdən 733-ü Vətən müharibəsinin iştirakçısı, 837-si qadın, 65-i yetkinlik yaşına çatmayanlardır.

Amnistiya qərarı azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 5971 məhkuma tətbiq edilib. Onlardan 2710 məhkum azadlıqdan məhrumetmə cəzasından azad olunub, 3261 məhkumun cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb. Həmçinin azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 8559 şəxsə amnistiya tətbiq edilib. Onlardan 5722 məhkum cəzadan azad edilib, 2837 məhkumun cəzası azaldılıb.

Bu o deməkdir ki, insan amili, humanizm və mərhəmət hissi ötən illərdə olduğu kimi, bu gün də dövlət siyasətinin mərkəzində dayanır. Amnistiya təşəbbüsü imkan verəcək ki, minlərlə ailə doğmalarına qovuşmağın sevincini yaşasın, cəmiyyətimizə faydalı olmaq üçün toparlanmağa stimul qazansın. İnanıram ki, rəsmi orqanlarla yanaşı, bütövlükdə cəmiyyətimiz də əlindən gələni edəcək ki, dövlətin yenidən etimad göstərdiyi insanlar adaptasiya dövrünü daha yüngül keçirsin.

Prezident İlham Əliyev hər zaman mərhəmət, insanpərvərlik məfkurəsindən çıxış edərək bayram və əlamətdar günlərdə əfv sərəncamları imzalayıb. Azərbaycan Prezidentinin son 19 ildə imzaladığı 35 əfv sərəncamı ümumilikdə 5672 nəfərə tətbiq olunub, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul olunmuş 4 amnistiya aktı isə 40 mindən çox insanı əhatə edib.

Bununla yanaşı, son illərdə həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının genişləndirilməsi haqqında ayrıca qanun qəbul olunub, cəza siyasətinin humanistləşdirilməsi məqsədilə cinayət qanunvericiliyinə 600-dək dəyişiklik edilib, bir çox əməllər dekriminallaşdırılıb və 2200-ə yaxın məhkum cəzadan azad olunub. Eyni zamanda məhkumların azad cəmiyyətə tamhüquqlu üzv kimi qayıdışı daim diqqətdə saxlanılaraq onların sosial adaptasiyası ilə bağlı xüsusi qanun qəbul olunub. Vaxtından əvvəl şərti azadetmə institutu da səmərəli tətbiq olunaraq son iki ildə 3500-dən çox məhkum vaxtından əvvəl şərti azadlığa buraxılıb.

Ümumiyyətlə, mərhəmət, geniş qəlblilik, xeyirxahlıq, bağışlamaq bacarığı ən ali keyfiyyətlər kimi qiymətləndirilib və əfv etmək böyük, müdrik insanlara, dövlət xadimlərinə xas olan yüksək keyfiyyətdir.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, Qarabağın Xilaskarı kimi adını tariximizə qızıl hərflərlə yazdıran İlham Əliyevin humanizm prinsiplərinə sadiqliyini təsdiq edən əfv və amnistiya aktları bir daha təsdiq edir ki, Azərbaycan Prezidenti əfv etməyi, bağışlamağı bacaran aqil dövlət adamlarındandır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Ermənistanda kilsə-hakimiyyət qarşıdurması gərginləşir

**Uzun müddətdir Erməni Apostol Kilsəsi ilə Ermənistan hakimiyyəti arasında yaranmış qarşıdurma səngimir. Hakimiyyət bütün ermənilərin katolikosu II Qareginin dərhal istefa verməsini tələb edir. Erməni cəmiyyətində sabitlik yaratmaqda qətiyyətli görünən Nikol Paşinyan bu günlər əvvəlki tələbini təkrarlayaraq yenə də II Qarageni istefaya çağırıb. Baş nazir mətbuata açıqlamasında artıq katolikosun islahat prosesində iştirak etmək üçün bütün imkanlarını tükəndirdiyini, Eçmiədzin ana taxtını azad etməli olduğunu bildirib.**

Kilsə və hakimiyyət qarşıdurmasına görə siyasi gərginlik cəmiyyətə də keçib. Bu, hakimiyyət ilə kilsə arasındakı qarşıdurmanın yeni mərhələsi deməkdir. Baş nazirin kilsə rəhbərliyini açıq şəkildə ittiham etməsi, onu antidövlət qüvvəsinə çevrilməkdə günahlandırması və bir neçə yüksəkrütbəli din xadiminin həbs olunması cəmiyyətdə müəyyən fikir ayrılıqlarına gətirib çıxarıb. Ermənistanda gərginlik yaradan, Azərbaycan-Ermənistan arasında sülhün yaradılmasını istəməyən, revanşistlərlə əməkdaşlıq edən kilsənin tərəfində olanlar hökuməti dini institutlara müdaxilə etməkdə günahlandırırlar. Bütün bunlar isə Ermənistan siyasi hakimiyyəti ilə kilsə arasında sabitliyin pozulmasına yol açır.

Bəzi müşahidəçilər 2026-cı il parlament seçkilərində Paşinyana əsas rəqib kilsə olacağını bildirirlər. Gözlənilən odur ki, kilsənin dəstəklədiyi revanşistlər hakimiyyətə gələ bilər. Məhz buna görə, N.Paşinyan cəmiyyətdə sabitlik yaratmaq məqsədilə Ermənistanı yeni müharibələrə sürükləmək istəyən qüvvələri dəstəkləyən kilsəni neytrallaşdırmağa çalışır. Müharibə tərəfdarı olan kilsə isə mövqeyindən geri addım atmaq istəmir.

Məlumdur ki, "dənizdən dənizə Böyük Ermənistan" ideyası uzun illər kilsə tərəfindən irəli sürülüb və erməni millətinin şüuruna kök atıb. Paşinyanın da əsas məqsədi erməni xalqını utopiyalardan uzaqlaşdırmaqdır. Baş nazir hələ oktyabr ayında bəyan etmişdi ki, Eçmiədzinin azad edilməsi gündəliyi çoxdan yetişib. Paşinyanın sözlərinə görə, bu gün hər bir Ermənistan Apostol Kilsəsi nümayəndəsi və eləcə də ruhanilər seçim etməlidirlər. Kilsənin bu cür direniş göstərməsi, ruhanilərin seçim etməməsi onu göstərir ki, erməni xalqının beynini zəhərləmiş bu sərsəm ideologiyanı dəyişməyə xeyli zaman lazım olacaq.

Cəmiyyətdə gərginlik artdıqca Ermənistandakı bəzi din xadimləri II Qaregenin hakimiyyətə qarşı çıxmağını, xalq arasında qarşıdurma yaratdığını qəbul etmirlər. Buna görə də bütün ermənilərin patriarxı II Qareginin xüsusən son dövrlər apardığı revanşist, dağıdıcı, kilsənin kanonik qaydaları ilə bir araya sığmayan idarəçiliyinə qarşı çıxan, konstruktiv mövqe nümayiş etdirən 10 yepiskop dekabrın 17-də birgə bəyanat yayıb. Yepiskoplar "Haykakan Jamanak" qəzetində dərc olunan həmin bəyanatda inanclı insanları Eçmiədzin ana taxtında II Qareginin istefasını tələb etməyə çağırıblar. Bəyanatda kilsə ətrafında cərəyan edən hadisələrin kilsəyə, dövlətə və inanclı xalqa bərpası mümkün olmayan zərər vura biləcəyi qeyd edilib. Din xadimləri vurğulayıblar ki, bu narahatlıqlarını həm bütün ermənilərin katolikosu ilə şəxsi görüşlərdə, həm də ictimai müstəvidə dəfələrlə ifadə ediblər. Bəyanatda deyilir: "Ermənistandakı və diaspordakı inanclı şəxslərə müraciət edərək vahid iradə nümayiş etdirməyə, bizə qoşulmağa və kilsənin nüfuzunun və reputasiyasının qəsdən məhv edilməsinə səbəb olan, erməni kilsəsini xarici maraqlar üçün istismar etmək cəhdlərini və səylərini tamamilə rədd edən bu dağıdıcı, antikanonik prosesə qarşı ədalətli etiraz səslərini ucaltmağa çağırırıq. Dekabrın 18-də saat 17:00-da bütün ermənilərin ruhani mərkəzi olan Eçmiədzin ana taxtında bütün ermənilərin katolikosu Qareginin istefa verməsi üçün haqlı bir tələblə bizə qoşulun. Çünki bu, artıq təcili zərurətə çevrilib".

Eçmiədzin ana taxtı da ləngimədən bəyanat yayaraq 10 yepiskopun son açıqlaması ilə bağlı dərin narahatlığını bildirib: "Ana taxt təhlükəli toplantının təşəbbüsünü öz üzərinə götürən müqəddəs ataları sayıq olmağa çağırır. Onlar xalqı fəlakətli emosiyalardan qorumaq üçün məsuliyyət nümayiş etdirməli və yalnız kilsənin kanonik prosedurlarına uyğun hərəkət etməlidirlər. Xalqın hisslərindən sui-istifadə etməyə və məlum yalançı gündəmlə kilsənin dindar övladları arasında nifaq salmağa, erməni mənəvi mərkəzinin sülhünü və dua mühitini pozmağa ehtiyac yoxdur".

Baş nazir isə məsələyə münasibətini açıqlayarkən 10 yepiskopun hərəkətlərinə rəhbərlik etmədiyini, lakin onları alqışladığını və dəstəklədiyini bildirib. N.Paşinyan Eçmiədzin taxt-tacının yeposkoplara, yepiskopların isə Eçmiədzin taxt-tacına məxsus olduqlarını bildirib: "Buna görə də onların toplantı çağırışı qanunidir. Mən 10 yepiskopla yalnız kilsənin bərpası gündəliyi ilə bağlıyam və bizdə belə bir fikir birliyi var ki, bu gündəm Ktriç Nersisyanın ana taxtdan uzaqlaşdırılması olmadan həyata keçirilə bilməz".

Hadisələrin gedişi onu göstərir ki, kilsə daxilində narazılıqların artması artıq gizli mərhələni keçib. Müxtəlif ruhani qruplar, kilsəyə yaxın ictimai fəallar və bəzi millətçi çevrələr II Qaregini kilsəni zəiflətməkdə, onun tarixi və ideoloji mövqelərindən geri çəkilməkdə ittiham edirlər.

Siyasi şərhçilərin fikrincə, etirazçılardan sonra II Qaregin istefa verməsə də, kilsə daxilində parçalanmanı daha da dərinləşdirəcək. Növbəti etiraz dalğalarında ya katolikosun mövqelərinin zəifləməsi, ya da kilsənin tam şəkildə siyasi proseslərdən sıxışdırılması ehtimalı güclənəcək. Eçmiədzindəki etirazlar təkcə bir dini rəhbərə qarşı narazılıq deyil, Ermənistan cəmiyyətində köhnə ideoloji divarların dağılması prosesinin növbəti mərhələsidir. Güman etmək olar ki, alovlanan bu etirazlar nəticəsində yalnız kilsənin deyil, həmçinin ölkənin ictimai-siyasi həyatındakı proseslərin axarı dəyişə bilər.

Rəsmi İrəvan etiraz dalğasınım gedişinə hər hansı bir vasitə ilə müdaxilə etmədiyini bildirsə də, görünən odur ki, kilsə ətrafında baş verən proseslər Paşinyan hökumətinin maraqları ilə üst-üstə düşür. Hakimiyyət düşərgəsi üçün kilsənin zəifləməsi, onun siyasi təsir imkanlarının azalması strateji baxımdan əlverişlidir. Buna görə də bəzi müşahidəçilər yeni başlanan aksiyanın yalnız "kilsədaxili narazılıq" deyil, həm də köhnə sistemin son dayaqlarından birinin sarsıdılması prosesi olduğunu dilə gətirirlər. Son qərarı isə erməni xalqı verəcək. Ümid etmək olar ki, veriləcək qərar revanşistlərin hakimiyyətə gedən yollarını bağlayacaq, regionda sülhə, əmin-amanlığa xidmət edəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# "Euronews" kanalı Şuşa ilə bağlı reportaj təqdim edib

**"Euronews" kanalı "Around Azerbaijan" çərçivəsində Şuşanın Azərbaycanın mədəni həyatında niyə mərkəzi yer tutduğu barədə bəhs edib.**

AZƏRTAC xəbər verir ki, "Euronews"un müxbiri Natali Lindo Qarabağın ürəyinə - yaradıcılığı, rəssamları və onlara ilham verən mənzərələri ilə tanınan Azərbaycanın mədəni beşiyi olan Şuşaya səyahət etdi.

Natali Lindonun səyahəti Şuşa qalasından başladı. "Euronews" müxbirini Şuşa Dövlət Təbiət Qoruğunun İctimaiyyətlə əlaqələr və informasiya şöbəsinin müdiri Səmayə Məmmədova müşayiət etdi.

"Şuşa ipəyi, xalçaları və atları ilə çox məşhur idi, bir çox tacirlər Şuşaya gəlirdi. Bu qapılar səhər tezdən açılır və gecə bağlanırdı", - deyə o qeyd edib.

Daha sonra Natali Lindo Cıdır düzünə qısa bir gəzintiyə çıxdı, oradan Daşaltı dərəsinə mənzərə açılır. O, ətrafındakı inanılmaz gözəlliyi bölüşür: "Şuşanı ziyarət edən turistlərin sayı artır. Çünki onlar Cıdır düzünü görməyə gəlirlər. Bura möhtəşəm və tarixi bir yerdir. Eyni zamanda bu, nağıldır".

Vaqif məqbərəsindən danışarkən kanalın müxbiri qeyd edir ki, bura sakit düşüncələr yeridir, şəhəri formalaşdıran şairlərdən birinin şərəfinədir və Şuşa daşından tikilib.















"Vaqif çox maraqlı və yaradıcı insan idi", - deyə Səmayə Məmmədova bəhs edir: "O, Şuşanın ikinci Qarabağ xanının müşaviri idi. Amma ilk növbədə o, çox istedadlı şair idi. Bu yer unikaldır - hər il burada Vaqif Poeziya Günləri qeyd edilir. Burada Azərbaycanın müxtəlif bölgələrindən şairlər toplaşırlar".

Daha sonra təbiətə yenidən yaxın olmaq üçün şəhərdən bir neçə kilometr uzaqlaşan Natali Lindo suyun min il müddətində bu qayalardan axdığı Çətir şəlaləsinə gəlir. "Buraya çatmaq üçün iki kilometrdən çox məsafə qət etmək. Allahım, bura valehedicidir!" - deyə səyyah bildirir.

Süjetdə bildirilir ki, Şuşa dünyaya görkəmli istedadlar bəxş edib. Ən məşhurlarından biri bəstəkar Üzeyir bəy Hacıbəylidir. Bəstəkarın ev-muzeyi onun evinin atmosferini qoruyub saxlayır və yaradıcılığı nəsillərə təsir etməyə davam edən dahinin həyatına unikal bir baxış etməyə imkan verir.

Ev-muzeyinin direktoru Nəsibə Eyvazova bildirir: "Üzeyir bəy Hacıbəylinin musiqisi və yaradıcı irsi dünya musiqisinə dərin töhfə verib və bütün dünyada bəstəkarlara təsir edib. 1907-ci ildə o, beynəlxalq səviyyədə tanınmış ilk Azərbaycan operasını yazıb. Onun əhəmiyyətli əsərlərindən biri olan "Azərbaycan xalq musiqisinin əsasları" bir neçə dilə tərcümə olunub və geniş oxunur. O, çox vaxt bəstəkarların masalarında əvəzolunmaz bir istinad kimi yer alır".

Musiqi bu gün də Şuşada əsas rol oynayır. Muğam bölgənin əlamətdar sənət formalarından biridir. Bu, şəhərin musiqi ənənəsinə davamlı bir töhfədir.

Şuşa xalçaları bu bölgəyə xas simvolik naxışlarla dolu sənət əsərləridir. Natali Lindo əsrlərin yaradıcılığının əks olunduğu bu ornamentlərin öyrənilməsinə dərindən qərq olur.

Azərbaycan Milli Xalça Muzeyinin Şuşa filialının direktoru Babakişi İsrafilov deyir: "Qarabağ xalçaları dolğun rəngləri, sıx düyünlü toxunuşları və unikal toxunmuş naxışları ilə seçilir. Məsələn, bu xalçada xarıbülbül çiçəyinin motivləri var. Xarıbülbül Şuşanın əsas simvollarından biridir və onun motivi ənənəvi olaraq yalnız Qarabağda toxunmuş xalçalarda istifadə olunurdu".

Natali bildirir ki, yaxından baxanda bu xalçalar, həqiqətən, Şuşanın sənətkarlığını nümayiş etdirir. Rənglər, texnikalar və tarixin hekayə edilməsi hər bir sapa hörülüb.

Səyahət 1752-ci ildə tamamlanan Gövhər ağa məscidində davam edir. Klassik Qarabağ memarlığını və sənətkarlığını əks etdirən bu məscid keçmişin qorunub saxlanması və gələcəyin qurulması ruhunda bərpa edilib.

Daha sonra süjet Şuşanın mətbəxindən bəhs edir, onun bölgənin mənzərələri, fəsilləri və uzunmüddətli ənənələri ilə formalaşmasını vurğulayır.

"Bu gün mən sadə, isti və yerli mədəniyyətə bağlı dadlardan zövq alıram", - deyə Natali Lindo qeyd edir.

"Bu gün sizi bir neçə ənənəvi yeməklə tanış edəcəyik", - deyə "Saffron Restaurant Group"un texnoloq mühəndisi Ceyran Əsgərova bildirir. "Ən yaddaqalan məqam "boyanı" ilə hazırlanmış Şuşa plovudur. Düyünün içində kiçik oyuqlar açılır və hər oyuqda bir yumurta çalınır - hər qonaq üçün bir dənə. Plov buxarda dəmlənərkən yumurtalar özünü tutur və formasını saxlayır", - deyə o əlavə edir.

Səyahətin sonunda "Euronews" müxbiri Gövhər ağa məscidinin minarələrindən birinin hündürlüyündən təəssüratlarını bölüşərək vurğulayır: "Şuşada keçirilən vaxt bacarıq, istedad və gözəlliklə dolu bir şəhəri nümayiş etdirdi. Keçmişdən bu günə qədər bu şəhər qürur, ehtiras və yaradıcı enerji ilə yaşayır. Bunu görmək ilhamverici idi..."




# Konstitusiya və Suverenlik İli 2025



# İmzalar içində imza olmağın qüruru

**2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan olunması, postmüharibə dövründə yeni milli ideoloji prioritetlərin böyük əhəmiyyət kəsb etməsi, qüdrətli Azərbaycanın dünya ölkələri sırasında özünə layiqli yer tutması, müstəqilliyimizin əbədi olmasında bir çox prinsiplərin əhəmiyyət və mahiyyətini ön plana çıxarmaq baxımından əvəzsiz rol oynadı. Bu sərəncamın imzalanması, ilk növbədə, ölkəmizdə hüquqi dövlət quruculuğuna və milli müstəqilliyin möhkəmləndirilməsinə verilən yüksək əhəmiyyətin göstəricisidir.**

Suverenlik bir xalqın özünüidarəetməsidir, dövlətin daxili və xarici siyasətdə tam müstəqil qərarlar qəbul etmək hüququ, yəni başqa dövlətlərdən və beynəlxalq təşkilatlardan asılı olmadan öz siyasətini yürütmək imkanına malik olmasıdır. Suverenlik öz sərhədləri daxilində qanunları müəyyən etmək, vətəndaşlarına hüquqlar vermək və onları qorumaqdır. Konstitusiya bu baxımdan, dövlətin ərazi bütövlüyünü, müstəqil siyasət aparmaq hüququnu və milli maraqlarını qorumaq üçün hüquqi zəmin yaradır. Yəni əsas qanun həm milli suverenliyin rəmzi, həm də onun praktik təminatçısıdır. Onun qorunması və daim təkmilləşdirilməsi dövlətin müstəqilliyinin, təhlükəsizliyinin və davamlı inkişafının əsas şərtlərindəndir. Bugünkü Konstitusiyamız əhalinin hüquq və azadlıqlarını yetərincə təmin edir. Bu gün ölkəmizdə yaşayan hər kəsin dil, din, düşüncə, mülkiyyət, təhsil azadlığı var və Konstitusiyamız bu azadlıqların təmin olunması üçün kifayət qədər geniş hüquqi çərçivə yaradır. Gənc nəsildə konstitusion düşüncəyə gəlincə isə, bu, ilk növbədə, onların hüquqi düşüncə tərzi, vətəndaşlıq məsuliyyəti və qanunlara hörmət ruhunda formalaşması ilə cilalanır. Təbii ki, bu düşüncənin qorunması, artırılması hər zaman əsas prioritet istiqamət olmalıdır. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev son zamanlar bu məsələyə daim vurğu salır. Təsadüfi deyil ki, bu il, mayın 10-da Ağdamda Muğam Mərkəzinin açılışında, Kəngərli kənd sakinləri ilə görüşdə də ölkə rəhbəri yeni nəslin düzgün zəmində yetişdirilməsi məqamlarına diqqət yönəltdi, ailə, məktəbin rolunu önə çəkdi. Gənc nəsildə konstitusion düşüncənin artırılmasından bəhs ediriksə, elə bu məqamdan başlamalıyıq. Çünki təhsil sistemində hüquqi maarifləndirmə, məktəb və universitet proqramlarına hüquq və konstitusiya ilə bağlı praktik dərslər, müzakirələrin daxil edilməsi mütləq nəzərə alınmalıdır. Gənclər təşkilatları dövlət qurumları ilə birlikdə hüquqla bağlı seminarlar, forum və kampaniyalar keçirməlidirlər. Bundan başqa, media və sosial şəbəkələrdə maarifləndirmə düzgün yöndə qurulmalı, rəqəmsal kontent vasitəsilə gənclərə Konstitusiya və hüquqlar barədə məlumatlar ötürülməlidir.

2025-ci il ölkəmizdə həm də "Konstitusiya və Suverenlik İli" kimi qeyd edilir. Suverenlik anlayışı yalnız hüquqi çərçivədə deyil, həm də milli təhlükəsizlik və ərazi bütövlüyü baxımından həyati əhəmiyyət daşıyır. Azərbaycan tarixində suverenliyin ən parlaq və real təsdiqi 2020-ci il Vətən müharibəsi ilə bağlıdır. 44 gün davam edən bu müqəddəs mübarizə nəticəsində ölkəmiz işğal altında olan torpaqlarını azad etdi. Bu yalnız ərazi bütövlüyünün bərpası deyildi; eyni zamanda milli suverenliyin konkret məzmunda həyata keçirilməsi idi. Müharibə göstərdi ki, Azərbaycan dövləti yalnız beynəlxalq hüquq normalarına əsaslanmır, eyni zamanda öz gücünə və qərarlılığına arxalanaraq haqqını müdafiə edə bilir. Qələbə suverenliyin siyasi, hüquqi və hərbi ölçülərinin birgə reallaşmasının ən aydın nümunəsi oldu. 2023-cü ildə həyata keçirilmiş antiterror əməliyyatları nəticəsində isə Azərbaycanın konstitusion və hüquqi nizamı bütün ərazilərdə bərpa edildi.

Azərbaycan dövlətçiliyi hər zaman milli iradənin, müstəqillik uğrunda mübarizənin və hüquqi dövlət quruculuğunun simvolu olmuşdur. Müstəqilliyə və hüquqi dövlətçiliyə doğru addımlar bizdə XX əsrin sonlarında başlandı. Ulu Öndər Heydər Əliyev ölkənin gələcək inkişaf yolunu müəyyən edərkən, Konstitusiyanın hazırlanması prosesinə birbaşa rəhbərlik etdi. Onun təşəbbüsü ilə 1995-ci il 12 noyabr tarixində Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Bu sənəd yalnız hüquqi çərçivə yaratmadı, həm də milli dövlətçiliyin möhkəm təməlini qoydu. Ümummilli Lider Heydər Əliyevin diqqət çəkdiyi əsas məsələlərdən biri Azərbaycan Konstitusiyasının milli prinsiplərə əsaslanması oldu.

Xatırladaq ki, 1978-ci ildə qəbul edilmiş Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyası da yalnız sovet dövrünün standart hüquqi aktı deyildi, o, azərbaycançılıq ideyası və milli hüquqi identikliyimizin qorunması baxımından tarixi əhəmiyyətə malik sənəd idi. Bu, ana dili uğrunda mübarizənin və milli kimliyin qorunması baxımından dönüş nöqtəsi oldu. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli kimlik və dövlətçiliyin ayrılmaz hissəsi kimi hüquqi status qazandı.

Həmin tarixi hadisənin əhəmiyyəti ondan ibarət idi ki, 1978-ci il Konstitusiyası Sovet İttifaqında ana dilinə hüquqi status verən azsaylı sənədlərdən biri oldu və bu, sonrakı müstəqil Azərbaycan Respublikasının Konstitusiyasında da dövlət dili barədə maddələrin qəbuluna zəmin yaratdı. Müstəqillik dövründə - 1995-ci ildə qəbul olunmuş yeni Azərbaycan Respublikası Konstitusiyasında da Azərbaycan dili dövlət dili kimi təsbit edildi. Bu yanaşma sonrakı illərdə müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının yaradılmasına birbaşa təsir göstərdi. O da simvolikdir ki, biz məhz bu il Azərbaycan dili ilə bağlı daha çox müzakirələr apardıq, daha dərin müstəvilərə endik. Bu işdə cənab İlham Əliyevin noyabrın 3-də AMEA-da alimlərə etdiyi çağırışın böyük rolu oldu. Bu çağırış Ana dilinə həssaslığı artırmağa xidmət edəcək, onun saflığının keşiyində daha əmin, arxayın dayanacağıq. Dilə qarşı müdaxilədə daha mühafizəkar olmaq lazımdır. Sistemli tədqiqatların aparılması da davam etdirilməlidir. Bu, onsuz da Azərbaycan alimləri tərəfindən daim aparılıb. Eyni zamanda şair və yazıçıların mətnlərində Azərbaycan dilinin incəlikləri qorunub. İndi buna daha konseptual yanaşılmalıdır. Çünki Prezident İlham Əliyevin çıxışı dillə bağlı yaxşı bir məfkurə dalğası yaradır. Bir daha sübut edir ki, dil həm bir xalqın kimliyinin qoruyucusu, həm də cəmiyyətin formalaşmasının əsas dayağıdır. Onun qorunması və inkişafı yalnız elm və təhsil sahəsi üçün deyil, milli birliyin və dövlətin davamlılığı üçün strateji məsələdir.

2025-ci il ərzində həyata keçirilmiş tədbirlər, "Konstitusiya və Suverenlik İli" çərçivəsində genişmiqyaslı proqramlar, forumlar, elmi konfranslar, təlimlər və gənclər layihələri, həmçinin milli mədəniyyət və təhsil sahələrində təşəbbüslər Azərbaycan dövlətçiliyinin dayanıqlılığını daha da gücləndirdi. Bu il dövlətçilik tarixində postmünaqişə dövrünün daha sistemli və məqsədyönlü mərhələyə keçidi ilə seçildi. Ölkə daxilində siyasi sabitliyin qorunması, sosial-iqtisadi inkişaf strategiyalarının yenilənməsi və idarəetmədə institusional yanaşmaların gücləndirilməsi əsas prioritetlər sırasında yer aldı. Bu, hər şeydən əvvəl 2025-ci ilin Azərbaycanda "Konstitusiya və Suverenlik İli" elan edilməsi ilə bağlı amildir. Məhz bu ildə biz milli yaddaşın qorunması istiqamətində daha sistemli fəaliyyət göstərdik, gələcək strateji qərarların dəyərləndirilməsi üçün çoxyönlü müzakirələr apardıq.

Cari ildə Azərbaycanın həm daxili siyasi gündəmi, həm də beynəlxalq mövqeyi baxımından əsas hadisəsi avqustun 8-də Prezident İlham Əliyevin ABŞ-də Prezident Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirdiyi görüş və bunun nəticəsi kimi təqdim olunan sülh sazişinin paraflanmasıdır. Bu görüş təkcə üç lider arasında diplomatik təmas kimi yox, daha geniş mənada qlobal siyasi balanslara toxunan bir jest kimi yadda qaldı. Azərbaycan uzun müddətdir yalnız regionun deyil, daha geniş coğrafiyanın oyunçusu olmaq iddiasını ortaya qoyurdu və bu görüş həmin iddianın rəmzi təsdiqi kimi qəbul edildi. Qlobal güc mərkəzləri ilə birbaşa dialoq, Azərbaycanın enerji, təhlükəsizlik və nəqliyyat baxımından artan rolunu beynəlxalq auditoriyaya bir daha göstərdi və ölkəmizin adının dünya siyasətinin əsas müzakirə mövzuları sırasında çəkilməsinə səbəb oldu.




İlin "qaynar" məzmunu bununla da bitmir.

Noyabrın 8-də Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad isə ilin siyasi və rəmzi kulminasiya nöqtələrindən biri oldu. Paradda Pakistan və Türkiyə prezidentlərinin iştirakı təkcə qardaşlıq jesti deyil, Azərbaycanın formalaşdırdığı yeni geosiyasi xəttin açıq nümayişi kimi dəyərləndirildi. Xüsusilə, Türkiyənin və Pakistanın bu səviyyədə təmsil olunması, Azərbaycanın hərbi-siyasi müttəfiqlik modelinin regionla məhdudlaşmadığını, daha geniş strateji platformaya çevrildiyini göstərdi. Parad həm daxili auditoriya üçün güc və birlik mesajı verdi, həm də xarici dünyaya Azərbaycanın arxasında dayanan real siyasi və hərbi tərəfdaşların mövcudluğunu nümayiş etdirdi.

Bu ilin mötəbər prosesləri içində reallaşan daha mühüm hadisəni də qeyd etmək lazımdır. Qəbələ şəhərində keçirilmiş Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü və bu görüş çərçivəsində qəbul edilən ən önəmli qərarlardan biri olan Türk Dövlətləri Təşkilatı Plus formatının təsis edilməsi təşkilatın fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu və Cənubi Qafqazla Mərkəzi Asiya arasında strateji tərəfdaşlığın daha da dərinləşməsinə xidmət etdiyini göstərir. Daha geniş miqyasda bu format Avrasiya məkanında, xüsusilə türk dünyasında inteqrasiya proseslərini sürətləndirə biləcək tarixi addım kimi qiymətləndirilir. Elə bu görüşdən az sonra, oktyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev respublikamızın fikir həyatında mühüm tarixi hadisəyə şahidlik edən tarixi bir sərəncam imzaladı. 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultayın yüz illiyi qeyd olunacaq. Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasından sonra yüzillik yubileyin keçirilməsinin xüsusi önəmi vardır. Siyasi-ideoloji baxımdan da bu çox əhəmiyyətlidir. Bakı yenidən həm türkoloji mərkəz kimi, həm də türk dövlətlərinin fikir mərkəzi kimi dünyanın diqqət mərkəzinə gəlir. "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir!" Bu sözləri Prezident İlham Əliyev ötən il fevralın 14-də keçirilən andiçmə mərasimindəki çıxışında səsləndirmişdir. Azərbaycanın yürütdüyü siyasətin bunu aydın göstərdiyini vurğulayan dövlət başçısı həmçinin qeyd etmişdir: "Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır!"

İnanırıq ki, milli varlığımızın qorunmasında, milli kimliyimizin təsdiqində mühüm hadisə olan I Türkoloji Qurultayın yüz illiyi türk xalqlarının mədəniyyət və elm bayramı kimi qeyd olunmaqla, növbəti dəfə yüksəlişə imzasını atacaq, sözün həqiqi mənasında, türk dünyası üçün hadisəyə çevriləcəkdir!

"Konstitusiya və Suverenlik İli"ndə tarixi-milli yaddaşımızın və irsimizin qorunması istiqamətində bir sıra mühüm addımlar atıldı. Qərbi Azərbaycan torpaqlarına qayıdışla bağlı görülən işləri də eyni kontekst daxilində təhlilə cəlb etmək olar. Bu məsələni dövlət başçısı İlham Əliyev demək olar ki, son beş il ərzində səslənən əksər çıxışlarında ana xətt olaraq önə çəkib. Elə bu ilin noyabrın 3-də AMEA-nın yubiley nitqində səsləndirdiyi fikirlərdə də Prezidentin eyni mərama köklənməsi sübut edir ki, proses davam edir: "...azərbaycanlıların indiki Ermənistana qayıtması Ermənistan xalqını və dövlətini qorxutmamalıdır. Mən bunu artıq bir müddət bundan əvvəl demişəm. Biz öz tarixi torpaqlarımıza qayıtmalıyıq, tanklarla yox, avtomobillərlə qayıtmalıyıq. Bunu etmək üçün, əlbəttə ki, əsas vəzifə dövlətin üzərinə düşür. İctimai təşkilatlar və eyni zamanda Azərbaycan alimləri, mən bilirəm və izləyirəm ki, bu istiqamətdə bir çox elmi əsərlər yaradıb. Onların sayı daha çox olmalıdır. Həm elmi əsərlər, sərgilər, təqdimatlar, tarixi xəritələrin dərc edilməsi. Təkcə XX əsrin əvvəllərində çar Rusiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir hər kəs görsün ki, indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. O xəritələrdə Sevan gölü adlı göl yoxdur. O xəritələrdə Göyçə gölüdür və bütün digər bizim istifadə etdiyimiz tarixi toponimlərimiz orada öz əksini tapıb. O xəritələri biz tərtib etməmişik ki, kimsə desin biz burada saxtakarlıq eləyirik. Bunu çar Rusiyası edib".

2025-ci il dekabrın 5-də Prezident İlham Əliyevin "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda III beynəlxalq konfransın iştirakçılarına müraciəti də Azərbaycan İcmasının öz ata-baba yurdlarına qayıdacağına inamın növbəti bəyanı kimi səsləndi: "2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın bir araya gəlməsi, Birgə Bəyannamənin imzalanması və sülh sazişi layihəsinin paraflanması hər iki xalqın gələcək birgəyaşayışının təmin olunması üçün ümid və inam yaradır. İnanırıq ki, Qərbi Azərbaycan İcmasının sülhsevər üzvləri öz ata-baba yurdlarına qayıdacaq və xalqlarımız arasında mehriban qonşuluq münasibətləri yaranacaqdır".

Prezident İlham Əliyevin Qərbi Azərbaycan məsələsi, bu tarixi torpaqlara qayıdış konsepsiyası ilə müəyyən çağırışlar səsləndirməsinin əsasında yeni milli təfəkkürün, təzələnən diskursun və məfkurə dalğasının düşüncədə və əməldə ifadəsini görmək istəyi dayanır. Çünki mədəni irsin qorunması hər zaman ideoloji işin əsas tərkib hissəsi sayılıb. Hər bir tarixi hadisə ideoloji və siyasi fakt olaraq yalnız tarixi şəraitin məhsulu olmayıb, həmçinin milli siyasi, ədəbi və fəlsəfi düşüncənin nəticəsi olaraq meydana çıxıb. Məsələn, milli mənlik şüurunun yaranmasının aspektləri bədii düşüncəyə söykənib. Bu mənada, Qərbi Azərbaycana qayıdışla bağlı Prezidentin təşviq etdiyi işlər sadalanacaq faktların bir kontekst daxilində araşdırılması üçün metodoloji zəmin rolunu oynaya bilər: Qərbi Azərbaycanın tarixi yolunun öyrənilməsi, yaranmasından işğal dönəminə; qurtuluşdan bərpa dönəminə; deportasiya olunmuş insanların taleyindən - qayıdış təntənəsinə qədər hər bir məqam hərtərəfli tədqiq və ehtiva olunmalıdır.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində reallaşan mədəni-simvolik hadisələr sırasında xüsusi yer tutan başqa bir addımın 2026-cı ildə elan olunacaq Azərbaycan Kitab Mükafatının təsis edilməsi olduğunu deyə bilərik. Bu təşəbbüs ədəbiyyatçılar üçün təkcə maddi stimullaşdırma deyil, həm də peşəkar tanınma və dövlət səviyyəsində diqqətin göstəricisi kimi mühüm əhəmiyyət daşıyır. Uzun illərdir ki, yazıçı və şairlərin əməyinin sistemli şəkildə qiymətləndirilməsi məsələsi müzakirə olunur və bu mükafat həmin boşluğu doldura biləcək institusional mexanizm kimi görünür. Şərtlərə görə, müsabiqəyə son illərdə nəşr olunmuş bədii və publisistik əsərlər təqdim ediləcək, qiymətləndirmə müstəqil münsiflər heyəti tərəfindən aparılacaq və qaliblər şəffaf meyarlar əsasında seçiləcək. Önəmli olan həm də budur ki, mükafatın hədəfi yalnız ölkə daxilində dəyərləndirmə ilə bitmir, qalib olan müəllifin ən son halda dünyada tanıdılması kimi perspektiv imkanı çevrələyir ki, biz daim elə bu məqama israrlı olmuşuq.

Bu gün Cənubi Qafqazın dünya siyasi arxitekturasındakı yeri və rolu daha aydın şəkildə müəyyənləşməyə başlayır. Azərbaycan isə bu prosesdə regionun lider dövləti, aparıcı və təşəbbüskar subyekti kimi çıxış edir. Artıq başa çatmaqda olan "Konstitusiya və Suverenlik İli"nin bizə qatdığı ən mühüm çalar da budur: ölkəmizin çoxvektorlu xarici siyasətinin regional əməkdaşlıq imkanlarını genişləndirməsi, tarixi-milli yaddaşa qayıdış və imzalar içinə imzamızı qatmağın həzzini yaşamaq qüruru!

***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***YAP İdarə Heyətinin üzvü,***
***filologiya elmləri doktoru***

# Avropa İttifaqı "dəyərlərin tənəzzülü" prosesində boğulur

## Avropa Parlamentində Azərbaycanla bağlı keçirilən dinləmə və qəbul edilən qətnamə ölkəmizə qarşı qərəzli münasibətin tərkib hissəsidir



**İslamofob və türkofob mövqeyi ilə tanınan Avropa Parlamentində Azərbaycanla bağlı keçirilən dinləmə və qəbul edilən qətnamə ölkəmizə qarşı qərəzli münasibətin tərkib hissəsidir. Bu Azərbaycanın təşəbbüskarı olduğu və beynəlxalq birliyin də təqdir etdiyi sülh gündəliyinə müdaxilə etmək və Azərbaycanla Ermənistan arasında irəlilədilən sülh prosesinə zərbə vurmaq niyyətidir. Odur ki, Avropa Parlamentinin hansısa qətnaməsi Azərbaycan üçün hüquqi məcburi qüvvəyə malik deyil.**

Məsələ ilə bağlı "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü, siyasi elmlər doktoru Rizvan Nəbiyev bildirib ki, Azərbaycan Ermənistanın 30 illik işğalına son qoymaqla regionda yeni siyasi reallıq yaradıb: "Bu siyasi reallıq beynəlxalq hüquqa əsaslanır və Cənubi Qafqazın sərhədlərini aşan regionlar üçün də yeni əməkdaşlıq imkanları təklif edir. Avropa İttifaqı kimi bir təsisatın münaqişə dönəmindəki narrativlərindən əl çəkməməsi, qərəzli davranışı qəbuledilməzdir. Avropa İttifaqı yeni siyasi reallıqlara uyğun əməkdaşlıqda yer almaq və malik olduğu resurslarla sülh gündəliyini dəstəkləmək əvəzinə, köhnə narrativləri yeni siyasi reallıqlara adaptasiya edir və həmin səhv narrativlər üzərindən Ermənistana səhv istiqamətdə dəstək verir".

Avropa İttifaqının Ermənistanla dekabr ayının əvvəlində imzaladığı "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənədə diqqət çəkən Rizvan Nəbiyev qeyd edib ki, Brüssel açıq formada bu ölkədə insan haqlarının pozulmasına göz yumur: "Əksinə, Ermənistan hökumətinə davamlı dəstək ifadə olunur. Hətta Azərbaycana qarşı Ermənistan tərəfindən və Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində yaratdığı marionet rejim tərəfindən törədilən müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərinə görə Bakıda məhkəməsi gedən şəxslərin Avropa İttifaqı tərəfindən dəstəkləndiyini görürük. Bu şəxslərin azad olunmasını öz prioriteti elan etməsi Avropa İttifaqının dəyərləri, insan hüquqlarını siyasi məqsədlər üçün alətinə çevirmək cəhdi deyilmi? Onlardan biri, Ukraynaya qarşı müharibəni maliyyələşdirən R.Vardanyanın indi "müharibə əsiri" kimi təqdim edilməsi və azad olunmasının tələbi insan hüquqlarına həqarət deyilmi?

"Avropa Sülhü Fondu" adlandırılan mexanizm bu günlərdə militarist məqsədlər üçün yenidən işə salındı, onun vasitəsilə Ermənistanın hərbləşdirilməsi məqsədilə 20 milyon avro ayrılacağı bəyan edildi. Ermənistanın Avropa İttifaqının Rusiya-Ukrayna müharibəsi səbəbindən tətbiq etdiyi sanksiyalardan yayınmasına göz yumulur. Məhz Ermənistan sanksiya altına düşən Avropa mallarının Rusiyaya daşınmasında vacib bir funksiyanı icra edir. Hansı ki, Avropa İttifaqı Azərbaycanın 5 gəmisinə sanksiya tətbiq edir.

Rizvan Nəbiyev qeyd edib ki, təkcə Cənub Qafqazda deyil, Avropa İttifaqının Mərkəzi Asiya və Çinlə ticarət münasibətlərində də Azərbaycanın malik olduğu coğrafi-siyasi mövqe, eləcə də yaratdığı infrastruktur və resurslar həlledicidir: "Bütün bunları nəzərə almamaq və regionda köhnə narrativlərin modifikasiya olunmuş formaları ilə təzyiq göstərmək uğur gətirməyəcək. Biz Avropa İttifaqının Rusiya-Ukrayna münaqişəsinin həllində əsaslandığı, təmin edilməsində təkid etdiyi beynəlxalq hüququn prinsiplərinə Ermənistan-Azərbaycan normallaşma prosesində fərqli, qərəzli mövqe görürük. Bu ikili standartı necə başa düşmək olar? Avropa İttifaqının xarici siyasəti əsasən aparıcı üzv dövlətlərin paytaxtlarında formalaşdırılır. Yoxsa Paris və Brüssel Vaşinqtonun da qoşulduğu və dəstəklədiyi normallaşma prosesinə gizli, alternativ gündəm hazırlayır?

Əgər belə olmasaydı, Brüsselin regionun iqtisadi, ticari və nəqliyyat-logistika sahəsində inkişafının və Zəngəzur dəhlizinin (TRIPP) dəstəklənməsinə şahid ola bilərdik. Tam əksinə, Avropa İttifaqının Ermənistanla imzaladığı "Strateji gündəlik" regionun reallıqlarını təhrif edir, sülhə xidmət etməyən məsələlərə dəstək verilməsini prioritetləşdirir. ABŞ-nin cari ilin noyabr ayında qəbul etdiyi Milli Təhlükəsizlik Strategiyasında göstərildiyi kimi, Avropa İttifaqı "dəyərlərin tənəzzülü" prosesində boğulur. Bu təsisat ikili standartlardan əl çəkmir, Azərbaycana qarşı sistemli və qərəzli siyasət yürütməkdə davam edir. Bu isə təbii ki, Brüssel-Bakı münasibətlərinə zərbə vurur.

Rizvan Nəbiyevin sözlərinə görə, bütün bunlar Avropa İttifaqının regionda sülh, normallaşma və etimad quruculuğu prosesləri ilə bağlı, həm də dəyərlərə münasibətdə nə qədər qərəzli siyasət yürütdüyünü, ikili standartdlardan əl çəkmək istəmədiyini bir daha göstərir. "Deməli, Avropa İttifaqı daxilində müəyyən qüvvələr, o cümlədən psevdo-liberallar regionda yaranan sülh prosesinə xələl gətirmək niyyətləri ilə yenidən fəallaşıblar. Amma bu da uğursuz olacaq. Azərbaycan milli maraqlarını ön planda saxlayan, balanslaşdırılmış, beynəlxalq hüququn prinsiplərinə əsaslanan və sülhə xidmət edən siyasət yürüdür. Azərbaycanın sülh və əməkdaşlıq gündəliyi isə beynəlxalq müstəvidə, iki və çoxtərəfli formatlarda qəbul və təqdir olunur", - deyə deputat bildirib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Aİ-nin Ermənistanla strateji gündəliyi təəssüf doğurur

## Bu onu göstərir ki, Avropa İttifaqı hələ də erməni lobbisinin təzyiqi altındadır

**Avropa İttifaqı və onun tərkibində olan Avropa Parlamentinin erməni lobbisinin təsiri altında fəaliyyət göstərdiyi aşkardır. Uzun illərdir ki, vəziyyət belədir. Sözügedən qurumlar Qarabağ münaqişəsinin davam etdiyi, Azərbaycanın iyirmi faiz ərazisinin Ermənistanın işğalında qaldığı müddətdə də, ilk növbədə, özlərinin əməl etməli olduqları beynəlxalq hüquq çərçivəsini aşmaqdan, nüfuzlarına zərbə vurmaqdan çəkinmədilər.**



Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusuna və mülki əhalisinə qarşı təxribatlara son qoymadıqları həmin illərdə nə Avropa İttifaqı, nə də Avropa Parlamenti bu cinayətkarlığa son qoyulmasına, cinayətkarların cəzalandırılmasına çalışdılar. 2020-ci ilin payızında işğalçı ölkənin silahlı qüvvələrinin növbəti təxribatı ilə başlayan Vətən müharibəsində də bu qurumlar beynəlxalq hüququ, ədaləti dəstəkləmədilər.

Artıq Qarabağ münaqişəsi başa çatıb. Azərbaycan öz gücü ilə Qarabağ və Şərqi Zəngəzur ərazilərini geri qaytarıb, suverenliyinə tam nail olub.

Heç zaman müharibə, münaqişə istəməyən, ən çətin məqamlarında, əraziləri işğalda qalanda da, yalnız sülh mövqeyindən çıxış edən Azərbaycan dövlətinin niyyəti dəyişməzdir. Bunu Vətən müharibəsini böyük Zəfərlə başa vurduqdan sonra da nümayiş etdirdi. Ermənistanla sülh sazişinin imzalanmasının təşəbbüskarı da ölkəmiz oldu.

Son dövrdə Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması istiqamətində məqsədyönlü, qətiyyətli addımlar atılıb. Və şübhə yoxdur ki, bu sülh bütövlükdə Cənubi Qafqaz regionuna sabitlik, rifah gətirəcək.

Məqsədi sülhün bərqərar edilməsi olanların belə bir vaxtda atdıqları bütün addımlar, verdikləri qərarlar, imzaladıqları sənədlər yalnız bu amala xidmət etməlidir. Odur ki, dekabrın 2-də Brüssel şəhərində keçirilmiş Avropa İttifaqı (Aİ) və Ermənistan arasında Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəd təəssüf doğurmaqla yanaşı, çox ciddi mətləblərdən xəbər verir.

Azərbaycan Xarici İşlər Nazirliyindən diqqətə çatdırılıb ki, sözügedən sənəddə postmünaqişə dövründə reallıqları təhrif edən və bütövlükdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinə zidd olan bir sıra məsələlərin prioritetləşdirilməsi ciddi narahatlıq doğurur.

"Növbəti 7 il müddətində Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən bu ikitərəfli sənəddə Azərbaycanı hədəf alan məsələlərə yer ayrılması qəbuledilməzdir və bu, eyni zamanda Azərbaycan-Avropa İttifaqı münasibətlərinin perspektivlərinə mənfi təsir edir", - Azərbaycan Xarici İşlər Nazirliyinin Avropa İttifaqı və Ermənistan arasında imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" sənədinə dair şərhində yer alıb. Bildirilib ki, sənədin giriş hissəsində və bir sıra digər bölmələrində, Azərbaycan tərəfindən təqdim edilmiş reinteqrasiya planından imtina etdikdən sonra ölkəmizdən könüllü şəkildə Ermənistana miqrasiya etmiş erməni sakinlərə istinadən "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsinin işlədilməsi və bu məsələnin Aİ və Ermənistan arasında tərəfdaşlıq prioriteti kimi müəyyən edilməsi, eləcə də bu kateqoriya insanların "qaçqın" statusunda qeyd edilməsi Azərbaycana qarşı qərəzin açıq-aydın nümunəsidir: "Həmçinin sənədin regionda normallaşma proseslərinə Aİ-nin mümkün töhfələri bölməsində Beynəlxalq Ədalət Məhkəməsinin bütün müvafiq qərarlarının tam, dərhal və effektiv həyata keçirilməsinin dəstəklənməsi birmənalı olaraq, Ermənistan tərəfindən Azərbaycana qarşı irəli sürülmüş məlum iddiaları nəzərdə tutur".

Nazirliyin şərhində Azərbaycanla Ermənistana birbaşa aid olan və sırf ikitərəfli xarakter daşıyan bir məsələnin üçüncü tərəflə gündəmə gətirilməsinin tamamilə məntiqsiz olması ilə yanaşı, belə bir yanaşmanın Azərbaycanın da Ermənistan əleyhinə öz legitim məhkəmə iddialarının mövcudluğunu nəzərə almadığı diqqətə çatdırılıb.

Azərbaycan və Ermənistan bu il avqustun 8-də Vaşinqtonda Birgə Bəyannamə imzalayıb, üzərlərinə öhdəliklər götürüblər. Xarici İşlər Nazirliyinin sözügedən şərhində vurğulanıb ki, Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda paraflanmış sülh sazişində bu iddiaların aradan qaldırılmasına dair müddəa nəzərə alındıqda, Aİ-Ermənistan sənədində həmin məsələyə toxunulması sülh prosesi ilə birbaşa ziddiyyət təşkil edir və Ermənistan tərəfinin bəyan etdiyi niyyətilə bağlı ciddi suallar yaradır.

Sənəddə insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlərdə ittiham olunan və məhkum edilmiş erməniəsilli şəxslərin "əsir" statusunda qeyd edilməsi və onların azadlığa buraxılmasının ayrıca prioritet kimi müəyyən edilməsi təbii ki, Azərbaycan Xarici İşlər Nazirliyinin etirazına səbəb olub. Bu, reallıqların ciddi şəkildə təhrif edilməsidir və qəbuledilməzdir.

"Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" sənədində Ermənistanın regional konsensusdan məhrum olan "sülh kəsişməsi" təşəbbüsünü dəstəkləyən çoxsaylı müddəaları əks olunduğu halda, 8 avqust Vaşinqton sammiti zamanı normallaşma prosesi çərçivəsində əldə edilmiş və mühüm əhəmiyyət kəsb edən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinə bir dəfə belə istinad olunmayıb. Narahatlıq doğuran bu halın Ermənistanın Vaşinqtonda imzalanmış TRIPP sazişi çərçivəsində öhdəlikləri icra etmək niyyətinin ciddiliyi və Aİ-nin bu layihəyə bəyan etdiyi dəstəyi barədə suallar yaratdığı Xarici İşlər Nazirliyinin şərhində qeyd olunub. Azərbaycan Xarici İşlər Nazirliyi açıq şəkildə bəyan edib ki, Azərbaycanla Ermənistan arasında paraflanmış saziş layihəsinin 7-ci maddəsində tərəflərin qarşılıqlı sərhəddə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməməklə bağlı öhdəlik nəzərə alındıqda, Azərbaycana qarşı təbliğat vasitəsi kimi istifadə olunan Aİ-nin Ermənistandakı Müşahidə Missiyasının (EUMA) fəaliyyətinə xitam vermək əvəzinə, EUMA-nın mövcudluğunun qorunmasının və missiyanın tam operativliyinin təmin olunmasının prioritetləşdirilməsi digər narahatlıq mənbəyidir.

Ciddi narahatlıq yaradan səbəblərdən biri də Aİ-Ermənistan sənədində prioritetlər sırasında hərbi və müdafiə məsələlərinin vurğulanmasının Ermənistanın hərbiləşməsinə xidmət etməsidir.

Azərbaycan Xarici İşlər Nazirliyi açıq şəkildə bidirilib ki, yuxarıda qeyd olunan məsələlər 8 avqust tarixindən etibarən postmünaqişə dövründə əldə edilmiş müsbət irəliləyişlər fonunda keçmiş münaqişənin elementlərini yenidən gündəmə gətirir və Ermənistanın niyyətləri barədə ciddi şübhələr yaradır: "Ermənistan və Aİ-nin mövcud reallıqları əks etdirməyən bu zərərli müddəaların aradan qaldırılması istiqamətində konkret addımlar atacağını gözləyirik. Öz növbəmizdə, vəziyyəti diqqətlə izləməyə davam edəcək və zəruri nəticələr çıxaracağıq".

Azərbaycanın mövqeyi, niyyəti hər zamankı kimi aydın və qətiyyətlidir. Biz müharibə istəmirik, sülhə hazırıq. Bu yolla da gedirik. Lakin rəsmi İrəvan mövqeyini dəyişərsə, yenidən onu silahlandırmaqla, təxribatlara çəkməklə sülhdən yayındırmağa cəhd edənlərin qurduqları tələyə düşərsə, bunun ən böyük zərəri Ermənistana və erməni xalqına dəyəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycan sülh və humanizm siyasətini növbəti dəfə nümayiş etdirdi

**"...Azərbaycan Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranziti məhdudiyyətlərini aradan qaldırıb. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Zənnimcə, bu həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisidir".**

Cari il oktyabrın 21-də Qazaxıstanda mətbuata bəyanatında Prezident İlham Əliyevin bəyan etdiyi kimi, ölkəmizin Ermənistana tranzit məhdudiyyətlərini aradan qaldırması rəsmi Bakının sülh gündəliyinə sadiqliyini bir daha təsdiqləyir.

Onilliklər boyu yürütdüyü işğalçılıq siyasəti sayəsində özünü dalan ölkəyə çevirən Ermənistan məhz ölkəmizin humanist və barışı özündə ehtiva edən siyasəti sayəsində düşdüyü bu ağır vəziyyətdən çıxmağa başlayıb.

### Barış istiqamətində praktiki addımlar atılır

Azərbaycanın tranzit yük daşımalarına qoyduğu məhdudiyyətləri aradan qaldırması sayəsində Qazaxıstan və Rusiyadan Ermənistana qatar vasitəsilə artıq bir neçə dəfə taxıl ixracı edilib. Dekabrın 19-da isə Azərbaycandan Ermənistana neft məhsullarının tədarükünə başlanılıb. Yəni obrazlı şəkildə ifadə etsək, indi Ermənistana və ermənilərə insan yaşamı üçün vacib əhəmiyyət daşıyan çörək də, enerji məhsulları da Azərbaycandan gedir. Bu addımı həm də Azərbaycanın humanizm və sülh dəyərlərinə verdiyi qiyməti göstərir.

Ərazi bütövlüyünü və suverenliyini öz gücünə tam təmin edən və hərtərəfli şəkildə sürətlə inkişaf edən respublikamızın qısa vaxt kəsimində işğaldan azad olunmuş ərazilərdə gördüyü işlər, Böyük qayıdış proqramının uğurla həyata keçirilməsinin özü də düzgün müəyyənləşdirilən dövlət strategiyasının nəticəsidir.

Eyni zamanda Azərbaycan bölgədə normallaşmanın, inkişafın və əməkdaşlığın mövcud olması üçün postmünaqişə dövründə də daim sülhü təşviq edir və bu istiqamətdə əməli addımlar atır.

Bu il 8 avqustda keçirilən Vaşinqton görüşündə bölgədə davamlı normallaşmanın təməlləri atılıb, əldə edilən mühüm razılaşmalar regiona uzunmüddətli inkişaf üçün yeni imkanlar açıb.

Onu da vurğulayaq ki, regionda davamlı sülhün əldə olunması üçün proseslər sadəcə siyasi aspektdə deyil, barışın əsas şərtlərindən olan qarşılıqlı etimad quruculuğu istiqamətində də gedir. Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətləri nümayəndələri heç bir vasitəçi olmadan görüşlər keçirirlər. Bu isə tərəflər arasında qarşılıqlı etimad mühitinin formalaşdırılması baxımından mühüm hadisədir. Bu həm də iki ölkə arasında normallaşma istiqamətində aparılan danışıqların ictimai səviyyədə də dəstəklənməsini ortaya qoyur.

Yuxarıda vurğuladığımız kimi, burada vacib məqamlardan biri də Azərbaycanın Ermənistana işğaldan bəri mövcud olan yüklərin tranzit məhdudiyyətlərini aradan qaldırması ilə bağlıdır.

Belə ki, Pezident İlham Əliyevin qərarı ilə oktyabr ayında Azərbaycandan Ermənistana yüklərin tranziti ilə bağlı mövcud məhdudiyyətlərin aradan qaldırılmasından sonra qonşu ölkəyə yük göndərişi davam edir.

Dekabrın 19-da Azərbaycan Dövlət Neft Şirkəti SOCAR tərəfindən ilk dəfə olaraq yerli mənşəli neft yükünün Ermənistana tədarükü həyata keçirilib.



22 vaqona yüklənmiş 1220 ton Aİ-95 markalı avtomobil yanacağı ADY-nin yük qatarı ilə Böyük Kəsik stansiyasından yola salınıb. Yük oradan Gürcüstan vasitəsilə Ermənistana çatdırılıb.

Qeyd edək ki, bu barədə razılaşma noyabrın 28-də Qəbələ şəhərində Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev ilə Ermənistan Baş nazirinin müavini Mher Qriqoryanın görüşündə əldə olunub.

### İrəvan ona açılan bu iqtisadi-ticari qapını bağlasa...

Azərbaycandan Ermənistana neft yükü tədarükünün həyata keçirilməsi bu il 8 avqust tarixində Vaşinqtonda əldə edilən sülhə dair razılaşmanın praktik şəkildə də təsdiqini tapdığının göstəricisidir. Bu onu göstərir ki, qətiyyət və səyləri ilə Cənubi Qafqazda de-fakto sülhü bərqərar edən Azərbaycan bu müstəvidə atdığı əyani addımlarla prosesə mühüm töhfələr verir və nümunə ortaya qoyur.

Bu məsələ kommersiya maraqlı olsa da, özündə qarşılıqlı etimadı qüvvətləndirən mahiyyət daşıyır və sabitliyə hesablanıb. O da reallıqdır ki, iqtisadi maraqlar ölkələri çox hallarda real münaqişələrdən yayındırır və bu mənada Ermənistanın Azərbaycanın onun üçün açdığı bu iqtisadi-ticari qapını bağlaması ağılsızlıq olar.

Yeri gəlmişkən bildirək ki, Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanda istehsal olunan neft məhsullarının Ermənistana tədarükü ilə bağlı jurnalistlərə açıqlamasında bu hadisəni alqışladığını bildirib. Onun sözlərinə görə, ticarət özəl şirkətlər arasında həyata keçirilir, lakin bunun üçün siyasi şərtlər Azərbaycanla Ermənistan arasında nail olunan sülh sayəsində yaradılıb.

Hazırda bölgədə de-fakto sülh təmin edilib. Tərəflər sülh gündəliyinin irəli aparılması üçün qarşılıqlı addımlar atırlar. Ancaq Cənubi Qafqazda de-yure də sülhün təmin olunması üçün Prezident İlham Əliyevin təbirincə desək, Ermənistanın hələ yerinə yetirəcəyi ev tapşırıqları var. Hazırda müşahidə olunan müsbət yönümlü proseslərin davamlı olub-olmayacağı da İrəvanın sülhə nə dərəcədə sadiqliyindən birbaşa asılıdır. Nədən ki, Ermənistanın son dövrlər sərgilədiyi müəyyən davranışlar bu ölkənin sülh fəaliyyətini sual altında qoyur. Buna dekabrın 2-də Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəd nümunədir. Həmin sənəddə postmünaqişə dövrünün reallıqlarının təhrif edildiyi və burada sülh gündəliyinə zidd olan məsələlərin öz əksini tapdığı açıq şəkildə görünür. Sənədin həm giriş hissəsində, həm də bəzi bölmələrində Qarabağdan könüllü şəkildə Ermənistana miqrasiya edən sakinlərə istinadən "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri ifadəsi işlədilib", insanlıq əleyhinə cinayətlər və hərbi cinayətlər törətməkdə ittiham olunan və məhkum edilmiş erməniəsilli şəxslər "əsir" statusunda qeyd edilib. Bir sözlə, "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinə bir dəfə belə istinad edilməyən həmin sənəd birbaşa ölkəmizi hədəf alıb ki, bu həm Ermənistanın davamlı sülhlə bağlı ikiüzlü siyasətini, həm də Aİ-nin anti-Azərbaycan ritorikasını göstərir.

Ancaq müstəqil siyasət yürüdən Azərbaycan öz yolu ilə davam edir və Ermənistan sülh müqaviləsini imzalamaqdan boyun qaçırsa belə, bu, ona zərrəcə təsir göstərməyəcək. Əksinə, Ermənistan özü yenə də bütün sahələrdə böhran yaşayan təcrid ölkəyə çevriləcək.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# İqtisadi fayda və sülh mesajı

## Azərbaycanın bu jesti qarşılıqlı etimada və regional əməkdaşlığa hazır olduğunu nümayiş etdirir



**Azərbaycan cəmiyyətində illərlə formalaşmış ağrılı yaddaş, işğal və müharibə acıları hələ tam unudulmamış gündəmə bir xəbər hakim oldu - SOCAR ilk dəfə yerli mənşəli neft məhsulunu Ermənistana tədarük edib. 22 vaqona yüklənmiş 1220 ton Aİ-95 markalı avtomobil yanacağının yola salınması eyni zamanda sual doğurdu: bu addım nəyə xidmət edir və kimə nə qazandırır?**

Öncə xatırladaq ki, yanacaq ixracı barədə razılaşma hələ bu il noyabrın 28-də Qəbələdə əldə olunub. Həmin gün baş nazirin müavini Şahin Mustafayev ermənistanlı həmkarı Mher Qriqoryanla görüşmüşdü. Görüşdən iki həftə sonra Mher Qriqoryan "Azadlıq radiosu"nun erməni xidmətinə verdiyi müsahibədə Azərbaycanla enerji sahəsindəki mümkün əməkdaşlıqdan danışaraq bildirmişdi ki, Ermənistana yanacaq idxalı ilə bağlı tərəflər arasında müzakirələr aparılıb. Çünki bu istiqamətdə əməkdaşlıq etmək üçün imkanlar mövcuddur. M.Qriqoryan onu da demişdi ki, məsələ Qəbələdə Şahin Mustafayevlə keçirilən görüşdə müzakirə olunsa da, hələlik konkret razılaşmadan danışmaq tezdir. Çünki yanacağın həcmi və qiyməti, prosesdə iştirak edəcək şirkətlər, həmçinin Rusiyadan idxal olunan yanacaqla rəqabət kimi məsələlər bazar mexanizmləri çərçivəsində özəl ixracatçı və idxalçılar arasında formalaşmalıdır. Və budur, müzakirələrin real nəticəsi olaraq Aİ-95 markalı benzinin ilk partiyası Gürcüstan üzərindən Ermənistana göndərilib.

Bəzən iqtisadi qərarlar təkcə rəqəmlərlə ölçülmür, onların siyasi hədəfi və yükü də olur. Həqiqətən, uzun illər Azərbaycan torpaqlarını zəbt etmiş və minlərlə soydaşımızın həyatına son qoymuş bir ölkəyə enerji resurslarının satılmasına qərar verilməsi asan deyil. O üzdən müharibədən cəmi 5 il sonra bu cür tədarükün reallaşması faktının ictimai rəyin, milli həssaslığın və kollektiv yaddaşın gündəminə gəlməsi təbiidir. Amma Azərbaycan sülh ölkəsidir və regionda barışın əldə olunması üçün üzərinə götürdüyü bütün öhdəliklərə sadiqdir. Bir də bu, bütün münaqişələrin həllində açar olan həm də kommersiya sövdələşməsidir. Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban məsələ ilə bağlı fikirlərini belə bölüşüb: "Bu ticari əməliyyatın kommersiya xarakteri daşıması mühüm əhəmiyyətə malikdir, yəni tərəflər arasında alqı-satqı müqaviləsi çərçivəsində həyata keçirilir. Bu, təkcə iki ölkə arasında neft məhsullarının ticarəti ilə məhdudlaşmır. Çünki prosesə artıq həm də nəqliyyat sektoru və maliyyə qurumları cəlb olunur (hətta üçüncü tərəfin iştirakı ilə olsa belə). Çünki burada satılan yanacağın pulunun ödənilməsi var. Mən bunu, həmçinin Ermənistanın neft məhsulları bazarında yeni tədarük mənbəyinin açılması, onun idxalının şaxələndirilməsi yolunda atılmış bir addım kimi də qiymətləndirirəm. Bir məsələni də qeyd edim ki, postsovet dönəmində Ermənistanın neft məhsulları və ümumiyyətlə, enerji bazarında Rusiya böyük çəkiyə sahib olub və qalmaqdadır. Bu kontekstdə Azərbaycandan neft məhsullarının gələcəkdə davamlı idxalı hesabına Ermənistanın yanacaq bazarında rəqabətin artımı əldə edilə bilər".

Bununla belə, Azərbaycandan Ermənistana neft yükü tədarükünün həyata keçirilməsi, ilk növbədə, rəsmi Bakı və İrəvanın Vaşinqtonda sülhə dair əldə edilmiş razılığını təsdiqləyən əməli addımdır. Bu tədarük iqtisadi əməkdaşlıq nümunəsi olmaqla yanaşı, siyasi mesajdır və bununla tərəflər münasibətlərin normallaşması istiqamətində real addımlar atmağa hazır olduqlarını nümayiş etdirirlər. Enerji sahəsində əməkdaşlıq isə ən həssas və strateji sahələrdən sayılır. Məhz bu baxımdan neft məhsulunun Ermənistana tədarükünü sülh gündəliyinin kağız üzərində qalmadığını, real iqtisadi müstəviyə keçdiyini göstərən addım kimi dəyərləndirmək lazımdır.

Lakin burada mühüm bir məqam da unudulmamalıdır: sülh prosesinin uğuru qarşılıqlı addımların balansı ilə ölçülür. Azərbaycanın bu jesti Ermənistanın konkret siyasi iradəsi, konstruktiv mövqeyi və revanşist ritorikadan imtinası ilə müşayiət olunmalıdır. Əks halda iqtisadi əməkdaşlıq sülhə xidmət deyil, birtərəfli güzəşt təsiri bağışlaya bilər. Üstəlik, bu addım həm də beynəlxalq vasitəçilərə ünvanlanmış mesajdır. Rəsmi Bakı göstərir ki, o, regionda sabitlik və əməkdaşlıq üçün yalnız bəyanatlarla kifayətlənmir, real addımlar atır, sülh prosesində təşəbbüskar və məsuliyyətli tərəf olduğunu nümayiş etdirir. Başqa sözlə, bugünkü neft tədarükü həm sülhün əldə edilməsi baxımından test mərhələsi, həm də Ermənistan üçün siyasi seçim anıdır. Bu yol ya davamlı sülhə aparacaq, ya da etimadın növbəti dəfə sınağa çəkildiyi bir mərhələ kimi tarixə düşəcək. Sözsüz ki, Azərbaycan birinci varianta daha çox ümid edir, baxmayaraq ki, Ermənistan hələ də sülh prosesində qeyri-müəyyən mövqe tutur, ölkədə revanşist çağırışlar səngimir, hakimiyyət-kilsə qarşıdurması kəskinləşir.

Amma bütün hallarda kommersiya kommersiyadır və o, sərhəd tanımır. Bu baxımdan, Ermənistan bazarı böyük olmasa da, Azərbaycan üçün yeni ixrac istiqamətidir. SOCAR və digər istehsalçılar üçün bu, əlavə satış, logistika imkanlarının genişlənməsi və regiondaxili ticarətin canlanması deməkdir. Üstəlik, sözügedən yanacaq ixracı Ermənistanın enerji asılılığının qismən şaxələnməsinə gətirib çıxarır ki, bu da regiondakı qüvvələr balansında Bakının rolunu gücləndirir. Azərbaycan tədricən təkcə enerji istehsalçısı deyil, həm də regional enerji oyunçusu kimi mövqeyini möhkəmləndirir.

Soyuq bir qış günündə Azərbaycanın bu jesti iqtisadi fayda və sülh mesajı olaraq qarşılıqlı etimadın və regional əməkdaşlığın möhkəmlənməsinə xidmət edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# İqtisadiyyat və sosial həyat



# Naxçıvan "yaşıl gələcək" qurur

**Naxçıvan Muxtar Respublikası bərpaolunan enerji mənbələri ilə də Azərbaycanın zəngin regionlarındandır. Son illər burada günəş, külək və su enerjisindən səmərəli istifadə etmək istiqamətində mühüm addımlar atılır. Regionun enerji təhlükəsizliyinin gücləndirilməsi, ekoloji yükün azaldılması və dayanıqlı inkişafın təmin edilməsi Naxçıvanı ölkənin "yaşıl enerji" mərkəzlərindən birinə çevirməkdədir.**

Naxçıvanda "yaşıl enerji" layihələrinin genişləndirilməsi iqtisadi inkişaf və ekoloji tarazlıq baxımından xüsusi əhəmiyyət daşıyır. Günəşli günlərin bolluğu, dağların qoynunda əsən küləklər və təbii su ehtiyatları regionda bərpaolunan enerjinin inkişafına zəmin yaradır. Artıq Naxçıvanda qurulan günəş panelləri, kiçik su-elektrik stansiyaları və alternativ enerji layihələri təkcə regionun deyil, bütün Azərbaycanın enerji xəritəsinə yeni rəng qatır. Naxçıvan öz enerjisini təbiətin özündən alaraq inkişafını sürətləndirir və gələcək nəsillər üçün daha bir "yaşıl dünya" vəd edir. Çünki günəş burada sadəcə bir iqlim amili olmaqdan çox, inkişafın mühərrikidir. Səhərlərin şəffaf işığı şəhərin üstündə ucalan panellərə səpələnir, günorta çağı isə sanki Naxçıvanın hər bucağı enerjiyə çevrilən bir işıq dənizinə dönür.

Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzurla yanaşı, Naxçıvanı da "yaşıl enerji" zonası elan etməsi muxtar respublikanın mövcud enerji potensialının nə qədər böyük və strateji əhəmiyyətə malik olduğunun aydın göstəricisidir. Bu qərar Naxçıvanın gələcək inkişaf modelinin əsas konturlarını müəyyənləşdirməklə yanaşı, regionun bərpaolunan enerji mənbələri ilə bağlı geniş imkanlarını da üzə çıxarır. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin Mətbuat xidmətinin rəhbəri Kamal Hacıyev deyir ki, bərpaolunan enerjinin Naxçıvanda inkişaf prosesi dövlət başçısının "yaşıl enerji" zonası ilə bağlı strateji baxışına uyğun şəkildə həyata keçirilir. Bu məqsədlə Naxçıvanın davamlı sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsi kimi "Yaşıl enerji zonası" Konsepsiyası və onun icrasını təmin edən tədbirlər planı hazırlanıb. Konsepsiya Naxçıvanda bərpaolunan enerji mənbələrindən istifadənin genişləndirilməsini, enerji müstəqilliyinin və dayanıqlı inkişafın təmin olunmasını, müasir şəbəkə infrastrukturunun qurulmasını, enerji ixrac imkanlarının artırılmasını və karbon emissiyalarının əhəmiyyətli dərəcədə azaldılmasını hədəfləyir: "Qeyd etmək lazımdır ki, Naxçıvanın "yaşıl enerji" zonası kimi inkişafı təkcə energetika sahəsində deyil, regionun ümumi sosial-iqtisadi həyatında da yeni imkanlar açır. Bu proses innovativ həllərin tətbiqini, resurslardan səmərəli istifadənin genişlənməsini və uzunmüddətli dayanıqlı inkişafın təmin edilməsini hədəfləyir. Qarşıdakı dövrdə həyata keçiriləcək addımlar Naxçıvanın ölkənin enerji xəritəsində strateji mövqeyini daha da gücləndirəcək və regionun modernləşmə istiqamətində mühüm irəliləyişinə xidmət edəcək".

Həyata keçirilən layihələrin təsiri tədricən regionun ümumi simasında görünməyə başlayır. Muxtar respublika təkcə yeni yollar, modern binalar və abadlaşan şəhər mənzərəsi ilə diqqət çəkmir. Burada daha bir yenilik də var: günəş panellərinin parlaqlığı, dağların qoynunda qurulan alternativ enerji məntəqələri və təbiətlə səsləşən yeni həyat ritmi. Sanki Naxçıvan günəşin gücünü özü üçün kəşf edib və bu gücü sabaha doğru aparan etibarlı bir körpüyə çevirib. Əsrlərdən bəri sərt iqlimi və çətin relyefi ilə seçilən bu diyar indi bərpaolunan enerjinin ən ideal sınaq meydanına çevrilməkdədir.

Elə buna görə də Naxçıvanda "yaşıl enerji" istiqamətində görülən işlərin müzakirəsi və gələcək perspektivlərin dəyərləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu mənada "Yaşıl enerji zonaları: konseptual yanaşmalar, ilkin nəticələr və çağırışlar" mövzusunda keçirilən tədbirin əhəmiyyəti həm regionun enerji strategiyasının aydınlaşdırılması, həm də gələcək layihələrin istiqamətləndirilməsi baxımından olduqca gərəklidir. Bir neçə gün əvvəl baş tutan həmin tədbirdə vurğulanıb ki, Azərbaycanın uzunmüddətli inkişaf strategiyasında mühüm yer tutan bu sahə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" vasitəsilə konkret məzmun qazanır. Proqram çərçivəsində görülən işlər regionda müasir infrastrukturun formalaşdırılmasına, innovativ yanaşmaların tətbiqinə və dayanıqlı iqtisadi artımın təmininə zəmin yaradır. Dövlət proqramında bərpaolunan enerji mənbələrinin inkişafı və "yaşıl enerji zonası"nın yaradılması regionun strateji inkişaf istiqamətlərindən biri kimi müəyyən edilib. Sənəddə Naxçıvanın günəş, külək və sudan səmərəli istifadənin genişləndirilməsi, enerji istehsalında bərpaolunan mənbələrin payının artırılması nəzərdə tutulub. Enerji təminatının dayanıqlılığının və müstəqilliyinin gücləndirilməsi də əsas hədəf kimi göstərilib. Bununla yanaşı, Dövlət proqramında "yaşıl enerji" layihələrinin regionun sənaye, kənd təsərrüfatı, nəqliyyat və sosial infrastrukturunun inkişafı ilə uzlaşdırılması, həmçinin ekoloji tarazlığın qorunması prioritet vəzifə kimi davamlı inkişafın əsas istiqamətlərindən biri elan olunub. Bu yanaşma Naxçıvanın uzunmüddətli və inklüziv inkişaf modelinin formalaşmasına xidmət edir.

Qeyd etmək lazımdır ki, "Yaşıl enerji zonası" Konsepsiyası geniş və hərtərəflidir: o, 4 əsas sahəni əhatə edir və 12 prioritet istiqaməti müəyyənləşdirir. Bu isə göstərir ki, muxtar respublika Azərbaycanın "yaşıl enerji" modelinin formalaşdırılması istiqamətində ardıcıl və sistemli addımlar atır. Beləliklə, Naxçıvan yalnız enerji istehsalında deyil, həm də ekoloji düşüncənin inkişafında və dayanıqlı gələcəyin qurulmasında liderlik nümunəsi göstərir. Naxçıvan bu gün öz enerji təminatını yaxşılaşdırır və nümunəvi bir model yaradır. Burada həyata keçirilən layihələr insanların təbiətə münasibətini dəyişir, ekoloji mədəniyyəti yüksəldir, cəmiyyətə "yaşıl düşüncə" aşılayır. Uşaqlar məktəbdə günəş panellərinin necə işlədiyini öyrənir, gənclər alternativ enerji texnologiyalarına maraq göstərir, ailələr isə təmiz enerji istifadəsinin həm maddi, həm də ekoloji faydasını hiss edir.

Naxçıvanın "yaşıl enerji" konsepsiyası göstərir ki, inkişaf təbiəti dağıtmaqla deyil, daha çox onunla uzlaşmaqla mümkündür. Bu torpağın günəşi, küləyi və suyu indi gələcəyimizin etibarlı təminatı kimi dəyərləndirilir. Və ən əsası, bütün bu yeniliklər Naxçıvanı gələcəyin "yaşıl şəhər"i kimi formalaşdırır - enerjini təbiətdən alan, ekologiyanı qoruyan, insanların rahat yaşamasına xidmət edən bir model şəklində.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# "Kənddən şəhərə" Yeni il yarmarkası başladı

**Bu gündən etibarən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə sayca 8-ci "Kənddən şəhərə" Yeni il yarmarkası fəaliyyətə başlayıb. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təşkil olunan yarmarka 30 dekabr tarixinədək 10 gün müddətində davam edəcək.**

Yarmarkanın əsas məqsədi kiçik və orta fermer təsərrüfatlarında istehsal olunan məhsulların bazara çıxışını dəstəkləmək, fermerlərə alternativ satış kanalları təqdim etmək və bayram ərəfəsində şəhər sakinlərini yerli, keyfiyyətli və münasib qiymətə məhsullarla təmin etməkdir.

Yarmarkada ölkənin 35 regionundan gələn 80-ə yaxın fermer, təsərrüfatlarında yetişdirdikləri 140-dan artıq məhsul çeşidini satışa çıxarıb. Yarmarkada satışa çıxarılan məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edir. Məhsulların keyfiyyəti ilə bağlı sualı yaranan vətəndaşlar yarmarkada fəaliyyət göstərən Səyyar Qida Laboratoriyasına müraciət edərək məhsuldan analiz verə bilərlər.

Qeyd edək ki, fermerlər yarmarkada satış üçün yer, piştaxta, tərəzi və digər lazım olan avadanlıqlarla ödənişsiz təmin olunublar.



**Yarmarkalar Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metrostansiyasının çıxışı, Atatürk parkının qarşısı) ünvanında fəaliyyət göstərir.**

# 10 ayda Azərbaycanla Qazaxıstan arasında ticarət dövriyyəsinin dəyəri 385 milyon dolları keçib

**Qazaxıstan ilə Azərbaycan arasında xarici ticarət həcmi bu ilin yanvar-oktyabr aylarında 385,2 milyon dollar və ya hesabat dövründə Qazaxıstanın ümumi ticarət dövriyyəsinin 0,3 faizini təşkil edib.**

AZƏRTAC Qazaxıstan Milli Statistika Bürosuna istinadla xəbər verir ki, Azərbaycana ixrac həcmi 325,9 milyon dollara çatıb ki, bu da ümumi ixracın 0,5 faizini təşkil edir.

Azərbaycandan malların idxalı həcmi 59,2 milyon dollar və ya ümumi ixracın 0,1 faizini təşkil edib.

# 11 ayda pensiya ödənişlərinə 6,5 milyard manat vəsait yönəldilib

**Bu ilin 11 ayında pensiya ödənişlərinə ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz (567 milyon manat) çox olmaqla 6 milyard 515 milyon manat vəsait yönəldilib.**



2025-ci ilin əvvəlindən bütün növ pensiyalar 8,1 faiz indeksləşdirilərək artırılıb, fevralın 1-dən isə minimum pensiya 14,3 faiz artırılaraq 280 manatdan 320 manata çatdırılıb.

Pensiyaların orta aylıq məbləği 9 faiz artımla 540 manata, o cümlədən yaşa görə pensiyaların orta aylıq məbləği 576 manata çatıb.

Yanvar-noyabr aylarında 38 min, elektron pensiya təyinatına başlandığı 2019-cu ilin əvvəlindən 176 min pensiya təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

# Özünüməşğulluq proqramı köməyə gəlir

## Təkcə cari ilin 11 ayında 4300-dən çox işaxtaran bu proqram çərçivəsində aktivlərlə təmin olunub

**Prezident İlham Əliyevin apardığı sosial siyasət daha çox insanın rifahının yaxşılaşdırılmasına yönəlib. Bu istiqamətdə icra edilən islahatların əsas məqsədi dövlətin imkanlarından hər bir vətəndaşın faydalanmasına şərait yaratmaqdır. İslahatların şaxələndirilməsi və qanunvericilik bazasının təkmilləşdirilməsi isə vətəndaşlara səmərəli sosial xidmətlərdən yararlanmağa imkan verir.**

Dövlətin sosial sahədə həyata keçirdiyi islahatların hədəflərindən biri də əhalinin məşğulluğunun təmin edilməsidir. Çünki bu, insanların sosial rifahının yaxşılaşmasında önəmli rol oynayır. Xüsusən özünüməşğulluq proqramı çərçivəsində şəxsi kiçik biznesin yaradılması daha faydalıdır. Bu imkandan istifadə edən vətəndaş təkcə özünün deyil, ailə üzvlərinin də məşğulluğunu təmin etmiş olur.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən icra olunan özünüməşğulluq proqramı çərçivəsində işsiz və işaxtaran şəxslərə istehsal və xidmət sahələrində kiçik biznes fəaliyyətinə başlamaq üçün 28 istiqamət üzrə zərflər təqdim edilir. Bu zərflər vətəndaşların müxtəlif sahələrdə peşəkar fəaliyyət göstərmələrinə, peşə bacarıqlarını gəlirli biznesə çevirmələrinə və əmək bazarında öz mövqelərini gücləndirmələrinə şərait yaradır.

Proqram çərçivəsində təqdim edilən zərflərin tərkibi və istiqamətləri əmək bazarının araşdırılması, mövcud tələbatın qiymətləndirilməsi nəticəsində müəyyən edilir və mütəmadi təkmilləşdirilir. Öz biznes ideyasını reallaşdırmaq istəyən şəxslər özünüməşğulluq proqramına müraciət edərək təqdim olunan imkanlardan faydalana bilirlər. Təkcə cari ilin 11 ayı ərzində 4329 nəfər istehsal və xidmət istiqamətləri üzrə aktivlərlə təmin ediliblər.

44 günlük Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən sonra işğaldan azad olunan ərazilərdə nəhəng sosial quruculuq layihələri həyata keçirilir. Doğma yurdlarından didərgin düşmüş soydaşlarımızın geri dönməsi üçün həmin ərazilərdə şəhər və kəndlər bərpa edilir və yeniləri salınır. Yurdlarına qayıdan soydaşlarımızın məşğulluğunun təmin edilməsi də unudulmur. Bu istiqamətdə dövlət-özəl sektor tərəfdaşlığı proqramlarının icrası xüsusi əhəmiyyət daşıyır. Çünki dövlətin bütün vətəndaşları onun tabeliyində olan qurumlarda işlə təmin etmək imkanı yoxdur və o üzdən özəl sektorla əməkdaşlıq edib maliyyə yükünün bölüşdürülməsi ilə bu məsələni həll etmək mümkündür.

Bu yaxınlarda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində işəgötürənlərlə növbəti görüş keçirilib. Vurğulanıb ki, işğaldan azad olunmuş ərazilərə köçürülən sakinlərin dayanıqlı məşğulluğunun təmin olunması istiqamətində proqramlar daim genişləndirilir və bu məqsədlə işəgötürənlərlə sıx əməkdaşlığın həyata keçirilməsi diqqətdə saxlanılır. Nazirlik bölgələrə köçürülən vətəndaşların məşğulluğunun təminatı sahəsində aparılan işləri davam etdirir. Həmin vətəndaşlar hələ köçürülməzdən əvvəl onlarla görüşlər keçirilərək məşğulluq imkanları qiymətləndirilir. Köçürüldükdən sonra isə onlar məşğulluq proqramlarına (işədüzəltmə, özünüməşğulluq proqramı, peşə hazırlığı və s.) cəlb edilirlər.

"Böyük qayıdış" proqramına uyğun olaraq Dövlət Məşğulluq Agentliyi işğaldan azad olunmuş ərazilərimizə köçürülən sakinlər üçün aktiv məşğulluq tədbirlərinin təşkilini davam etdirir və bu məqsədlə mütəmadi olaraq əmək yarmarkaları keçirir. Növbəti əmək yarmarkası Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə Zəngilan rayonunun Ağalı kəndində təşkil olunub. 14 işəgötürənin iştirakı ilə keçirilmiş yarmarkada İT üzrə mütəxəssis, aşpaz, bağ fəhləsi, qaz paylayıcı stansiyanın operatoru, qeydiyyatçı, sürücü, anbardar, gözətçi, çilingər və s. peşələr olmaqla ümumilikdə 103 vakansiya təqdim edilib.

Qarabağ və Gəncə-Daşkəsən Regional Məşğulluq filialları tərəfindən keçirilmiş aktiv məşğulluq tədbirlərində isə 44 işəgötürən tərəfindən ümumilikdə 400-ə yaxın vakansiya təqdim olunub. Vakansiyalara müraciət edən şəxslərə işə qəbul tələbləri barədə məlumat verilib və uyğun namizədlərin qeydiyyatı aparılıb.



Əhalinin sosial müdafiəsinin yaxşılaşdırılmasında beynəlxalq əlaqələrin qurulması və onlarla əməkdaşlıq edilməsi də vacibdir. Belə əməkdaşlıq hesabına beynəlxalq təşkilatlardan və Dünya Bankından müəyyən məbləğdə vəsait cəlb etməklə özünüməşğulluq proqramları ilə əhalinin işlə təminatını yaxşılaşdırmaq mümkündür. Bunun üçün dünyada qəbul edilən müəyyən standartların ölkəmizdə tətbiqi tələb olunur. Belə standartlardan biri də ICO 9001:2015-dir. Odur ki, Dövlət Məşğulluq Agentliyi fəaliyyətinin ISO 9001:2015 beynəlxalq standartının tələblərinə uyğunlaşdırılmasına başlayıb. Bu, standart qurumda idarəetmənin səmərəliliyinin artırılmasını, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsini, vətəndaş məmnunluğunun təmin olunmasını və fəaliyyətin şəffaf, ölçülə bilən göstəricilər əsasında aparılmasını nəzərdə tutur. Artıq İsveçrənin nüfuzlu sertifikatlaşdırma qurumu olan "Swiss Approval" tərəfindən agentlikdə sertifikatlaşdırma auditi keçirilib. Audit çərçivəsində təşkil edilən rəsmi görüşdə qonaqlara məlumat verilib ki, sözügedən standartın tətbiqinin qurumda idarəetmə proseslərinin optimallaşdırılması, xidmətlərin beynəlxalq tələblərə uyğunlaşdırılması və inkişafının sürətləndirilməsi baxımından əhəmiyyətli işlər görülüb.

Xatırladaq ki, bundan əvvəl Dövlət Məşğulluq Agentliyi Beynəlxalq Standartlaşdırma Təşkilatının ISO 37001:2016 "Antikorrupsiya idarəetmə sistemi" standartı üzrə sertifikata layiq görülmüşdür.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## RƏQƏMSAL DÜNYA

# Nəhəng yeraltı dağ strukturları

"Nature" jurnalında dərc olunan araşdırma Yer səthindən min kilometrlərlə dərinlikdə qitə ölçülü nəhəng strukturların mövcudluğunu üzə çıxarıb. İllərdir planetin ən yüksək nöqtəsi sayılan Everest bu kəşf fonunda tamamilə yeni perspektiv qazanır: alimlərə görə, ən böyük dağlar səthdə deyil, mantiyanın dərinliklərindədir.

Utrext Universitetindən Arven Deussun komandası tərəfindən hazırlanmış qlobal seysmik modelləşdirmə göstərib ki, nüvə ilə mantiya sərhədində - Afrikanın altında və Sakit okeanın ortasında min kilometrə yaxın hündürlükdə iki nəhəng forma yerləşir. Onlar ənənəvi dağlara bənzəməsə də, ölçüləri planetin ən böyük daxili strukturları hesab olunur.



Bu birləşmələrin hər birinin eni beş min kilometrə çata və bir qitə qədər ərazini əhatə edə bilər. Çox isti və kimyəvi cəhətdən fərqli olan bu bölgələr milyardlarla ildir mantiyanın qalan hissəsi ilə qarışmayan materiallarla zəngindir. Tədqiqatın əsl əhəmiyyəti bu strukturların harada yerləşdiyini göstərməkdə deyil, onların kimyəvi xassələrini müəyyən etməkdədir. Bunu anlamaq üçün tədqiqatçılar seysmik enerjinin bu bölgələrdən keçərkən necə zəiflədiyini təhlil ediblər. Tapıntılar göstərib ki, bu formasiyalar son dərəcə sıx və bənzərsiz bir materialdan ibarətdir və hətta Yerin daxili hissəsinin çox hissəsindən daha qədimdir.

Nəzəriyyələrdən biri bu "daxili dağların" qədim tektonik plitələrin mantiyaya hopmuş qalıqları olmasıdır. Bu plitə kütlələrinin bir növ "geoloji qəbiristanlıq" əmələ gətirdiyi və onların mantiyanın qalan hissəsi ilə qarışmasının qarşısını aldığı düşünülür. Onların nəhəng ölçüsü və qeyri-adi quruluşları, Yer kürəsinin ilk günləri haqqında yeni ipucları təqdim etməklə planetimizin əmələ gəlməsi haqqında bildiklərimizi yenidən formalaşdırmaq potensialına malikdir.

# Qədim nikah üzüyü tapılıb



Arxeoloqlar Bolqarıstanın Vidin şəhərində qədim Roma dövrünə aid xeyli çəkiyə malik qızıl nikah üzüyü aşkar ediblər. Çəkisi 23,63 qram olan artefakt Bononia yaşayış məntəqəsində aparılan qazıntılar zamanı altı metr dərinlikdə tapılıb.

İlkin tədqiqatlar üzüyün eramızdan əvvəl II-III əsrlərə aid olduğunu göstərir. Onun üzərində ər-arvad təsvirinin həkk olunduğu oval disk yerləşir və bu, üzüyün nikah simvolu kimi istifadə edildiyini təsdiqləyir. Ziynət əşyası paralel akosiklərlə bəzədilib. Onun tarixən zərgərlik məmulatları ilə məşhur olan Ratiariya əyalətindəki emalatxanalardan birində hazırlandığı düşünülür.

# Dünyanın ən qara parçası

ABŞ-nin Kornel Universitetinin alimləri üzərinə düşən işığın 99,87 faizini udan yeni parça hazırlayıblar. Nanotexnologiya əsasında yaradılan bu material işığı demək olar ki, tamamilə udaraq ultra-qara görünüş formalaşdırır. Mütəxəssislər bildirirlər ki, yeni parça mövcud oxşar texnologiyalara nisbətən daha ucuz və asan istehsal olunur.

Materialın hazırlanması üçün ağ merinos yunu əvvəlcə sintetik melanin polimeri olan polidopaminlə örtülüb, daha sonra parça plazma mühitində nanofibril adlanan mikroskopik strukturlarla oyulub. Məhz bu nanohissəciklər işığı içəridə saxlayaraq parçanın qaranlığını təmin edir.

Yeni texnologiya dizayn üçün təbiətdən ilham alır. Parçanın hazırlanma prinsipi Yeni Qvineya və Şimali Avstraliyada yaşayan "Magnificent Riflebird" quşunun ultraqara tüklərindən götürülüb. Bu quşun tükləri işığı udduğuna görə parlaq mavi-yaşıl rənglərlə daha güclü kontrast yaradır.



Artıq yeni materialın moda sənayesində tətbiqinə də başlanılıb.

# 400 min illik od qalığı



Şərqi İngiltərənin Barnham kəndində aparılan qazıntılar insanların ilk dəfə od yaratdığı dövrün indiyə qədər düşünüləndən 350 min il daha qədim olduğunu göstərib. Bu isə hazırkı elmi təsəvvürləri tamamilə dəyişir.

Tədqiqat zamanı insanların 400 min il əvvəl süni şəkildə od yandırdığını sübut edən bişmiş torpaq qatları və Daş dövrünə aid ən erkən çaxmaqdaşı alışdırıcısı aşkar olunub. Bu alət çaxmaq daşının piritə vurulması ilə qığılcım yaradaraq od alınmasına imkan verirdi. Alimlərin sözlərinə görə, odun kəşfi insanın inkişafında dönüş nöqtəsi olub, sığındığı yeri isti saxlamaq, qida bişirmək və bunun nəticəsində beynin inkişafı sürətlənib. Böyük Britaniya Muzeyindən professor Nik Eşton jurnalistlərə ərazini əyani göstərərək bu mühüm tapıntının əhəmiyyətini izah edib.

# Antarktida robotunun dönüşü

Antarktidada buz təbəqəsinin altında itkin düşən sualtı robot aylar sonra yenidən üzə çıxıb və topladığı qiymətli məlumatları təqdim edib. Robot Şərqi Antarktidada - Denman buzluğu və Şakleton buz şelfinin altında aparılan araşdırmalar zamanı əlaqə kəsildikdən sonra donmuş okeanın dibində səkkiz ay boyunca rabitəsiz qalıb. Bu müddət ərzində o, sahilə çıxa bilmirdi və peyk vasitəsilə məlumat ötürmək imkanı yox idi.

Bu müddət ərzində robot hər beş gündə bir profil yazaraq dəniz dibindən buz qatının altına qədər temperatur, duzluluq, təzyiq, oksigen səviyyəsi, pH və nitrat göstəriciləri daxil olmaqla unikal məlumatlar toplayıb.



Tapıntılar iki ildən çoxdur bölgədəki soyuq cərəyanları izləyən tədqiqatçılar tərəfindən analiz olunub və CSIRO ilə Avstraliya Antarktika Proqramı tərəfindən qiymətləndirilib.

Araşdırma nəticələri Şakleton buz şelfinin nisbətən sabit olduğunu göstərsə də, Denman buzluğu altında isti suyun hərəkətinə dair əlamətlər müşahidə edilib. Bu cüzi dəyişikliklər belə gələcəkdə ərimənin sürətinə və dəniz səviyyəsinin yüksəlməsinə təsir göstərə bilər. Bu uğurlu missiya birbaşa müşahidənin mümkün olmadığı ucqar Antarktik bölgələrini süni intellekt və robotika vasitəsilə öyrənməyin nə qədər vacib olduğunu bir daha nümayiş etdirdi.

Bu tapıntılar gələcəkdə buz qatlarının sabitliyi və qlobal dəniz səviyyəsinin qalxması ilə bağlı iqlim modellərinin daha dəqiq hazırlanmasına mühüm töhfə verəcək.

# Marsda qeyri-adi qaya



Marsda alimləri təəccübləndirən qeyri-adi qaya forması aşkarlanıb. Jezero kraterinin yaxınlığında tapılan və "Phippsaksla" adlandırılan bu qaya ətraf mühitə tam uyğun gəlmir.

NASA mütəxəssisləri onun böyük ehtimalla metal meteorit olduğunu düşünürlər. Vernodden zonasının tipik düz və aşınmış qayalı mənzərəsində yerləşən "Phippsaksla" öz ölçüsü, forması və səth quruluşu ilə seçilir. "Mastcam-Z" görüntüləri qayanın rəng çalarlarının və teksturasının ətrafdakı qayalardan tam fərqli olduğunu göstərir.

Analizlər qayanın dəmir və nikel baxımından çox zəngin olduğunu müəyyən edib ki, bu da qədim asteroidlərin nüvələrindən qopan metal meteoritlərə xasdır. Bütün sübutlar onun Marsa kənardan düşmüş meteorit olması ehtimalını gücləndirsə də, NASA hələ rəsmi təsnifat verməyib. Alimlər Marsın geoloji prosesləri ehtimalını tam istisna etdikdən sonra qayanın meteorit kimi tanınmasına qərar verəcəklər.

# Yeni amfibiya növü



Braziliyalı alimlər Atlantik okeanı yaxınlığında, Santa-Katarina ştatındakı ucqar Serra-du-Quiriri dağ silsiləsində yeni amfibiya növü kəşf ediblər. Ölçüsü təxminən 14 mm olan qurbağa "Brachycephalus lulai" adlandırılıb.

Tədqiqatçıların sözlərinə görə, qurbağa dağlıq ərazilərin meşə örtüyündə yaşayır. "Brachycephalus" cinsinin nümayəndələri parlaq rəngləri və son dərəcə kiçik ölçüləri ilə tanınırlar. Hazırda elmə bu cinsdən 42 növ məlumdur.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI
QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
ÖZ YOLU İLƏ GEDƏN AZƏRBAYCAN
Heydər Əliyev və Azərbaycanın Əsas Qanunu
İslam həmrəyliyinə əsaslanan Azərbaycan-Qətər münasibətlərinin səviyyəsi bizi sevindirir
Azərbaycan-BƏƏ enerji əməkdaşlığına "yaşıl işıq"
"Dəmir iradə"nin polad yolları
Aİ-nin sülh gündəliyinə zidd fəaliyyəti qəbuledilməzdir
azerbaijan-news.az

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Bilmək istəyirəm

*Məlumdur ki, yeni tikili çoxmənzilli yaşayış binalarında idarəetmə bir qayda olaraq MTK tərəfindən yaradılmış qurumlar vasitəsilə həyata keçirilir. Qanunvericiliyə əsasən, müəyyən müddətdən sonra bina sakinləri idarəetməni öz üzərlərinə götürmək və bu məqsədlə yeni idarəetmə qurumu yaratmaq hüququna malikdirlər. Lakin praktika göstərir ki, idarəetmə sakinlər tərəfindən formalaşdırıldıqdan sonra belə, müxtəlif adlar altında toplanan vəsaitlərin hansı məqsədlərlə və necə xərcləndiyi barədə sakinlər ətraflı və şəffaf məlumat əldə edə bilmirlər. Bir çox hallarda maliyyə axınlarına real nəzarət mexanizmi mövcud olmur. Bu baxımdan, sual yaranır - çoxmənzilli yaşayış binasında maliyyə fəaliyyətinə nəzarət hansı qaydada həyata keçirilməlidir? Toplanan vəsaitlərin auditini və maliyyə yoxlamasını kim və hansı mexanizmlər vasitəsilə aparmalıdır? Eyni zamanda bina sakinləri öz hüquqlarını qorumaq və yığılan, habelə xərclənən vəsaitə nəzarəti təmin etmək üçün hansı qanunvericilik aktlarına istinad etməli və hansı qanuni mexanizmlərdən istifadə etməlidirlər?*

***Cavid ƏLİYEV,***
***Bakı şəhəri***

✓ - Azərbaycan Respublikasının Mənzil Məcəlləsinə əsasən, çoxmənzilli binanın idarə edilmə üsulunu və ona uyğun maliyyə rejimini binanın sahə mülkiyyətçilərinin ümumi yığıncağı müəyyən edir və idarəetmə şəkli isə mənzil mülkiyyətçilərinin müştərək cəmiyyəti formasında müəyyən olunur. Binanın saxlanılması üzrə xərclərə nəzarət, hesabatların təqdim edilməsi, büdcənin təsdiqi və idarəetmənin təşkili ilə bağlı sair məsələlər ümumi yığıncağın səlahiyyətinə daxildir. Nəzarətin təmin edilməsi üçün binaya aid ayrı bank hesabı açılır, bina idarəçisi tərəfindən maliyyə hesabatları hazırlanır, hesabatlar müstəqil kənar auditor və ya nizamnamə ilə nəzərdə tutulmuşdursa, binanın seçdiyi audit komitəsi tərəfindən yoxlanması da mümkündür. Qanunvericiliklə mümkündür ki, ümumi yığıncaq idarəetməni xarici təşkilata həvalə etsin. Bu zaman idarəetmə müqaviləsində maliyyə hesabatlarının təqdimatı, hesab-kitabın aparılması, bank hesablarının saxlanılması və audit rejimi konkret şəkildə göstərilməlidir. İstinad olunmalı qanunvericilik aktlarına gəldikdə isə, bu münasibətləri təzimləyən əsas normativ sənədlər Azərbaycan Respublikasının Mənzil Məcəlləsi, Mülki Məcəlləsi, "Çoxmənzilli binanın idarəedici təşkilatının seçilməsi üzrə açıq müsabiqə keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı tənzimləyir.

*Övladımın 3 yaşı tamam olub və işə başlamaq istəyirəm. Kadrlar şöbəsi bildirir ki, analıq məzuniyyətinə qədər işlədiyim şöbə ləğv edilib və mənə uyğun yer yoxdur. Deyirlər ya ərizə yazmalıyam, ya da ixtisarla işdən çıxarılacağam. Bu halda mənim hüquqlarım nədir və qanunla vəziyyət necə tənzimlənməlidir?*

***Sevda HÜSEYNOVA,***
***Bakı şəhəri***

✓ - Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əsasən, uşağa qulluğa görə məzuniyyət uşağın 3 yaşı tamam olanadək verilir və bu müddət başa çatdıqdan sonra işçi əvvəlki işinə və ya vəzifəsinə qayıtmaq hüququna malikdir. İşəgötürən işçinin işə çıxmasını təmin etməlidir və onun əmək hüquqlarını məhdudlaşdıra bilməz. İşəgötürən tərəfindən "işlədiyiniz şöbə ləğv edilib və uyğun yer yoxdur" arqumentinin irəli sürülməsi işdən azad edilmə üçün əsas sayılmır, çünki struktur dəyişikliyi və ya şöbənin ləğvi halında işəgötürən işçinin ixtisasına, peşə hazırlığına və sağlamlıq vəziyyətinə uyğun olan bütün mövcud boş vəzifələri ona təklif etməyə borcludur. İşçini öz ərizəsi ilə işdən çıxmağa məcbur etmək qanunsuzdur və ərizə yalnız işçinin sərbəst iradəsi ilə yazıla bilər. Əgər işəgötürən işçini ştatların ixtisarı əsası ilə işdən azad etmək niyyətindədirsə, bu zaman Əmək Məcəlləsində nəzərdə tutulan prosedura ciddi şəkildə əməl edilməlidir. Belə ki, işçiyə onun stajından asılı olaraq 2 təqvim həftəsindən 9 təqvim həftəsinədək əvvəl rəsmi xəbərdarlıq edilməli, xəbərdarlıq müddəti ərzində hər iş həftəsində əmək haqqı saxlanılmaqla iş axtarmağa imkan yaradılması məqsədilə işçi azı bir iş günü əmək funksiyasının icrasından azad edilməli, həmçinin stajdan asılı olaraq, orta aylıq əməkhaqqının 1 mislindən 2 mislinədək müavinət ödənilməlidir. Bundan başqa, müvafiq hallarda işçilərin sayı azaldılarkən və ya ştatların ixtisarı həyata keçirilərkən müəyyən vəzifələr üzrə əmək funksiyasının icrası üçün tələb olunan ixtisasın (peşəsinin) və peşəkarlıq səviyyəsinin daha yüksəyinə malik olan işçilər işdə saxlanılmalıdır. Bu tələblərdən hər hansı birinin pozulması işdən çıxarılmanı əsassız edir və işçi həmin qərardan məhkəmə və ya Dövlət Əmək Müfəttişliyi Xidmətinə şikayət vermək hüququna malik olur. Ümumilikdə, uşağa qulluq məzuniyyətindən qayıdan ana kimi sizin iş yerinizin qorunması qanunla təmin edilir və işəgötürən ya sizi əvvəlki və ya bərabər vəzifə ilə təmin etməlidir, ya da yalnız qanunun bütün tələblərinə əməl etməklə ixtisar prosedurunu tətbiq edə bilər. Könüllü ərizə yazmağa məcbur edilməyiniz isə qanunvericiliyə ziddir.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

# Hava əsasən yağmursuz keçəcək

Azərbaycanda bu günə gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.

Lakin gecə və axşam bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2-4, gündüz 7-11 dərəcə isti olacaq. Atmosfer təzyiqi 770 millimetr civə sütunundan 767 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-70 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 3 dərəcə şaxtadan 2 dərəcəyədək isti, gündüz 7-12 dərəcə isti, dağlarda gecə 5-10 dərəcə şaxta, gündüz 2-7 dərəcə isti olacaq.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**



**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4121
Sifariş 2542

Qiyməti 60 qəpik